RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 12 (10032) 22 yanvar 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibə verib. Dövlətimizin başçısı həmin gün həmçinin bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib.

Prezident İlham Əliyev yanvarın 20-də Davosda İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb, dünyanın aparıcı qlobal maliyyə institutlarından biri olan Amerika Birləşmiş Ştatlarının "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso, aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un baş icraçı direktoru Larri Fink və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşüb.

Yanvarın 20-də Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclası keçirilib. Ölkə Prezidenti İlham Əliyev həmin iclasda iştirak edib.

Dövlətimizin başçısı İlham Əliyev həmin gün Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani, yanvarın 21-də Davosda "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teski, Çex Respublikasının Baş naziri Andrey Babiş, dünyanın IT texnologiyaları üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos və "Vitol" şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə görüşüb.

Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 21-də Davosda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp xüsusi müraciətlə çıxış edib. Sonra Donald Trampın iştirakı ilə panel iclas keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

1-8

## Sülhə nail olmaq üçün güclü siyasi iradə lazımdır

### Prezident İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib. AZƏRTAC həmin görüşdən hazırlanan materialı təqdim edir.

8

## Azərbaycan Sülh Şurasına qoşularaq, onun nəcib missiyasını paylaşacaq

### Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycan Respublikasını dəvət etdiyiniz məktuba görə Sizə minnətdaram.

Bu dəvəti Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının qarşılıqlı hörmətə əsaslanan faydalı tərəfdaşlığının, həmçinin Azərbaycanın regional və qlobal miqyasda sülh və sabitliyin təşviqində rolunun tanınmasının rəmzi olaraq qəbul edirəm.

Azərbaycan Respublikası Sülh Şurasına qoşularaq, onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz və rifahlı gələcək qurulması kimi nəcib missiyasını paylaşacaq.

İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək.

Sizin müdrik liderliyinizə və sülh quruculuğu səylərinizə səmimi təqdirimi qəbul edin. Sizə Sülh Şurasının Sədri vəzifənizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Davos, 21 yanvar 2026-cı il*



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

To His Excellency Mr. Donald J. Trump,
President of the United States of America

Dear Mr. President,

Thank you for your letter inviting the Republic of Azerbaijan to join the Board of Peace as a founding member state.

I accept this invitation as a sign of mutually respectful and beneficial partnership between the Republic of Azerbaijan and the United States of America, and as a recognition of Azerbaijan's role in promotion of peace and stability at the regional and global levels. The Republic of Azerbaijan joins the Board of Peace by sharing its noble mission of ending the conflict in Gaza and building a safer and more prosperous future for all affected by the long-lasting conflict.

I believe that the Board of Peace will be an effective international organization and successfully deliver on its mission.

Please, accept my sincere appreciation for your visionary leadership and peace-building efforts, and best wishes of success in your capacity as the Chairman of the Board of Peace.

Ilham ALIYEV
President of the Republic of Azerbaijan

Davos, 21 January 2026

## Prezident İlham Əliyev Şəhidlər xiyabanını ziyarəti barədə sosial şəbəkə hesablarında videoçarx paylaşıb



https://video.azertag.az/site/video/291423

## Azərbaycan Prezidenti "Qarabağ" futbol klubunu təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesablarında "Qarabağ" futbol klubunun qələbəsi ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

*"Çempionlar Liqasının əsas mərhələsində "Ayntraxt" komandası üzərində parlaq qələbə qazanması münasibətilə "Qarabağ" futbol klubunu ürəkdən təbrik edirəm!*

*Hakimin ədalətsiz və qərəzli qərarlarına baxmayaraq, haqq-ədalət öz yerini tapdı. Birinci dəfə deyil ki, UEFA tərəfindən təyin edilən hakimlər ədalətsiz və qərəzli qərarları ilə "Qarabağ"ın qələbə yolunu kəsməyə çalışırlar. Ümid edirəm ki, UEFA bu hakimin kimin tərəfindən təyin olunmasına aydınlıq gətirəcək.*

*Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil. Yaşasın "Qarabağ"!*




## ABŞ Prezidenti Azərbaycan Respublikasını Sülh Şurasına təsisçi üzv dövlət qismində qoşulmağa dəvət edib

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sizi - Azərbaycan Respublikasının Prezidentini Yaxın Şərqdə sülhü möhkəmləndirmək üçün, eyni zamanda qlobal münaqişənin həll olunmasına yeni yanaşma üsuluna qədəm qoymaq yolunda son dərəcə mühüm əhəmiyyət daşıyan tarixi və möhtəşəm səyimizə qoşulmağa dəvət etməkdən böyük şərəf duyuram.

Mən 2025-ci il sentyabrın 29-da Qəzza münaqişəsinə son qoymaq üçün əhatəli plan elan etdim. Bu, ərəb dünyası, İsrail və Avropa da daxil olmaqla, bütün dünya liderləri və əsas dövlət başçıları tərəfindən sürətlə qəbul edilən 20 bəndlik fövqəladə yol xəritəsidir. Həmin planın davamı olaraq, noyabrın 17-də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 2803 saylı qətnaməni böyük səs çoxluğu ilə qəbul edərək, bu baxışı alqışladı və dəstəklədi.

İndi isə artıq bütün bu xəyalları reallığa çevirməyin vaxtıdır. Planın mərkəzində indiyədək formalaşdırılmış ən təsirli və ən nəticəyönlü Sülh Şurası dayanır. Bu şura yeni beynəlxalq təşkilat və Keçid İdarəetmə Administrasiyası kimi təsis ediləcək.

Bizim səylərimiz nümunə göstərməyə hazır olan, yeni nəsillər üçün təhlükəsiz və çiçəklənən gələcəyə parlaq şəkildə sərmayə yatıranlara nəsib olan bir şərəfi - daimi sülhün qurulması kimi nəcib məsuliyyəti çiyinlərinə götürmək istəyən seçilmiş ölkələr qrupunu bir araya gətirəcəkdir. Yaxın gələcəkdə əksəriyyəti yüksək hörmətə sahib dünya liderləri olan möhtəşəm və etibarlı tərəfdaşlarımızı bir araya gətirəcəyik.

Şuranın Sədri kimi, Azərbaycan Respublikasını təsisçi üzv dövlət qismində qoşulmağa və Sizin təmsilçiliyinizlə Sülh Şurasının Nizamnaməsinə tərəf olmağa rəsmi şəkildə dəvət edirəm. Bu Şura bənzərsiz bir qurum olacaq - indiyədək buna oxşar heç bir qurum mövcud olmayıb! Hər bir üzv dövlət onun adından iclaslarda iştirak etmək və təmsil olunmaq üçün səlahiyyətli nümayəndə təyin edə bilər. Əlavədə əhatəli plan və hazırda imzalanma və ratifikasiya üçün açıq olan şuranın Nizamnaməsi təqdim olunur.

Gələcək illərdə dünyada dayanıqlı sülhün, rifahın və hamı üçün qüdrətin bərqərar olunması məqsədi naminə Sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirəm.

Hörmətlə və ən xoş arzularla, Mən,

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***



# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur

## Prezident İlham Əliyev Davosda "Euronews" televiziyasına müsahibə verib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

**Müxbir:** - *Sizi salamlayırıq və Davosda "Avrasiya Söhbətləri"nə xoş gəldiniz. Bu gün mən məmnunluqla Azərbaycan Prezidenti cənab İlham Əliyevlə söhbət aparacağam. Hazırda bizə qoşulduğunuza görə olduqca minnətdaram. Sizi görmək çox xoşdur. Burada, Davosda dünya liderləri ilə bir araya gəldiyiniz zaman biz hazırda mövcud beynəlxalq sistemin fundamental olaraq yenidən dəyərləndirilməsinin şahidiyik. Bir sözlə, Siz bu dəyişiklik barədə əvvəlcə də xəbərdarlıq etmişdiniz. Ölkəniz dünya quruluşunun bu cür dəyişməsinə necə uyğunlaşır və Sizin dünya liderlərimizə sözünüz nədən ibarətdir?*

**Prezident İlham ƏLİYEV:** - Bilirsiniz, əslində, qeyd etdiyiniz kimi, biz elə bir vəziyyətlə üzləşirik ki, beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri üçün artıq mütləq görünmür. Buna görə strateji məqsədimiz milli maraqlar əsasında nəticələri əldə etməkdən ibarət idi və beynəlxalq hüquqa tam riayət edərək düzgün hesab etdiyimizi həyata keçirmək idi. Gördüyümüz hər bir iş - istər siyasi inkişaf, istərsə də suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası beynəlxalq hüquqa və ümumi dəyərlərə uyğun idi. Beləliklə, qeyd etdiyiniz kimi, beynəlxalq münasibətlər bu gün yeni eraya qədəm qoyur. Bu erada vəziyyəti qanunun aliliyi deyil, güc qaydası idarə edir. Biz bunu dünyanın müxtəlif yerlərində görə bilərik. Buna görə o, bir daha göstərir ki, hər ölkə öz strategiya və siyasətini özünün potensialına uyğunlaşdırmalıdır, o cümlədən mümkün qədər çox ölkələrlə, ilk növbədə öz bölgəsində, sonra isə qlobal müstəvidə yaxşı münasibətlər qurmalıdır. Azərbaycan məhz buna nail oldu.

- *Sizi təbrik etmək istəyirəm. Dünən öyrəndim ki, göstərdiyiniz bütün səylərə görə Siz "Zayed İnsan Qardaşlığı Mükafatı"nı alacaqsınız. Təbii ki, bununla gəlib növbəti suala çıxıram. Bildiyiniz kimi, onilliklər ərzində rəqabətə əsaslanan maraq, təsir və dəyişən müttəfiqlikdən sonra Ermənistanla tarixi sülh razılaşması ilə Cənubi Qafqaz qlobal səviyyədə sürətlə inkişaf edir. Regionda risk ilə imkanlar arasında cari tarazlığı necə dəyərləndirirsiniz?*

- Əvvəlcə, təbriklərə görə minnətdaram. Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm. Bu gün Cənubi Qafqaz həmçinin yeni inkişaf mərhələsinə daxil olur. Biz beşaltı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlər artıq əməkdaşlığa çevrilir. Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri aradan qaldırdıq. Bundan əlavə, biz Ermənistanın böyük dərəcədə asılı olduğu əsas malların, ilk növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq. Bu vəziyyətdən hamı udur. Beləliklə, düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq. Məqsədimiz budur.

- *Biz də buna ümid edirik. İran sizin qonşunuzdur. Orada cərəyan edən böhranla əlaqədar Azərbaycan hansı mövqedən çıxış edir? Bunun Avrasiya məkanında sabitliyə, o cümlədən enerji bazarlarına təsirini necə qiymətləndirirsiniz?*

- Azərbaycan da daxil olmaqla, hər bir ölkə özünün sərhədləri boyu sabitlik haqqında düşünməlidir. Azərbaycana gəldikdə, bizdə ölkə daxilində potensial risklər mövcud deyil. Bütün potensial risklər kənardan qaynaqlana bilər. Bu səbəbdən biz hər zaman qonşuluğumuzda sabitliyin mövcud olması haqqında düşünürük. Biz İranda baş verən müəyyən qeyri-sabitlikdən narahatıq. Bizim üçün regionda sabitlik, proqnozlaşdırılma və sülh ən böyük sərvətdir. Biz işğaldan və müharibədən əziyyət çəkmişik, minlərlə qurban vermişik. Bu gün sülhün və sabitliyin olması istənilən ölkə üçün uğur qazanmağın yeganə yoludur.

Enerji bazarına gəldikdə, gördüyünüz kimi, neftin qiyməti sabitdir - ən azı Azərbaycan üçün məqbul səviyyədədir. Bu, İranda, Venesuelada və ya dünyanın digər bölgələrində olan vəziyyətin neftin qiymətinə ciddi təsir göstərmədiyini nümayiş etdirir. Bu, yaxşı göstəricidir, çünki həm hasilatçıların, həm də istehlakçıların gələcəklərini planlaşdırmaq üçün vəziyyətin proqnozlaşdırıla bilinməsinə ehtiyacı var. Ümid edirəm ki, Cənubi Qafqazda və region ətrafında vəziyyət pisləşməyəcək. Bizim istəyimiz, həqiqətən, bunu görməkdir. Ümid edirəm ki, hər bir ölkə regional sabitliyə və təhlükəsizliyə öz töhfəsini verəcəkdir.

- *Sizcə, Cənubi Qafqaz enerji sektorunda getdikcə artan qüvvə ilə əhəmiyyətinə görə hansı mövqedədir, o cümlədən Avropa İttifaqı istiqamətində?*

- Enerji sektoruna gəldikdə, Azərbaycan Cənubi Qafqazın enerji ehtiyatlarına məxsus və onları Cənubi Qafqazın digər ölkələrinə ixrac edən yeganə ölkədir. Bölgənin digər ölkələri - uzun illər Gürcüstan, indi isə artıq Ermənistan enerji ehtiyatlarını Azərbaycandan idxal edir. Avropa və Avropa İttifaqı ilə isə bizim enerji əməkdaşlığımız artmaqdadır. Biz artıq 16 ölkəyə təbii qaz ixrac edirik və onların 10-u Avropa İttifaqının üzvüdür. Boru kəməri qazı ilə coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir.

Biz təbii resurslara, nəqliyyat sisteminə və müasir boru kəmərlərinə malikik. Bizim bir çox Avropa ölkəsi ilə yaxşı münasibətlərimiz var və bu, onlar üçün öz enerji təhlükəsizliyini gücləndirmək imkanıdır. Bizim üçün isə bu, premium bazarda ehtiyatlarımızı satmaq fürsətidir. Baxmayaraq ki, biz qazı təkcə Avropaya satmırıq, bu yaxınlarda Suriyaya da ixrac etməyə başlamışıq. Ancaq qiymət baxımından ən yaxşı bazar, əlbəttə ki, Avropa bazarıdır.

- *Azərbaycanın Avropa Parlamenti tərəfindən daimi tənqidinə münasibətiniz və reaksiyanız necədir?*

- Biz artıq buna reaksiya vermirik.

- *Olduqca diplomatik cavabdır.*

- Bəli, biz reaksiya verməyi dayandırmışıq. Keçmişdə biz reaksiya verirdik. Aydındır ki, Azərbaycana qarşı olan bu qərəzli vəziyyət Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən xüsusi lobbiçilik qruplarının, xüsusi qüvvələrin fəaliyyətinin nəticəsidir.

Artıq uzun illərdir ki, biz Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası ilə istənilən əməkdaşlığı dayandırmışıq. Biz Avropa Komissiyası ilə əməkdaşlıq edirik və bununla kifayətlənirik.

Düşünürəm ki, Ermənistanın özünün Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyi bir vaxtda bizi heç vaxt etmədiyimizdə, o cümlədən Ermənistana qarşı "təcavüzkar mövqedə" olmağımızda ittiham etməklə Avropa Parlamenti özünü çox qəribə vəziyyətə salır.

Ötən ilin avqustunda Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi paraflandı. Mən ümid edirəm ki, Avropa Parlamentinin üzvləri özlərində cəsarət taparaq Azərbaycana qarşı ədalətsiz mövqelərini yenidən nəzərdən keçirəcəklər.

- *Cənab Prezident, Sizinlə hər zaman söhbət etmək xoşdur, bu səhər "Euronews"a müsahibənizə görə təşəkkür edirik.*

- Dəvətinizə görə təşəkkür edirəm.

## Prezident İlham Əliyev Davosda "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib



**Yanvarın 20-də Prezident İlham Əliyev Davosda "Euronews" televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırıb.**

**Moderator:** - *Sabahınız xeyir, Zati-aliləri, xanımlar və cənablar.*

*Bu səhər çox xüsusi tədbirdə xoş gördük. Burada Azərbaycan və daha geniş bölgə üçün regional rifahın təmin edilməsi, iqtisadi imkanların yaradılması mövzusunda Azərbaycan rəhbərliyi ilə Davosda ilk səhər yeməyinə xoş gəlmisiniz. Bu gün biz daşımalar, energetika və əlbəttə ki, iqtisadi inkişaf üzrə regional qovşaq kimi Azərbaycanın artan rolunu araşdırmaq məqsədilə Sizi, hökumət rəsmilərini, biznes rəhbərlərini və sərmayədarları salamlayırıq. İndi isə bu sessiyada regional daşımalar, strateji sərmayə prioritetləri və Azərbaycanın dayanıqlı inkişafla bağlı planlarını nəzərdən keçirməyə çalışacağıq. Əvvəlcə, mən böyük məmnuniyyətlə açılış nitqi üçün "Euronews" kanalımızın sədri cənab Pedro Varqas Davidi səhnədə salamlayıram. Xoş gəlmisiniz, Pedro.*

**Pedro VARQAS:** - Sağ olun. Sabahınız xeyir. Beləliklə, ilk növbədə, icazənizlə deyim ki, "Euronews" burada - Davosda Azərbaycan rəhbərliyi ilə ilk səhər yeməyini təşkil etməkdən fərəh hissi duyur. Azərbaycan çox sürətli templə dəyişir və düşünürəm ki, auditoriyada bu qədər mötəbər qonaqları qəbul etmək və bir araya toplamaq məqsədilə "Euronews"la Azərbaycan arasında birlik Azərbaycanla müzakirə etmək, onunla birgə işləmək marağını, iradəsini göstərir və həqiqətən, gələcəkdə bu ölkənin ən parlaq ulduzlardan birinə çevrilməsi fürsətini ehtiva edir. Lakin, əvvəla, mən tarixi məqamla başlamalıyam. Çoxsaylı azərbaycanlı dostlarımız və zati-aliləri, cənab Prezident buradadırlar. Biz həmçinin Bakının işğalı zamanı sovetlərin müdaxiləsi nəticəsində 130-dan artıq azərbaycanlının həyatını itirdiyi Qara Yanvarın 36-cı ildönümünü bu gün qeyd edirik. Bu gün elə dünyada yaşayırıq ki, geriyə qayıtmağa, tarixə nəzər salmağa və yad etməyə ehtiyac duyuruq. O vaxt baş vermiş faciəli hadisələrə görə Sizə başsağlığı veririk.

İndi isə 2026-cı ildə Azərbaycan sülh içində yaşayır. Azərbaycan bütün ərazi bütövlüyünü bərpa etmiş, inkişafa çalışan, növbəti addımlarını planlaşdıran bir ölkədir. Cənab Prezident, Sizin rəhbərlik keyfiyyətləriniz liderin öz ölkəsinin gələcəyinə necə təsir edə biləcəyini, sülhə necə nail olacağını göstərir. Hətta təklif edərdim ki, Sizə və ermənistanlı həmkarınıza sülh mükafatı verilsin. Məsələ ilə bağlı müzakirə açmaq istəməzdim, lakin əminliklə deyə bilərəm ki, Siz ən mühüm sülh mükafatını artıq əldə etmisiniz - xalqınızın sülh mükafatını qazanmısınız, ədalətin və rifahın təmin edilməsi tanınır, gördüyünüz işlər sayəsində sülhün bərqərar olunduğu etiraf edilir. Bunlar yəqin ki, istənilən təşkilatın hər hansı qızıl medalından və ya digər mükafatından daha dəyərlidir. Əlbəttə ki, mən FIFA-nı nəzərdə tuturdum.

Cənab Prezident, Siz fərəh hissi duyan ölkəyə, öz gələcəyinə əmin olan ölkəyə rəhbərlik edirsiniz. Siz də hiss edə bilərsiniz ki, Azərbaycan dünyada öz mövqeyindən əmindir. "Euronews"dan əlavə olaraq, xarici investor kimi biz özəl kapitalımızla Azərbaycana sərmayə yatırmaqdan şadıq və icazə verin, Azərbaycanın hazırkı mövqeyinin uğurunun təməlində dayanan üç sahəni qeyd edim. Birinci yerdə Sizin diplomatik keyfiyyətləriniz, beynəlxalq diplomatiyanız dayanır. Sizin ölkəniz çox mürəkkəb coğrafiyada salınmış bir körpüdür. Mən Portuqaliyadanam. Bizim üçün çox asandır, İspaniyadan olan qardaşlarımız var. Lakin Sizə deyim ki, onlar da heç də hər zaman qardaşımız olmayıb. Biz beş əsr onlarla vuruşmuşuq. Hər zaman Cənubi Qafqazdakı dostlarıma deyirəm ki, baxın, sərhədlərin olmaması mümkündür. Bildirmək istəyirəm ki, biz, demək olar, ölkələr arasında fərqlərin müəyyən edilməsində çətinlik çəkirik. Onlar günortalar yatır, qalan vaxtda isə çox səs-küylü olmaqda davam edirlər. Əlbəttə, biz futbolda da qarşılaşırıq. Ümid edirəm ki, yaxın zamanlarda biz Bakıda Azərbaycan ilə Ermənistan arasında futbol meydançasında qarşılaşmanı, 11 oyunçunun digər 11 oyunçu ilə mübarizə aparmasını görə biləcəyik və deyəcəyik, qoy güclü aparsın. Bununla belə, ümidvaram ki, son illərdə Portuqaliyanın töhfəsi o qədər yaxşı olmasa da, biz yaxın vaxtlarda təkmilləşəcəyik.

Cənab Prezident, mən düşünürdüm ki, bu ilin Davos tədbirində İran məsələsinə dair müzakirələr aparacağıq. Amma görünür, bu tədbir Qrenlandiya ilə bağlı müzakirələrlə keçəcək. Təbii ki, qonşunuz Rusiyadırsa, İrandırsa, qonşuluqda tarixən ərazi iddiaları olan ölkələr varsa, baş çıxarmaq asan deyil. Sizə güc və diplomatiyanın kombinasiyası lazımdır. Məncə, Siz buna nail olmusunuz. Digər tərəfdən düşünürəm ki, Mərkəzi Asiya ilə münasibətlərinizdə Siz çox mühüm dəyişiklik etdiniz. Əlbəttə, tarixi köklərə gəldikdə, Siz türkdilli ölkəsiniz. Lakin beşliyə, indi isə altılar qrupuna qoşulmağınız vacib an idi və həmin məsələdən dünyanın qalan hissəsi də yararlanmalıdır. Mənim üçün hazırda sərmayələr baxımından bölgəniz ən yaxşı regionlardan və risk-gəlir nisbətinə görə ən yaxşı yerlərdən biridir. Daha çox qərbyönümlü sərmayədarlar üçün bu regiona diqqət yetirmək, burada bazarların imkanlarını araşdırmaq məqsədəuyğundur. Bütün küləkləri ilə Bakı heç vaxt bu qədər sakit olmayıb. Siz nəinki körpü saldınız, həmçinin buxta yaratdınız. Həmin buxtada müsəlmanlar, xristianlar və yəhudilər ahəngdarlıq məkanı tapıblar. Əfsuslar olsun ki, bugünkü dünyada normal vəziyyət hər yerdə artıq nadir hadisə hesab edilir. Ölkəniz Xəzər ilə Qara dənizi birləşdirən dünyəvi dövlətdir. Xüsusən də burada - Avropada strateji meyarlar haqqında danışdıqda, həmin iki dəniz gələcəyimiz üçün çox önəmlidir.

İkincisi, Siz etibarlı iqtisadi tərəfdaşsınız. Ölkədə həyata keçirdiyiniz və davam edən islahatlarla Azərbaycan hazırda xarici sərmayəni qəbul edən, ona açıq olan ölkədir. Düşünürəm ki, imkanların olacağı çox mühüm üç sahəni qeyd etmək olar. Orta sinfə və yerli bazarlara nəzər salsaq, həmin orta sinfə və artıma innovasiya gətirmək, sərmayə yatırmaq üçün bir çox sektorlarda, həqiqətən, imkanlar var. Həcmlərin azaldığını görürük, lakin işlərin miqyası birmənalı olaraq, bu azalmanı tamamlayır. Bir sözlə, Azərbaycanda orta sinfin inkişafında böyük imkan var. İngilis dilində danışan ali təhsilli gənc nəsil var. O, İT sahəsində daha çox ixtisaslaşır. Bu, yekun nəticədə istər texnologiyalarda, istər digər İT sektorlarında imkanlar açacaq.

Nəhayət, infrastruktur barədə danışaq. Əlbəttə, Tramp marşrutu və həyata keçirdiyiniz islahatlarla Azərbaycan həm hava və dəniz limanlarında, həm fiber-optikada, həm də böyük məlumat mərkəzləri baxımından iri infrastruktur sərmayələri üçün təbii qovşağa çevriləcək. Yeri gəlmişkən, mən istəməzdim, böyük məlumat mərkəzləri sahəsində hər hansı digər sərmayədar irəliyə bizdən daha sürətlə getsin. Enerji tarifləri, strateji mövqeyi baxımından Azərbaycan üçün kifayət qədər böyük fürsət yaranacaq. İndi isə rəqəmlərin növbəsi çatdı. Bir halda ki, mən ixtisasca iqtisadçıyam və biz Davosdayıq, gəlin, bəzi rəqəmləri səsləndirək.

Keçən il Sizin qeyri-neft sektorunda ÜDM 2,7 faiz artıb. Əlbəttə, hamımız ötən il enerji sektorunda nələrin baş verdiyini yaxşı bilirik, lakin Azərbaycan digər sahələrdə əhəmiyyətli artımı davam etdirir. Son məlumatlara əsasən, ölkədə adambaşına düşən ÜDM 7 400 dollara çatıb. Ehtimal ki, bunlar ötən həftənin göstəriciləridir.

Mənim heç bir şübhəm yoxdur ki, Azərbaycan biznes üçün açıqdır. Biz deyirik ki, pullarınızı bəyəndiyiniz yerə yatırmalısınız, elə deyilmi? Məhz buna görə də bu gün böyük məmnuniyyətlə elan edirik ki, Alpac Azərbaycan, Özbəkistan və digər regionlar üçün yeni fondumuzun ilk bağlanışını həyata keçirir və buna nail olur.

Bu fond bizim müzakirə etdiyimiz bir çox sahələrə investisiya yatıracaq. Biz fond üçün 250 milyon avro hədəfi üzərində razılığa gəlmişik və görürük ki, yaxın 4-5 il ərzində bu, ölkəyə yarım milyard avroya qədər investisiya cəlb olunmasına gətirib çıxara bilər. Ona görə də dediyimiz kimi, vəsaitlərinizi bəyəndiyiniz yerə yatırmalısınız.

*Ardı 3-cü səh.*

# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur

## Prezident İlham Əliyev Davosda "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib




*Əvvəli 2-ci səh.*

Düşünürəm ki, bizi izləyən bütün insanları və burada olan hər kəsi dəvət edirik: Bakıya gəlin, Azərbaycanı ziyarət edin, vaxt keçirin, komandalarınızı göndərin, bazarı tanıyın. İmkanlar mövcuddur, hökumət əməkdaşlığa hazırdır. Region, şübhəsiz ki, gələcək üçün strateji əhəmiyyət daşıyır.

Biz tərəfdaşlarımızla qürur duyuruq, Sizin liderliyinizdən ilham alırıq və sülh, dünyəvilik, təhlükəsizlik və güclü iqtisadi inkişaf məkanı olan bu torpaq üçün ümidliyik. Bu gün bizimlə birlikdə olduğunuz üçün çox təşəkkür edirik. İndi isə söhbətin maraqlı hissəsini sizə təqdim edirəm.

**Moderator:** - *Çox sağ olun, xanımlar və cənablar, cənab Varqas Pedro, çox təşəkkür edirəm.*

*Bildiyiniz kimi, bu gün çox xüsusi bir qonağımız var və onu yenidən səhnədə salamlamaq mənim üçün böyük şərəfdir - Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev.*

**Prezident İlham ƏLİYEV:** - Sağ olun.

**Moderator:** - *Cənab Prezident, mən düşünürəm ki, əvvəlcə Sizə qısa bir sual verim, sonra isə sözü auditoriyaya verək. Xahiş edirəm, fikirlərinizi cəmləyin və öz suallarınıza hazır olun.*

*Davosda sərmayədarlar getdikcə daha çox sabitliyə, davamlılığa və uzunmüddətli gəlirlərə diqqət yetirirlər. Bu gün Azərbaycanın əsas strateji investisiya prioritetləri hansılardır?*

**Prezident İlham ƏLİYEV:** - Əvvəla, məni dəvət etdiyinə və bu möhtəşəm tədbiri təşkil etdiyinə görə "Euronews"a təşəkkür etmək istərdim. Həmçinin ölkəmiz və əldə olunan nailiyyətlər barədə deyilən xoş sözlərə görə minnətdaram. Şübhəsiz ki, biz islahatlar yolunda irəliləməyə davam edəcəyik və "Euronews" ilə güclü tərəfdaşlığımız Azərbaycanın olduğu kimi təqdim edilməsi, nailiyyətlərimizin nümayiş etdirilməsi və potensial sərmayədarların cəlb edilməsi üçün bir fürsətdir.

İnvestisiya prioritetlərinə gəldikdə uzun illər ərzində bizim üçün əsas prioritet enerji sektoru olub. Çünki resurslarımız bizə iqtisadi nailiyyətlərimizi artırmağa və insanların həyat səviyyəsini yaxşılaşdırmağa imkan verib. Bu gün enerji layihələrinin böyük hissəsi artıq tamamlanıb. Bəli, biz fəaliyyətimizi davam etdiririk və beynəlxalq bazarlara təqdim edəcəyimiz daha çox imkanlarımız olacaq. Lakin əsas prioritet artıq qeyri-enerji sektoru, yəni neft və qazdan kənar sahələrdir.

İqtisadiyyatın şaxələndirilməsi ölkəmiz üçün birinci prioritetdir. Praktik baxımdan bu gün biz bərpaolunan enerji sahəsinə artan marağı görürük. Artıq iki iri bərpaolunan enerji elektrik stansiyasını istismara vermişik və növbəti 6 il ərzində Günəş və külək enerjisi üzrə istehsal gücümüzü əhəmiyyətli dərəcədə artıracağıq.

Başqa sözlə, 2032-ci ilə qədər Günəş və külək enerjisi üzrə 8 gigavat güc əldə etməyi gözləyirik. Günəş və külək potensialımız çoxdur və biz böyük imkanlar görürük. Biz artıq bir neçə layihə üzrə müqavilələr bağlamışıq və hazırda enerji toplanması qurğuları barədə düşünürük. İlk yer artıq müəyyən edilib.

Biz ötürücü xətlərə investisiya qoyuluşunu gözləyirik, çünki məqsədimiz "yaşıl enerji"nin ixracıdır. Məlumat mərkəzlərinə gəldikdə isə hesab edirik ki, Azərbaycan sərmayədarlar üçün əsas mərkəzlərdən birinə çevrilə bilər. Birincisi, enerji ucuzdur. İkincisi, əlavə potensialımız var. Hətta bu gün istifadə etmədiyimiz və ötürmə imkanlarının məhdudluğu səbəbindən ixrac edə bilmədiyimiz 2 gigavat elektrik enerjimiz mövcuddur.

Altı il ərzində bu göstərici 8 gigavata çatacaq və regionumuzda heç bir ölkə bu qədər əlavə gücə malik deyil. Əksər ölkələr idxaldan asılıdır. Bəziləri hətta enerji çatışmazlığı ilə üzləşir. Məhz buna görə də məlumat mərkəzləri üçün maksimum səmərəliliyin əldə oluna biləcəyi yer Azərbaycandır.

Biz bu istiqamətdə fəal işləyirik, o cümlədən Davosda keçirdiyim görüşlər və nümayəndə heyətlərinin təmasları vasitəsilə. Beləliklə, beynəlxalq əməkdaşlıq axtardığımız iki əsas investisiya sahəsi bunlardır.

Üçüncü sahə isə mədənçilikdir. Bu sahə nisbətən yenidir. Çünki nadir metallarımızın əksəriyyəti son beş və iki il ərzində Ermənistanın işğalından azad edilmiş ərazilərdə yerləşir. Hazırda ən müasir texnologiyalardan istifadə etməklə fəal tədqiqat mərhələsindəyik ki, potensialımızı dəqiq müəyyən edək. Potensialın mövcudluğu sovet dövründə aparılmış araşdırmalardan məlumdur, lakin o texnologiyalar tamamilə köhnə idi.

Mədənçilik, bərpaolunan enerji, süni intellekt və məlumat mərkəzləri xarici investisiyaların cəlb olunması üçün əsas hədəflərdir.

**Moderator:** - *Müşahidə olunan geosiyasi parçalanma və sanksiyaların təsiri altında münasibətlərin yenidən qurulması şəraitində bağlılıq təşəbbüslərinin dayanıqlığını necə təmin etmək olar? İqtisadi əməkdaşlıq və əlaqəlilik təşəbbüsləri gərgin siyasi münasibətlər olsa belə neytral bir platforma rolunu oynaya bilərmi?*

**Prezident İlham ƏLİYEV:** - Biz neft və qaz kəmərlərinin tikintisi üzrə bağlılıq məsələsi ilə məşğul olmuşuq, çünki quru ilə əhatə olunmuş ölkəyik. Neft və qazı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçməliyik. Biz Bakıdan başlayaraq genişmiqyaslı və mürəkkəb boru kəməri layihələrindən birini uğurla həyata keçirmişik. Bakıdan İtaliya sahillərinə qədər uzanan, ümumi uzunluğu təxminən 3500 kilometr olan və bir neçə ölkədən keçən, yəqin ki, ən mürəkkəb qaz kəməri layihələrindən birini uğurla reallaşdırmışıq.

Təsəvvür etdiyiniz kimi, bunu etmək asan deyildi. Çünki biz boru kəmərinin keçdiyi bütün ölkələrin hökumətləri ilə ev sahibi ölkəsi müqavilələrini, kommersiya şərtlərini və tarifləri razılaşdırmalıydıq. Biz bunu etdik. Artıq boru kəməri 5 ildir ki, fəaliyyət göstərir. Neft boru kəməri bundan əvvəl çəkilmişdir. Biz 2006-cı ildə Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan əsas ixrac boru kəmərinin açılışını etdik. Beləliklə, bu, ilk bağlılıq layihəsi idi. Sonra artıq qonşu ölkələrlə qurulmuş münasibətlər əsasında biz nəqliyyat sahəsində bağlılıq layihələrinə sərmayə yatırmağa başladıq. Biz başlanğıcını Azərbaycandan götürən, Gürcüstan və Türkiyə ərazisindən keçən, oradan Avropaya və Aralıq dənizi limanlarına gedən dəmir yolu xəttinə investisiya yatırdıq. Beləliklə, bu layihə qismən Azərbaycandan Qərbə doğru ərazini əhatə edirdi. İndi isə biz Azərbaycandan Şərq istiqamətində layihə haqqında düşünürük.

Artıq burada qeyd olunduğu kimi, biz keçən il Mərkəzi Asiya Ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olduq. Bu, beş Mərkəzi Asiya ölkəsinin prezidentləri tərəfindən qəbul olunmuş Beşlik formatını Altılıq formatına çevirmək məqsədilə yekdil qərar idi. Biz bunu Azərbaycana hörmət əlaməti, göstərdiyimiz səylərin qiymətləndirilməsi kimi qəbul edirik. Həmçinin bunu müdriklik əlaməti kimi də qəbul edirik, çünki bu gün Azərbaycandan yan keçmək o deməkdir ki, siz sanksiyalar altındakı ərazilərdən keçməlisiniz. Digər iki variant da mövcuddur, lakin onların hər ikisi Azərbaycandan Şimala və Cənuba - sanksiyaların qüvvədə olduğu zonalardan keçir ki, bu da həm malgöndərənlər, həm də, ilk növbədə, alıcılar üçün rahat deyil. Beləliklə, iş elə gətirib ki, Azərbaycan Avropa üçün Mərkəzi Asiya ilə bağlantı yaratmaq məqsədi daşıyan yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsidir.

Bizim Avropa İttifaqının "Qlobal Qapılar" adlanan layihəsi haqqında məlumatımız var. Bu layihə Avropanı Mərkəzi Asiya ilə birləşdirəcək və əlbəttə ki, Azərbaycan burada önəmli rol oynayır. Bu vaxtadək biz əsasən öz nəqliyyat infrastrukturumuza - dəniz limanlarına, hava limanlarına, dəmir yollarına, magistrallara sərmayə yatırmağa nail olmuşuq. Beləliklə, demək olar ki, hər bir şey artıq hazırdır. Lakin yüklərin həcmi o qədər sürətlə böyüyür ki, biz dəniz limanımızın ötürmə qabiliyyətini artırmaq qərarına gəldik. Beləliklə, nəqliyyat əlaqələri, o cümlədən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsi həmçinin Ermənistanı da Mərkəzi Asiyanın daha geniş regional nəqliyyat şəbəkəsinə daxil edəcək, sülh işinə töhfə verəcək. Çünki Ermənistanın yolları açılacaq, o, tariflərdən faydalar qazanacaq, daha geniş beynəlxalq əməkdaşlıqda iştirak edəcək. Onlar artıq faydaları görürlər, çünki Ermənistanla sülhə nail olduqdan sonra Azərbaycan yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb və Azərbaycanın ərazisindən Ermənistana gedən, Qazaxıstandan və Rusiyadan gələn ilk yüklər artıq göndərilib. Bundan əlavə, biz Ermənistana onların əldə edə biləcəyi qiymətdən çox ucuz olan mühüm neft məhsullarını təchiz etməyə başlamışıq. Bütün bu məsələlər bir-birinə bağlıdır - nəqliyyat əlaqələri, qonşularla yaxşı münasibətlər, sülh, yəqinlik və qarşılıqlı maraq.

**Moderator:** - *Təşəkkür edirəm, cənab Prezident.*

*İndi isə söz auditoriyanındır. Sizdən cənab Prezidentə ilk sualı kim vermək istəyir? Əllərinizi qaldırmısınız? Əminəm ki, çoxlu suallar var. Utanmayın. Pedro, sizin sualınız varmı?*

**Pedro VARQAS:** - Cənab Prezident, Azərbaycana səfər edəndə məni həmişə təsirləndirən məsələlərdən biri daşınmaz əmlakdır, orta seqmentə aid olan insanlardır. İnsanların həyatının daha da yaxşı olduğunu görürük, alıcılıq qabiliyyətinin daha da artdığını görürük. Ümumi götürsək, bu tendensiyanın gələcəkdə necə olacağını görürsünüz və daşınmaz əmlak, nəqliyyat kimi sektorlara, xarici sərmayəyə nə qədər açıqsınız? Bu, orta seqment üçün bir fürsətdir və hesab edirəm ki, gələcək illərdə bu sahədə bir sıçrayış yaşanacaq. Bir çox investor və burada iştirak edən şəxslər bu sektorda xaricilərin iştirakı barədə Sizin mövqeyinizi bilmək istərdilər.

**Prezident İlham ƏLİYEV:** - İnvestisiya və islahatlar siyasətimizə uyğun olaraq, biz işsizlik və yoxsulluq səviyyələrinə aid olan məsələyə ciddi yanaşırdıq və onların hər ikisini beş faiz səviyyəsinə azaltmağa nail olduq. Beləliklə, orta seqment hesab olunanların sayı artır və biz Azərbaycanda artan alıcılıq qabiliyyətini görürük.

Bu gün Bakıda bir neçə irimiqyaslı şəhərsalma layihəsi həyata keçirilir. Onlardan biri "Ağ Şəhər"dir. Bu, şəhərin içində olan bir şəhərdir. Gələcək bir neçə ildə burada təxminən 50 min insan məskunlaşacaq. Digəri isə həm də turizm məkanı olan "Sea Breeze" adlanır. Bu layihənin tərkibinə əyləncə xarakterli obyektlər, hotellər və yaşayış binaları daxildir. Layihə hazırda 6 kilometrdən çox sahə boyunca uzanır və hətta daha da böyüyəcək. Digər tikinti layihələrini nəzərə almadan, sadəcə, bu iki layihədə satış göstəriciləri onu nümayiş etdirir ki, böyük tələbat var. Mənzil və evləri alanların 70 faizindən çoxu yerlilərdir. Bu, iqtisadi islahatlara və iqtisadi inkişafa görə insanların alıcılıq qabiliyyətinin artdığını göstərir. Eyni zamanda bu nisbət onu da göstərir ki, Bakı və Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub. Çünki bu gün sərmayədarlar özlərini rahat və təhlükəsiz hiss edəcək yerlərin axtarışındadırlar. Bu nöqteyi-nəzərdən, - bunu həm də Pedro qeyd etmişdir, - multikulturalizm, mədəni və etnik müxtəliflik, qarşılıqlı fəaliyyətin və birgəyaşayışın çox müsbət ruhu, bütün etnik mənsubiyyəti olan insanlar və bütün ənənəvi dinlərin nümayəndələri arasındakı qarşılıqlı hörmət həqiqətən də bu ruhu yaradır ki, insanlar Bakıda ev, mənzil almaq, yay fəslini, tətilini gəlib burada - dəniz sahilində keçirmək, həmçinin investisiya yatırmaq istəyirlər. Çünki siz tikinti mərhələsində investisiya yatırdıqda artıq layihə başa çatdıqdan sonra onu ikiqat qiymətə sata bilərsiniz.

Bu, faktiki olaraq iqtisadi fəaliyyətin ən yaxşı göstəricisidir. Təəssüf ki, Azərbaycanda neft ehtiyatlarının təbii azalması səbəbindən iqtisadiyyatımız sürətlə inkişaf edə bilmir. Lakin qeyd etdiyiniz kimi, qeyri-neft sektoru 2 faizdən çox artıb və neft-qazla əlaqəli olmayan sənaye isə ötən il 5,5 faiz artıb. Prezident olaraq mənim üçün bunlar əsas göstəricilərdir.

Enerji sektoruna gəlincə, biz qaz hasilatını artırırıq, neft hasilatını azaldırıq. Lakin neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlarımız var. Ola bilsin ki, indi bu barədə danışmaq tezdir. Ancaq əgər beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr versə, Azərbaycanda ikinci mühüm neft bumunu yaşaya biləcəyimizə dair çox haqlı ümidlərimiz var. Biz məhz buna ümid edirik.

**Moderator:** - *Çox sağ olun. Başqa sual var?*

**Cenni CONSON:** - Cənab Prezident, Sizə bir qədər əyləncəli sualım var. Bildiyimə görə, Siz xizək sürürsünüz. Azərbaycanda xizək sürmək mənə də nəsib oldu. Təbrik edirəm, orada ən müasir qurğularınız var. Bildiyimə görə, martda Dünya çempionatı keçirəcəksiniz. Bir qədər bu barədə danışa bilərsinizmi?

**Prezident İlham ƏLİYEV:** - Bəli. Mənim xizəkçi olduğumu sizdən eşitmək qızıl medal almaq kimidir. Çünki Cenni həqiqi çempiondur. Çox şadam ki, o, Azərbaycanda xizək sürməkdən zövq alıb. Tədbir başlamazdan əvvəl biz söhbət etdik və mən söylədim ki, bu il Şahdağda Dünya çempionatı keçiriləcək. Beynəlxalq Xizək Federasiyası ilə bizim əlaqələrimiz başlayıb və bu tədbir artıq təqvimə salınıb. Beləliklə, hər il bizdə azı bir tədbir - ya Dünya çempionatı, ya da Avropa çempionatı keçiriləcək. Bu, artıq 10 ildən çoxdur ki, böyük maraq cəlb edən və turistlərin sayının artmasında mühüm rol oynayan yay tədbirimizlə - "Formula-1"lə müəyyən dərəcədə balans yaradacaq. İlk "Formula-1"dən sonra artım 20 faiz oldu. Bu rəqəm COVID-dən əvvəl davamlı olaraq artırdı. COVID hər şeyi məhv etdi. İndi yenidən artır. Bu, ölkənin təqdimatı idi, çünki bu, şəhər halqası idi. Necə deyərlər, şəhər ətrafında idi, tarixi hissələr, müasir hissələr.

İndi Şahdağda Dünya çempionatı Azərbaycanın qış təqdimatı olacaq. Yeni hotellərin, yeni obyektlərin tikilməsini nəzərə alsaq, ümidvaram ki, bir çox insan xizək sürmək üçün bu məkanı seçəcək. Bu gün yamacların uzunluğu artıq 45 kilometrdir, iki-üç ilə 55 kilometr olacaq. Sözsüz ki, İsveçrə ilə müqayisə oluna bilməz. Lakin bizim regionumuzda ən böyük və ən rahat xizək kurortlarından biri olacaq. Bildiyimiz kimi, biz xizəkçilər üçün ən mürəkkəb hissə ondan ibarətdir ki, avtobusa minirsən, stansiyaya çatırsan, kabinəyə daxil olursan, 15 dəqiqə gözləyirsən ki, səni yamaca aparsın. Siz Şahdağda birbaşa hoteldən xizəklə düşə bilərsiniz. Siz minimum 30 dəqiqəyə qənaət edirsiniz və bu, sizi daha çox sevindirir. Bunu xatırlatdığınıza görə təşəkkür edirəm. Mənə bu barədə auditoriyanı məlumatlandırmaq imkanı verdi. Bir daha Şahdağa xoş gəlmisiniz!

**Cenni CONSON:** - Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** - Yeri gəlmişkən, biz razılaşdıq ki, birlikdə xizək sürək.

**Moderator:** - *Söz verilir ön sırada əyləşən cənaba. Salam.*

**Demian POTTER:** - Salam, mən "H/Advisors"dan Demian Potterəm. Cenni, sualına görə təşəkkür edirəm. Gələcək planlarla bağlı məni qabaqladın. Keçmişə nəzər salsaq, Siz "Avroviziya" Mahnı Müsabiqəsinə uğurla evsahibliyi edə bildiniz, həmçinin COP29-a uğurla ev sahibliyi etdiniz. İndi iki mühüm idman tədbiriniz var - xizəksürmə və "Formula-1". Artıq evsahibliyi etdiyiniz tədbirlərdən hansı dərsi çıxardınız və gələcəkdə başqa hansı tədbirlərə evsahibliyi etmək arzusundasınız?

*Ardı 4-cü səh.*

# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur

## Prezident İlham Əliyev Davosda "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib












*Əvvəli 3-cü səh.*

**Prezident İlham ƏLİYEV:** - İlk dərs o oldu ki, müxtəlif dairələrin bu tədbirlərə qarşı çıxmasına baxmayaraq, siz ölkə üçün doğru olanı etməlisiniz. İstər "Avroviziya", istər COP-la bağlı biz əsassız tənqidlərlə üzləşdik. Xüsusilə COP-la bağlı bizi günahlandırdılar ki, neft istehsal edən ölkəyik, neft istehsal edən ölkə necə COP-a evsahibliyi edə bilər. Baxmayaraq ki, Azərbaycandan əvvəl və sonra Azərbaycandan xeyli çox neft istehsal edən ölkələr olub. Lakin sual bizimlə bağlı idi və mən söylədim ki, neftə sahib olmaq bizim günahımız deyil. Biz buna görə günahlandırılmamalıyıq. Bizi neft sərvətimizi necə idarə etməyimiz, onu cəmiyyətdə ədalətli şəkildə necə paylaşdırdığımızla bağlı qiymətləndirmək lazımdır. Beləliklə, çıxardığımız dərslərdən biri bu idi. Çünki səmimi desək, COP-a birillik hazırlıq müddətində bu macəraya qoşulduğumuza görə mən dəfələrlə peşman oldum. Çünki, həqiqətən də, bəzi media qurumlarında tənqid, aqressiyanın səviyyəsi o qədər yüksək idi ki, insanı demək olar, ruhdan salırdı. Buna baxmayaraq, biz yaxşı tədbir keçirmək əzmində idik və bu, təşkilatçılıq baxımından, daha vacibi isə nəticələr baxımından, həqiqətən də, yaxşı tədbir oldu. Biz 10 il ərzində əldə edilməsi mümkün olmayana nail olduq. Karbon bazarının fəaliyyəti ilə bağlı razılığa gəldik, İtki və Zərər Fondu fəaliyyətə başladı, həmçinin iştirakçı sayı boykotu təbliğ edənlərə yaxşı cavab oldu. Ermənistandan başqa, bütün ölkələr iştirak etdi. 70 dövlət və hökumət başçısı iştirak etdi. Beləliklə, boykot taktikası uğursuzluğa düçar oldu. Bu, dərs oldu ki, əgər nəyinsə doğru olduğunu düşünürsünüzsə, buna əminsinizsə, bütün müqavimətə, etiraza, bəzən bütün düşmənçiliklərə baxmayaraq bunu etməlisiniz. Bundan əlavə, bu, bizə öz mövqeyimizi təqdim etməyə imkan verdi. Eyni vaxtda neft və qaza sahib olmaqla yanaşı, artıq qeyd etdiyim kimi, biz bərpaolunan enerjiyə böyük sərmayə yatırırıq və bu, bizim məsuliyyətimizin bir hissəsidir. Biz bərpaolunan enerjiyə ona görə sərmayə yatırmırıq ki, enerjiyə ehtiyacımız var, ona görə sərmayə yatırırıq ki, məsuliyyətli insanlarıq və ən azı ölkəmizi, regionumuzu yaşayış üçün daha uyğun bir yerə çevirmək istəyirik. Çirklənmə, karbon emissiyaları - bütün bunları biz gözlərimizlə görə bilmirik, lakin əfsuslar olsun ki, biz və uşaqlarımız bunu hiss edirik. Düşünürəm ki, qazıntı yanacağı ilə zəngin olan ölkələr bərpaolunan enerjiyə sərmayə yatıranda onlara hörmət və rəğbətlə yanaşılmalıdır.

Evsahibliyi etdiyimiz beynəlxalq əhəmiyyətli tədbirlər haqqında danışarkən birini də qeyd etmək istərdim. Ötən il ilk dəfə Bakıda, aparıcı idmançıların iştirakı ilə UFC turniri keçirildi. Bu tədbir də bütün əsas televiziya kanalları vasitəsilə yayımlandı. Ümid edirəm ki, UFC turnirinə evsahibliyi etmək də bir ənənəyə çevriləcək. ABŞ-dən başqa bu turnirə evsahibliyi edən ölkələrin sayı o qədər də çox deyil və bu turnir vasitəsilə Azərbaycanın dünya xəritəsində yer alması bir daha ölkəmizin imkanlarını, beynəlxalq idman və əyləncə gündəliyinə inteqrasiya olunmağımızı nümayiş etdirir.

**Moderator:** - *Təşəkkür edirəm. Metyu Armstronq, Amerikanın qlobal enerji texnologiyaları şirkəti "Baker Hughes"in dövlət qurumları ilə əlaqələr şöbəsinin rəhbəri.*

**Metyu ARMSTRONQ:** - Cənab Prezident, Siz COP29 haqqında danışdınız, mən də şirkətimiz adından həmin tədbirdə iştirak etmək şərəfinə nail oldum. Mən COP29-dan əvvəlki və sonrakı tədbirlərdə iştirak etmişəm və Sizin də qeyd etdiyiniz kimi, onlara neft hasil edən ölkələr evsahibliyi edib. Sizi əmin edə bilərəm ki, Azərbaycanda keçirilən tədbir fantastik və təsirli oldu. Sizin tənqidlərə açıq və məsuliyyətli cavablarınızı təqdir edirəm. Biz buna bənzər təkamül prosesini keçmişik, - molekullar əhəmiyyətlidir, elektronların vacibliyi artmaqdadır, - ancaq ölkəniz hər ikisini istehsal edir və bununla da firavanlıq gətirir.

Avropa ilə qarşılıqlı bağlantı getdikcə əhəmiyyətini artırır. Faydalı qazıntı enerji növləri ilə bağlı bəzi tənqidlərə baxmayaraq, Siz Avropaya qaz ixracını iki dəfə artırmısınız, nəqliyyat və çatdırılma dəhlizlərini genişləndirirsiniz. Sualım belədir: Xəzər dənizi hövzəsində neft və qaz layihələrinə birbaşa Avropa sərmayələrinin qoyuluşunu necə görürsünüz? Sizin praqmatik yanaşmanızın açıq bazarlarda və kapitalın formalaşmasında öz əksini tapmasını görürsünüzmü? Biz Sizin nikbinliyinizi paylaşırıq və hesab edirik ki, Xəzərdə SOCAR və digər şirkətlər tərəfindən hasil ediləcək kifayət qədər neft və qaz ehtiyatları var. Siz Avropadan belə sərmayələrin qoyuluşunu gözləyirsiniz, yoxsa bu sahədə hələ görüləcək işlər var?

**Prezident İlham ƏLİYEV:** - Təəssüflər olsun ki, nə faydalı qazıntı enerji növlərinə, nə də bərpaolunan enerjiyə biz Avropadan əhəmiyyətli sərmayə qoyuluşunu görmürük. Bərpaolunan enerji sahəsində bizim əsas tərəfdaşlarımız BƏƏ, Səudiyyə Ərəbistanı, Çin, Böyük Britaniya və Azərbaycandan olan şirkətlərdir. Sərmayədar olmağa maraq göstərən Avropa şirkəti yoxdur.

Faydalı qazıntı növlərinə gəldikdə ənənəvi olaraq ABŞ və Britaniya şirkətləri bu sahəyə maraq göstərib. BP və AMOCO şirkətlərinin birləşməsindən sonra bu, artıq Britaniya şirkəti hesab olunur. Yəni çox az Avropa şirkəti var - biri Fransa şirkətidir, digəri isə başqa ölkədən. Səmimi desək, biz Avropa şirkətlərindən sərmayə qoyuluşu ilə bağlı böyük maraq görmürük. Halbuki bu haqda artıq danışdım, Avropa bizim təbii qazımız üçün əsas istiqamətdir.

Keçən il biz 25 milyard kubmetrdən artıq təbii qaz ixrac etmişik. Bu həcmin təqribən 13 milyard kubmetri Avropaya ixrac edilib və bu rəqəm artacaq. Bu, Avropa İttifaqının xahişi əsasında edilib. Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Avropa İttifaqı Komissiyasının prezidenti Bakıya səfər etdi və biz enerji sektorunda strateji tərəfdaşlıqla bağlı sənəd imzaladıq. Biz Avropaya qaz təchizatının həcminin iki dəfə - ovaxtkı 8 milyard kubmetrdən 16 milyard kubmetrə qədər artırmaqla bağlı razılığımızı bildirdik.

Beləliklə, 3 ildən artıq bir dövrdə biz bu rəqəmi təxminən 13 milyard kubmetrə çatdırmışıq və həcm artacaqdır. Birincisi, bizim ixtiyarımızdakı mövcud və yeni qaz yataqlarından əldə ediləcək həcmlər olacaq və bununla bağlı razılaşma əldə edilib. Digər tərəfdən, bərpaolunan enerjinin istehsalı bizə böyük qaz həcmlərinə qənaət etməyə imkan verəcək. Yəni 8 giqavat həcmində bərpaolunan enerji bizə 3-4 milyard kubmetr qaza qənaət etmək imkanı verəcəkdir ki, həmin qaz da Avropaya nəql edilə bilər.

Budur hazırkı vəziyyət. Hesab edirəm ki, bu gün Azərbaycana faydalı qazıntı növlərinə, bərpaolunan enerjiyə, süni intellektə və məlumatlar mərkəzlərinə sərmayə qoyuluşu Avropa şirkətlərinin marağındadır. Strateji tərəfdaşlıq nizamnaməsinin hazırlanması ilə bağlı işçi qrupun yaradılması haqqında mən və Prezident Tramp tərəfindən tarixi sənədin imzalanmasından sonra Amerika şirkətləri ilə bizim əməkdaşlığımız heç zaman olmadığı qədər intensivləşib. Biz demək olar ki, həmin sənədi, yəni strateji tərəfdaşlıq xartiyasını yekunlaşdırırıq və ümid edirəm ki, bu, növbəti ay baş tutacaqdır.

Bərpaolunan enerji mövzusu orada öz əksini tapmayıb, - bunun nə ilə bağlı olduğunu anlayırıq, - ancaq məlumat mərkəzləri, süni intellekt, bağlantı, enerji və bir sıra digər sahələr həmin xartiyaya daxildir. Biz avqust ayının 8-dən etibarən Vaşinqtona və digər şəhərlərə artıq 4 nümayəndə heyəti göndərmişik. Onların hamısı yaxşı nəticələrlə geri qayıdıb və hesab edirik ki, biz ABŞ ilə yeni mərhələyə qədəm qoyuruq - siyasi, iqtisadi, enerji və hətta müdafiə sahəsində. Bu, Azərbaycan üçün Amerika Birləşmiş Ştatlarından birbaşa sərmayə cəlb etməkdə böyük imkanlar yaradacaqdır və ümid edirəm ki, bizim avropalı tərəfdaşlarımız bu məsələdə geri qalmayacaqlar.

**Moderator:** - *Cənab Prezident, bizim 3 dəqiqəmiz var və ilk sırada əyləşən cənabın sualı var, sonuncu çox qısa sual.*

**Uilyam LİN:** - Cənab Prezident, burada olmaqdan şərəf duyuram. Mən Londonda BP-də çalışıram. Mən sual deyil, qısa şərh vermək istərdim. Cənab Prezident enerji sektoru ilə bağlı çox təfərrüatlı danışdı və burada əlavə etməli bir məsələ qalmadı. Mən, sadəcə, demək istərdim ki, BP şirkəti, yəni əvvəlki AMOCO şirkəti olaraq biz Sizin rəhbərliyinizlə möhtəşəm tərəfdaşlığın bir parçası olmuşuq. Cənab Prezident, Siz əsl tərəfdaşlıq üçün sərmayədarlara çox münbit şərait yaratmısınız. Siz artıq neft və qaz sahəsində Avropa istiqamətində birgə həyata keçirdiyimiz çoxsaylı böyük enerji və infrastruktur layihələri haqqında danışdınız. Bildiyiniz kimi, biz də öz növbəmizdə bərpaolunan enerjiyə sərmayə yatırırıq. Bunlardan biri də yeni ərazilərdə yaradılan Günəş enerjisi layihəsidir və biz hesab edirik ki, bu sahədə daha böyük imkanlar var. Bu təkcə Azərbaycanın və ətraf mühitin mühafizəsi baxımından vacib deyil. Bu həm də karbonsuzlaşdırma mənasında BP-nin özünə lazımdır, çünki bizim də belə bir öhdəliyimiz var.

Burada qeyd olunmayan iki məsələni də əlavə etmək istərdim. Bizim Azərbaycan və SOCAR ilə əməkdaşlığımız ölkə hüdudlarını aşır. Biz SOCAR ilə beynəlxalq səviyyədə əməkdaşlıq etmək arzusundayıq və bununla bağlı SOCAR-ın rəhbərliyi ilə olduqca uğurlu müzakirələr aparırıq. Digər məsələ texniki imkanlar və bacarıqla bağlıdır. Azərbaycanda çox böyük istedadlar var və biz bundan BP daxilində də faydalanırıq. Biz də həmin istedadları yetişdirərək dünyaya təqdim edirik. Bizim bir sıra çox yüksəksəviyyəli nümayəndələrimiz azərbaycanlılardır. Onlar böyük hazırlığa malikdirlər, BP daxilində beynəlxalq karyera qura biliblər, ölkəni, BP-ni və bizi qlobal səviyyədə dünyada güclü şəkildə təmsil edirlər. Əlavə etmək istədiyim bu qədərdir.

**Moderator:** - *Xoş sözlərə görə təşəkkür edirəm. Təəssüflər olsun ki, cənab Prezidentin bu gün çox gərgin qrafiki var, ancaq bu səhər bizimlə bir yerdə olduğuna görə gəlin, onu alqışlayaq.*

# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur

## Prezident İlham Əliyev Davosda İraq Kürdüstan Regionunun Baş naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Məsrur Bərzani İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzaninin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Salamlara görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Neçirvan Bərzaniyə çatdırmağı xahiş etdi.

Söhbət zamanı Məsrur Bərzaninin ölkəmizə səfərləri və Prezident İlham Əliyevlə görüşləri məmnunluqla xatırlandı.



Görüşdə iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

## Azərbaycan Prezidenti İlham Əliyev Davosda Finlandiya Prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan və Finlandiya prezidentlərinin əvvəlki görüşləri məmnunluqla xatırlandı, həmin görüşlər zamanı ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığı vurğulandı.

Görüşdə regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı, "Nordic-Baltic Eight" qrupuna üzv ölkələrlə Azərbaycan arasında əməkdaşlığın perspektivlərinə toxunuldu. Eyni zamanda Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişaf perspektivləri qeyd edildi.



## Prezident İlham Əliyev Davosda "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru ilə görüşüb

**Yanvarın 20-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın aparıcı qlobal maliyyə institutlarından biri olan Amerika Birləşmiş Ştatlarının "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası Dövlət Neft Fondu və ölkəmizin digər qurumları ilə "J.P. Morgan" arasında mövcud əməkdaşlıq əlaqələrinin əhəmiyyətinə toxunaraq, bunun uzunmüddətli xarakter daşıdığını və qarşılıqlı etimada əsaslandığını vurğuladı.

Azərbaycanın beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyini yüksək qiymətləndirən Ceymi Daymon ölkəmizdə sabit investisiya mühitinin olduğunu dedi. O həmçinin Azərbaycanın ardıcıl maliyyə siyasəti həyata keçirdiyini qeyd etdi. Ceymi Daymon rəhbərlik etdiyi şirkətin Dövlət Neft Fondu ilə uzunmüddətli əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini, bu tərəfdaşlığın möhkəm institusional əsaslara söykəndiyini və onun daha da dərinləşdirilməsində maraqlı olduqlarını bildirdi.

Söhbət zamanı bu şirkətin SOCAR-ın fəaliyyətinin maliyyələşməsi sahəsində çoxillik əməkdaşlığı məmnunluqla vurğulandı, "J.P. Morgan"la SOCAR arasında tərəfdaşlığın genişləndirilməsi ilə əlaqədar gələcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə ölkəmiz tərəfindən ABŞ-nin enerji sektoruna investisiya qoyuluşu məqsədilə "J.P. Morgan" şirkətinin cəlb edilməsi, qlobal maliyyə bazarlarında mövcud vəziyyət, beynəlxalq investisiya mühiti və makroiqtisadi çağırışlar ətrafında fikir mübadiləsi aparıldı, qlobal iqtisadi proseslər fonunda institusional investorlar üçün formalaşan imkanlar və uzunmüddətli əməkdaşlıq perspektivləri müzakirə olundu.

Qeyd edək ki, idarə etdiyi aktivlərin həcmi 4 trilyon ABŞ dollarından çox olan "J.P. Morgan" şirkəti bankçılıq, investisiya və aktivlərin idarə olunması sahələrində fəaliyyət göstərir. Tarixi 200 ildən artıq dövrü əhatə edən şirkət hazırda dünyanın ən böyük və şaxələndirilmiş maliyyə institutları sırasında yer alır.

## Prezident İlham Əliyev Davosda "BlackRock"un baş icraçı direktoru və "Global Infrastructure Partners" şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru ilə görüşüb

**Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un baş icraçı direktoru Larri Fink və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşüb.**






AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "BlackRock" arasında mövcud əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin Azərbaycanda infrastruktur sahəsində potensial investisiya imkanları müzakirə olundu.

Dövlətimizin başçısının Davosa səfəri çərçivəsində Dövlət Neft Fondu ilə "BlackRock" və bu şirkətin tərkibinə daxil olan, qlobal infrastruktur investisiya idarəetmə şirkəti olan "Global Infrastructure Partners" arasında uzunmüddətli əməkdaşlığa dair niyyət protokolunun imzalanmasının əhəmiyyətinə toxunuldu. Sənəd mövcud əməkdaşlığın uzunmüddətli, strateji çərçivədə davam etdirilməsini, eləcə də beynəlxalq infrastruktur investisiya platforması çərçivəsində Azərbaycanda potensial investisiya imkanlarının araşdırılmasını nəzərdə tutur. Niyyət protokoluna əsasən, ARDNF-nin "GIP" tərəfindən idarə olunan infrastruktur fondlarına və birgə investisiya imkanlarına 3-4 il müddətində 1,5 milyard ABŞ dollarınadək kapital qoyuluşu imkanlarının nəzərdən keçirilməsi planlaşdırılır. Əməkdaşlıq çərçivəsində Azərbaycanda regional bulud və süni intellekt tələbatına xidmət edən məlumat mərkəzləri və infrastruktur üzrə potensial investisiya imkanlarının dəyərləndirilməsi, hava limanı infrastrukturu sahəsində "Global Infrastructure Partners"in əməliyyat və idarəetmə təcrübəsi nəzərə alınmaqla tərəfdaşlığın perspektivlərinin araşdırılması nəzərdə tutulur.



Qeyd edək ki, Azərbaycanda və ya ölkəmizlə əlaqəli infrastruktur aktivlərinə dair investisiya imkanlarının dəyərləndirilməsi də əməkdaşlığın əsas istiqamətlərindəndir. Niyyət protokolu Dövlət Neft Fondunun qlobal investisiya ekosistemində mövqeyinin möhkəmləndirilməsinə, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın daha da genişləndirilməsinə və Azərbaycanın strateji əhəmiyyətli infrastruktur sahələrində uzunmüddətli investisiya imkanlarının formalaşdırılmasına töhfə verəcək.

Görüşün sonunda Azərbaycan Prezidentinin iştirakı ilə niyyət protokolunun mübadiləsi mərasimi oldu.

## Prezident İlham Əliyev Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə görüşüb




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkəmizlə AYİB arasında qurulmuş əməkdaşlıqdan məmnunluq ifadə olundu, bankın Azərbaycanda bir sıra uğurlu layihələr icra etdiyi bildirildi. Bu xüsusda bank tərəfindən ölkəmizin bir sıra bölgələrində, o cümlədən Gəncədə və Şəkidə su sektorunda müxtəlif layihələrin həyata keçirilməsi qeyd edildi, Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı çərçivəsində qəbul olunmuş layihələrin maliyyələşdirilməsi ilə bağlı müzakirələr aparıldı.

Görüşdə həmçinin bərpaolunan enerji sektorunda fəaliyyətin, Naxçıvanın nəqliyyat sisteminin yenilənməsinin, ölkəmizin ayrı-ayrı bölgələrində məişət tullantılarının zərərsizləşdirilməsi layihələrinin maliyyələşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanda bank sektoru, həmçinin sahibkarlığın inkişafı, yerli və xarici iş adamları üçün səmərəli investisiya mühitinin yaradılması istiqamətində dövlət tərəfindən həyata keçirilən işlərdən danışıldı.

# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur

## Prezident İlham Əliyev Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında iştirak edib











**Yanvarın 20-də Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

**Moderator:** - *2026-cı ilin Dünya İqtisadi Forumuna və "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" adlanan sessiyaya xoş gəlmisiniz. Burada müzakirə apardığımız zaman Qərbdən Şərqə doğru rəqabət aparan maraqlar və Qafqaz ilə Mərkəzi Asiyada təsir və gücün tarazlığı ilə səciyyələnən vəziyyət müşahidə edilir. Artan rəqabət fonunda geniş infrastruktur planları və formalaşan ticarət dəhlizləri göz qarşısındadır. Region genişlənən həmin marşrutların əksər hissəsindən necə yararlana bilər və onlar üçün öz rolunu necə gücləndirə bilər? Bu gün sessiyada biz həmin mövzuları müzakirə edəcəyik və mən çıxış edəcək şəxsləri böyük şərəf hissi ilə təqdim edirəm. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Serbiyanın Prezidenti Aleksandar Vuçiç, Türkiyədən "Limak Holdinq"in İdarə Heyətinin sədri Ebru Özdəmir və Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan. Mənim adım Saşa Vakulinadır. Mən "Euronews" televiziya kanalının Avropa üzrə müxbiriyəm.*

*Bu gün keçirilən sessiyada aparıcı olmaqdan və Sizə qoşulmaqdan böyük şərəf hissi duyuram. Mən sessiyanın əvvəlində, icazənizlə, açılış edim və təfərrüatlar haqqında danışım. Azərbaycan və Ermənistan iki ölkənin, eləcə də bütöv regionun kursunu və gələcəyini dəyişən, onilliklər boyu yaşanılan faciələrdən sonra tarixi sülh razılaşmasını hazırladılar. Hazırda biz qlobal quruluşun da sürətlə dəyişdiyinin şahidiyik. Bilirsiniz, tarixin ağrılı səhifəsini bağlamaq üçün nə qədər səylər göstərildi. Mən Prezident Əliyev və Prezident Xaçaturyandan soruşmaq istərdim: Hazırda Siz gələcəyi necə görürsünüz? Gələcəkdə bizi nə gözləyir? Sizin hər ikinizin bu sessiyada iştirakı artıq özü böyük mesajdır.*

**Prezident İlham ƏLİYEV:** - Bəli, siz tam haqlısınız. Ötən ilin avqustunda hər iki tərəf sülh sazişini paraflamaqla və beləliklə, üç onillikdən artıq çəkən müharibə və qan tökməyə son qoymaqla tarixi nailiyyət əldə olundu. Həmin sülh sazişinin nadirliyi ondan ibarətdir ki, o, son qanlı toqquşmadan sonra iki ildən az müddətdə paraflandı. Beləliklə, bu göstərir ki, əgər hər iki tərəfin güclü siyasi iradəsi, sülhə sadiqliyi olarsa, onda siz kifayət qədər qısa müddət ərzində barışıq əldə edə bilərsiniz. Paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir. Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar. 1991-ci ildə müstəqil ölkəyə çevrildiyimiz zaman biz artıq hərbi toqquşmada idik. Lakin bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur. Olduqca mühüm neft məhsullarının birinci hissəsi Azərbaycandan Ermənistana göndərildi və bu, qiymətlərin aşağı düşməsinə imkan yaratdı.

Beləliklə, iki və ya üç il əvvəl belə addımı tamamilə təsəvvür etmək olmazdı. Lakin bu gün o, artıq reallıqdır. Düşünürəm ki, heç nə bu prosesə müdaxilə edə bilməz. Fikrimcə, əlavə görəcəyimiz işlər ondan ibarətdir ki, hər iki tərəf sülhdə yaşamağın nəticələrini göstərməlidir ki, biz də bu proses çərçivəsində cəmiyyətlərimizin tam dəstəyinin şahidi ola bilək. Lakin mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir. O, vaxtilə çox dərin ədavəti olmuş ölkələrin əməkdaşlıq mərhələsinə gəlib çıxmasının nümunəsini özündə əks etdirir.

❖ ❖ ❖

Ermənistan Respublikasının Prezidenti **Vaaqn XAÇATURYAN** Azərbaycan Prezidenti İlham Əliyevin "gələcək bizdən asılıdır" fikri ilə tam razı olduğunu söyləyərək qeyd edib ki, ölkələrimizin liderləri öz siyasi iradələrini qətiyyətlə nümayiş etdirirlər: "Cənab Prezident İlham Əliyevin söylədiyi kimi, biz siyasi qətiyyəti sülh üçün nümayiş etdirdik ki, artıq bundan sonra əməli tədbirlər sülhü sübut etsin, təsdiq etsin. Biz 30 ildir bunu görməmişdik. Amma indi isə biz sülh və əmin-amanlıq şəraitində yaşayırıq. Bu isə həqiqətən də inanılmaz hadisədir".

Artıq Azərbaycandan Ermənistana Gürcüstan ərazisi ilə malların nəql edildiyini xatırladan V.Xaçaturyan bu yüklərin birbaşa olaraq iki ölkənin ərazisindən keçəcəyinə əminliyini bildirib.

Ermənistan Prezidenti deyib: Cənab İlham Əliyevə də minnətdaram, görülən işləri təqdir edirik. Bu gün və yaxud dünən idi səhv etmirəmsə, Prezident Əliyev qeyd etdi ki, biz sülh və əmin-amanlıq şəraitində yaşamağı öyrənməliyik. İnandırım ki, bizim üçün adi vəziyyət deyil, çünki bu sənədlər imzalanmamışdan əvvəl buna öyrəşməmişdik. Hər gün oyanırdıq ki, sərhəddə görəsən nələr baş verib, atışmalar davam edirmi? Bu, bizim üçün hər zaman stres idi. İndi isə mən sizi bir daha əmin etmək istəyirəm ki, biz bu keçmişimizi unudub, gərək artıq konkret layihələr həyata keçirək. Biz uğur qazanacağıq, inanırıq. Bizim sazişlərimiz çox konkret prinsiplərə əsaslanıb. Bəli, ölkə olaraq biz bir-birimizin ərazi bütövlüyünə, suverenliyinə, yurisdiksiyalarına hörmət edirik, bunlar rəhbər prinsiplərdir. Bəli, sərhədlərimiz bir gün açılacaq və sadəcə, bir neçə il bundan əvvəl siyasi iradə bu səviyyədə deyildi. Eləcə də sıravi işgüzar səfərlər olacaq. Sıravi vətəndaşlarımız sərhədləri rahat keçərək münasibətlər quracaqlar. Biz bu fürsətlərdən faydalanacağıq və bu əməkdaşlıq nəticəsində Cənubi Qafqaz bütün dünya üçün çox əlverişli regiona çevriləcək.

"Azərbaycan Prezidenti cənab Əliyevə təşəkkür edirəm və bizim Baş nazirimizə də təşəkkürümü bildirməliyəm. Hər iki rəhbərə nümayiş etdirdikləri siyasi iradəyə görə minnətdaram", - deyən V.Xaçaturyan diqqətə çatdırıb ki, burada bir məqsəd var, o da sülhdür. Sülh də olacaqdır. "Üzr istəyirəm, bir daha təkrar edirəm ki, məsələ hakimiyyətdə qalmaq deyil, sülhə nail olmaqdır. Çünki illər boyu müəyyən siyasi səbəblər ucbatından sülh prosesi yubanırdı, ancaq danışıqlar davam edirdi və ortalıqda heç bir nəticə yox idi. Elə oldu ki, artıq iki ölkənin rəhbərləri ümumi prinsiplər üzərində razılığa gəldilər", - deyə o əlavə edib.

❖ ❖ ❖

Serbiya Respublikasının Prezidenti **Aleksandar VUÇİÇ** "Serbiyanın Avropa ilə Asiya arasında körpü rolunu necə görürsünüz?" sualına cavabında müasir dünyada baş verən hadisələr fonunda ölkələrin bir-biri ilə əməkdaşlıq etməyinin vacibliyindən danışaraq deyib: Qafqaz ölkələri Avropa ilə Asiya arasında vasitəçi, eyni zamanda qovşaq ölkələrdir. Əslində, biz hər üçümüz ölkə olaraq Avropa siyasi icmasının üzvüyük.

❖ ❖ ❖

İnvestisiya yatırılması baxımından hansı strategiyaların rəqabəti gücləndirə biləcəyi ilə bağlı suala cavabında Türkiyənin "Limak Holdinq" şirkətinin İdarə Heyətinin sədri **Ebru ÖZDEMIR** bildirib ki, hər bir ölkəyə investisiya uzunmüddətli sabitlik, sülh və əmin-amanlıq olduqda yatırılır. O qeyd edib ki, sabitlik olmadıqda heç kim ölkəyə investisiya qoymayacaq.

Azərbaycan və Ermənistan prezidentlərinin tədbirdə iştirakına toxunan E.Özdemir diqqətə çatdırıb ki, sülh və əmin-amanlığın uzunmüddətli olması investorların ölkəyə gələcəyinə dəlalət edir. "TRIPP-lə bağlı imzalanmış sazişi də oxumuşam, kifayət qədər təsbit edilmiş prinsiplər var", - deyən "Limak Holdinq"in rəhbəri diqqətə çatdırıb ki, investisiyalar məhz bu kimi sazişlərin sayəsində cəlb olunacaq. O həmçinin qeyd edib ki, Orta dəhlizlə bağlı da daha çox iş görülə bilər.

❖ ❖ ❖

Serbiya Respublikasının Prezidenti **Aleksandar VUÇİÇ** E.Özdemirin fikrinə əlavə olaraq bildirib ki, bu gün sülh, sabitlik heç zaman olmadığı qədər vacibdir. O, təəssüflə bildirib ki, müasir dünyada müəyyən prinsiplərə riayət edilmir. Heç kəs çoxtərəflilik prinsiplərinə hörmət etmir, bu isə böyük bir xətadır, keçmişdə yol verilən səhvdir.

**Moderator:** - *Mən bu sualı Prezident Əliyevə ünvanlamaq istərdim. Siz necə düşünürsünüz? Siz Prezident Vuçiçin dediyi kimi, bu həlli necə görürsünüz? Vəziyyətdən necə çıxmaq olar? Dünyada hazırkı şokların təsirini necə yumşaltmağa çalışırsınız? Çoxtərəfliliyin hazırkı forması və siması nəinki dəyişir, bununla belə, o, ümumiyyətlə, yaxşı işləmir.*

**Prezident İlham ƏLİYEV:** - Düşünürəm ki, hər bir şey öz əllərimizdədir. O, sizin gündəliyinizdən asılıdır. O, sizin planınızdan, gələcək üçün baxışlarınızdan asılıdır. Ermənistanla sülhə gəlincə və ondan əvvəl mövcud olmuş 30 illik münaqişəyə toxunduqda, biz bir ölkə, bir xalq kimi çox ağır vaxtlar yaşamışıq: ərazilərin itirilməsini, milyonlarla insanın evsiz qalmasını və məcburi köçkünə çevrilməsini görmüşük. Lakin ümidimizi itirmədik. Ədaləti, beynəlxalq hüququ və suverenliyimizi bərpa etməkdə cəsarətimizi itirmədik. Bu, bizdən 30 il aldı. Həmin vaxt, 30, 20 və 10 il əvvəl və indi beynəlxalq təsisatların davranışı dəyişmədi. Biz dəyişdik bunları. Biz kiminsə gəlib bizim üçün hər bir şeyi düzəldəcəyinə inanmağı dayandırdıq. Beynəlxalq vasitəçiliklə bağlı bütün ümidlərimiz tam alt-üst oldu.

Ali beynəlxalq qurum - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ərazilərimizdən erməni qoşunlarının çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Onlar kağız üzərində qaldı. ATƏT və digər beynəlxalq təsisatlar çoxsaylı qətnamələr qəbul etdilər. Onların heç biri biz vəziyyəti öz əlimizə alanadək həyata keçirilmədi. Biz özümüz bunu etdik. Biz ədaləti, beynəlxalq hüququ, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdik, sonra isə sülhə nail olduq.

Biz dayandıq. Otuz il əziyyət çəkmiş ölkənin lideri olaraq lazımi vaxtda dayanmaq olduqca məsuliyyətli və vacib qərar idi. Biz davam edə bilərdik. Mən sizinlə və burada əyləşənlərlə çox açıq danışmaq istəyirəm. Ancaq belə olduğu halda, bu sonsuz müharibələr daha çox əziyyət və qurbanlar ilə nəticələnəcəkdi. Beləliklə, müharibə heç vaxt bitməyəcəkdi. Kimsə bunu dayandırmalı idi və biz buna son qoymaq qərarına gəldik.

Bəli, həmin fəsli bağlamaq və sülh üçün imkanları görməklə bağlı qərar Azərbaycan və Ermənistan liderlərinin birgə qərarı idi. Dediyim kimi, artıq bu, rekord bir sürətlə baş verdi - müharibədən, 2023-cü ilin sentyabr ayının ciddi hərbi toqquşmasından 2025-ci ilin avqust ayınadək. Həmin vaxt mən və Ermənistanın Baş naziri bəyannaməni imzaladıq və sülh sazişi Prezident Trampın iştirakı ilə paraflandı. O isə həmin bəyannaməni şahid kimi imzaladı. Dediyim kimi, biz həmin müharibəyə dünyanın birnömrəli ofisində son qoyduq.

Biz beynəlxalq təsisatlara arxalanmamalıyıq. Mən Aleksandar ilə razılaşıram ki, bu gün vəziyyət heç vaxt olmadığı qədər mürəkkəbdir. Ancaq mən onun bədbinliyini bölüşmürəm, çünki vəziyyət nəzarətə götürülürsə, milli maraqlara və rəhbərlik etdiyin xalqa bağlılıq varsa, o zaman uğura nail olmaq mümkündür.

O ki qaldı, çoxtərəflilik, birtərəflilik və proteksionizmə, biz bütün bunların iflasa uğradığını görürük. Ümumdünya Ticarət Təşkilatı iflic olub. Yeri gəlmişkən, 30 il ərzində edilmiş dəvətlərə rəğmən biz Ümumdünya Ticarət Təşkilatına qoşulmadıq, çünki öz iqtisadi suverenliyimizi qorumaq istəyirdik. Biz siyasi suverenliyə malik olmaqla yanaşı, müxtəlif tərəflərlə yaxşı münasibət saxlamaq istəyirik.

Biz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq. Eyni zamanda Çin ilə hərtərəfli strateji tərəfdaşlıq sazişinə malikik və ABŞ ilə Strateji tərəfdaşlıq nizamnaməsini müzakirə edirik. Bütün bunlar mümkündür və bir-biri ilə ziddiyyət təşkil etmir. Ölkə və onun gələcəyi ilə bağlı aydın baxışa malik olduqda, gücə sahib olduqda və vahid mövqedən çıxış edən cəmiyyətin olduğu təqdirdə haqqınızda və gördüyünüz işlər barəsində kimin nə dediyinin və nə məqalə dərc etdirməsinin heç bir əhəmiyyəti yoxdur.

Beləliklə, mən daha nikbinəm, xüsusilə də bizim Ermənistanla bağlı məsələmizdə. Otuz il davam etmiş müharibə və qan tökülməsindən sonra həqiqi sülhün bərqərar olması hər halda misilsiz bir hadisədir.

❖ ❖ ❖

Moderatorun sualını cavablandıran Ermənistan Respublikasının Prezidenti **Vaaqn XAÇATURYAN** bildirib ki, Ermənistan ilə Azərbaycanın siyasi rəhbərliyi prinsipial razılığa gəlməsəydilər, müharibə davam edəcəkdi: Cənab Prezident İlham Əliyevlə razıyam ki, əks-təqdirdə, bu müharibə davam edəcəkdi. Uzun-uzadı davam edəcəkdi. Yəni heç bir gələcək vəd etməyən hadisə olacaqdı. Ona görə də mən müharibəyə, insan itkilərinə gətirib çıxaran heç bir siyasi yanaşmanı qəbul etmirəm.

Ermənistan Prezidenti qeyd edib ki, hər iki ölkə lideri sülh və xalqlarımızın rifahı yolunu seçdi. Bu isə ən ümdə məsələdir. "Mən nikbinəm ki, biz uğur qazanacağıq", - deyən V.Xaçaturyan bildirib ki, iki ölkə arasında birgə iqtisadi və mədəni layihələr olacaq. Bu məqamla bağlı presedent də var. İki ölkənin vətəndaş cəmiyyətlərinin nümayəndələri artıq görüşüblər. Yaxın gələcəkdə işgüzar insanlar, biznes icmaları da görüşəcəklər. O həmçinin deyib: Artıq Ermənistanda insanlar avtomobillərinə Azərbaycan benzinini doldururlar. Əvvəllər bu məsələ ilə bağlı düşmənçilik mövqeyi sərgilənirdi. Amma bu, yeni reallıqlardır.

❖ ❖ ❖

Türkiyənin "Limak Holdinq" şirkətinin İdarə Heyətinin sədri **Ebru ÖZDEMİR** regionda yaşanan proseslərdən söz açaraq bildirib ki, Azərbaycan ilə Ermənistan arasında çox müsbət işlər görülür. Türkiyə də bu mənada vasitəçi rolu oynayacaq, sərhədlər açılacaq. O deyib: "Azərbaycan bizim qardaş, dost ölkəmizdir. Gürcüstanı da qeyd etməliyik. Bu paneldə biz daha çox regional investisiyalardan danışırıq. Nələri əvvəllər etməmişik? Nələri hazırda həyata keçirməliyik? Nələr daha çox həyata keçirilə bilər? Sülh, sabitlik varsa, niyə də investisiya gəlməsin"?

❖ ❖ ❖

**Moderator:** - *Çox maraqlı dinamikadır. Avrasiya regionu və burada təmsil etdiyiniz ölkələr region naminə əməkdaşlığı gücləndirdiyi bir vaxtda, sizin də qeyd etdiyiniz kimi, qlobal geosiyasi mənzərə tamamilə fərqli görünür. Burada parçalanma nəzərə çarpır. Yekun şərh olaraq hər birinizin fikrini öyrənmək istərdim. Həmin parçalanan və həssas qlobal mənzərədə Avrasiyanı necə görürsünüz? Prezident Əliyev, buyurun.*

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** - Avrasiya çox böyük bir coğrafi məkandır. Biz öz regionumuzu, bilavasitə qonşularımızı düşünürük. Şadam ki, müstəqillik illərində biz bütün qonşularımızla çox yaxın işgüzar münasibətlər qura bilmişik. Burada istisna Ermənistandır və bunun səbəbləri hər kəsə məlumdur. Lakin de-fakto sülh bərqərar olduğu üçün biz iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlamışıq. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Bizə artıq Ermənistandan Rusiyaya yüklərin nəql edilməsi ilə bağlı müraciət daxil olub. Yəni biz de-fakto birtərəfli qaydada dəhlizləri açdıq. Bəli, bu gün bu daşımalar Gürcüstan vasitəsilə həyata keçirilir. Ancaq bir gün bu, Ermənistan ərazisindən həyata keçiriləcək. Bir gün Ermənistana məxsus yüklər birbaşa Azərbaycan vasitəsilə daşınacaq və həmin gün çox da uzaqda deyil.

Bizim üçün qardaş ölkə olan Türkiyə ilə çox sıx müttəfiqlik münasibətləri qurmuşuq, Türkiyəyə nəhəng sərmayələr yatırmışıq. Bizim Türkiyəyə sərmayələrimizin həcmi 20 milyard dollardan çoxdur. Hazırda biz Gürcüstana ən böyük sərmayə qoymuş ölkələr sırasındayıq. Gürcüstan ərazisindən keçən dəhlizlərlə yanaşı, Amerika Birləşmiş Ştatlarının himayəsi altında həyata keçirilən və TRIPP adlanan bağlantı layihəsi Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana, Ermənistana, Azərbaycanın bir parçası olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanan yeni bir nəqliyyat dəhlizi olacaqdır. Marşrutların çoxluğu istehlakçıların, təchizatçıların və tranzit ölkələrin xeyrinədir.

Ölkə olaraq biz hər zaman diqqətimizi regional gündəliyimizə yönəldirik. Biz regionda istədiyimizə nail ola bilmiriksə, qlobal məqsədlərdən söhbət gedə bilməz. Ancaq bu gün biz paralel şəkildə gedən Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə yaxınlaşmasından bəhs edirik. Bu, mütləq paralel şəkildə və eyni vaxtda Türkiyə ilə Ermənistan və Azərbaycan ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulması ilə nəticələnəcək. Bununla da biz geniş coğrafi ərazidə, Avrasiyanın bir hissəsində bağlantı, enerji təhlükəsizliyi, sülh və sabitlik baxımından olduqca əhəmiyyətli addım atırıq. Bu, uzun illər davam edən müharibələrin əməkdaşlığa və tərəfdaşlığa çevrilməsinin nümunəsidir.

❖ ❖ ❖

Sonra Ermənistan Respublikasının Prezidenti **Vaaqn XAÇATURYAN** bildirib ki, əslində, Prezident İlham Əliyevdən sonra nəsə demək çox çətindir. "Çünki Prezidentin söylədiklərini təkrar etməliyəm. Prezident İlham Əliyevin söylədiyi fikirlər bizim fikirlərimizlə, prinsiplərimizlə üst-üstə düşür. İstər Orta dəhliz marşrutu olsun, istər Cənubi Qafqazın yeni logistika imkanları getdikcə daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Odur ki, bizim regionumuzun əhəmiyyəti də istər Avropa İttifaqı, Avropa ölkələri üçün ayrı-ayrılıqda, həmçinin Uzaq Şərqdə getdikcə artmaqdadır", - deyən Ermənistan Prezidenti sonda vurğulayıb ki, Prezident İlham Əliyevin də söylədiyi kimi, uzunmüddətli və davamlı sülh olmalıdır.

❖ ❖ ❖

"Mən Cənubi Qafqazdakı dostlarıma görə çox sevinirəm", - deyən Serbiya Respublikasının Prezidenti **Aleksandar VUÇİÇ** Azərbaycanın Serbiyaya yatırdığı sərmayədən söz açıb. Həmçinin bildirib ki, Belqradla Bakı, eləcə də Tbilisi ilə birbaşa aviareys nəzərdə tutulur, Ermənistanla da belə birbaşa uçuşlar təşkil edilə bilər. "Beləliklə, biz gələcəkdə Qərblə yanaşı, Şərqə doğru da əməkdaşlığımızı genişləndirəcəyik, dostlarımızla münasibətlərimizi gücləndirəcəyik", - deyə o əlavə edib.

Serbiya Prezidenti deyib: "Cənab Prezident İlham Əliyevin söylədiyi fikirlərlə bağlı bir mövqe var: o, həqiqətən də müasir dünyada böyük, dahi liderlərdən biridir və indiki dövrdə belə bir lideri çox nadir halda görmək olur. Bunun çox böyük təsir effekti var və bu, danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük".

Çıxışının sonunda Aleksandar Vuçiç ümid etdiyini vurğulayıb ki, Serbiya Azərbaycan, Türkiyə, həmçinin Ermənistan kimi mehriban, dost ölkələrin dəstəyi sayəsində çətinliklərin öhdəsindən gələ biləcək.

# Gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğundur

## Prezident İlham Əliyev Davosda Qətərin Baş naziri və xarici işlər naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Görüşdə əlaqələrimizin mövcud səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığın bir çox istiqamət üzrə, o cümlədən iqtisadi-ticari müstəvidə inkişafı üçün geniş potensialın olduğu vurğulandı, ölkələrimiz arasında mövcud sıx münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə əminlik bildirildi.

ARDNŞ tərəfindən Azərbaycan qazının Suriyaya çatdırılması vasitəsilə bu ölkənin enerji təchizatının bərpası işində ölkələrimizin uğurlu əməkdaşlığı qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Davosda "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda dünyanın IT texnologiyaları üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda mövcud əlverişli investisiya mühitinin xarici sərmayədarlar üçün də cəlbedici olduğu vurğulandı. "Dell Technologies"in Azərbaycanda fəaliyyəti və bu şirkətin iştirakı ilə ölkəmizdə superkompüter mərkəzinin yaradılması qeyd edildi, onun resurslarının süni intellekt və qərar qəbuletmə sahələrində tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə həmçinin IT infrastrukturun qurulması və modernləşdirilməsi, şəbəkə avadanlıqları, məlumat mərkəzləri və bulud infrastrukturu layihələri, o cümlədən qabaqcıl məlumat mərkəzlərinin layihələndirilməsi və tətbiqi ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu.

## Prezident İlham Əliyev Davosda "Brookfield Asset Management" şirkətinin prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teski ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı "Brookfield Asset Management"in real aktivlərə yönəlmiş qlobal investisiya fəaliyyəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə investisiya baxımından maraq doğuran sahələr və mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

Görüş çərçivəsində ARDNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolu imzalandı.

Sənəd mövcud strateji münasibətlərin institusional əsasda daha da dərinləşdirilməsini, fondun qlobal miqyasda nüfuzlu investisiya platformalarına çıxış imkanlarının genişləndirilməsini nəzərdə tutur. Bununla yanaşı, ARDNF-nin "Brookfield" tərəfindən idarə olunan fondlara və birgə investisiya layihələrinə 3-4 il müddətində ümumilikdə 1,4 milyard ABŞ dollarınadək kapital qoyuluşu imkanlarının dəyərləndirilməsi planlaşdırılır.

Əməkdaşlıq çərçivəsində Azərbaycanda investisiya potensialı olan əsas sahələr, o cümlədən enerji keçidi və saxlancı, bərpaolunan enerji, rəqəmsal infrastruktur və digər sahələr üzrə imkanların araşdırılması nəzərdə tutulur.

## Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumu çərçivəsində panel iclasda iştirak edib






Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 21-də Davosda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp xüsusi müraciətlə çıxış edib. Sonra Donald Trampın iştirakı ilə panel iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.





## Prezident İlham Əliyev Davosda Çexiyanın Baş naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Çex Respublikasının Baş naziri Andrey Babişlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, maşınqayırma, nəqliyyat və digər sahələri əhatə edən əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Münasibətlərimizin dərinləşdirilməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunuldu.

Azərbaycan Prezidenti və Çexiyanın Baş naziri əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Andrey Babiş Prezident İlham Əliyevi Çexiyaya rəsmi səfərə dəvət etdi. Dövlətimizin başçısı da öz növbəsində Çex Respublikasının Baş nazirini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Hər iki dəvət məmnunluqla qəbul olundu.

## Prezident İlham Əliyev Davosda İsrail Dövlətinin Prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda İsrail Dövlətinin Prezidenti İsxak Hersoqla görüşüb.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı İsxak Hersoqun ölkəmizə səfərləri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulandı. İqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi.

Azərbaycan və İsrail prezidentləri əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etdilər.

# Prezident İlham Əliyev Davosda Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosla görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosla görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Marta Kosun ötən il Azərbaycana, o cümlədən Qarabağa səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. Marta Kos işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Eyni zamanda enerji, regional nəqliyyat bağlantıları, humanitar minatəmizləmə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu.

Marta Kos Avropa İttifaqının Azərbaycanın humanitar minatəmizləmə sahəsində fəaliyyətinə, həmçinin Naxçıvanın dəmir yolu xəttinin bərpası layihələrinə dəstək göstərməyə hazır olduğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bir çox sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu vurğulandı və bu istiqamətdə fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Davosda "Vitol" şirkətinin baş icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda "Vitol" şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda həyata keçirilən neft strategiyası barədə məlumat verildi, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində roluna toxunuldu. Bu xüsusda bir neçə Avropa ölkəsinin, o cümlədən Avropa İttifaqına bir sıra üzv dövlətlərin Azərbaycan qazı ilə təchiz edilməsi vurğulandı.

Görüşdə ölkəmizlə bu şirkət arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, baş ofisi Rotterdam şəhərində yerləşən "Vitol" dünyanın aparıcı neft ticarəti şirkətlərindən biridir. 1966-cı ildə qurulan "Vitol" qrupu dünyanın üç əsas xam neft broker şirkəti sırasına daxildir.

# Prezident İlham Əliyevin Davosda səsləndirdiyi fikirlər beynəlxalq mətbuat tərəfindən geniş işıqlandırılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında və "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə söylədiyi fikirlər beynəlxalq mətbuat tərəfindən geniş işıqlandırılıb.**




AZƏRTAC xəbər verir ki, Avropanın müxtəlif ölkələrinin, Rusiyanın və ərəbdilli ölkələrin media orqanları Azərbaycan Prezidentinin "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasındakı çıxışına istinadən məqalələr hazırlayıblar. Məqalələrdə ilk növbədə Ermənistan və Azərbaycan arasında artıq arxada qalmış müharibədən sonra regionda yaranmış yeni reallıqlar, iki ölkə arasında gələcəyə yönəlmiş baxışlar diqqət mərkəzində dayanıb.

Türkiyənin "Anadolu", "İhlas" xəbər agentlikləri, Rusiyanın "Kommersant", "Komsomolskaya pravda", "Vedomosti", "Vesti", "Qazeta" qəzet və portalları, "TASS" xəbər agentliyi, ərəbdilli "lebanon24", "Al bayader" portalları" Prezident İlham Əliyevin çıxışına istinadla Azərbaycanın və Ermənistanın müharibə fəslini bağladığını qeyd ediblər. Dövlətimizin başçısı qeyd edib ki, otuz il əziyyət çəkmiş ölkənin lideri olaraq lazımi vaxtda dayanmaq olduqca məsuliyyətli və vacib qərar idi. Sonsuz müharibələr daha çox əziyyət və qurbanlar ilə nəticələnəcəkdi. "Beləliklə, müharibə heç vaxt bitməyəcəkdi. Kimsə bunu dayandırmalı idi və biz buna son qoymaq qərarına gəldik. Bəli, həmin fəsli bağlamaq və sülh üçün imkanları görməklə bağlı qərar Azərbaycan və Ermənistan liderlərinin birgə qərarı idi", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Qeyd olunur ki, Azərbaycan Prezidenti çıxışında beynəlxalq təşkilatların fəaliyyətindən də danışıb: "Beynəlxalq vasitəçiliklə bağlı bütün ümidlərimiz tam alt-üst oldu. Ali beynəlxalq qurum - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ərazilərimizdən erməni qoşunlarının çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Onlar kağız üzərində qaldı. ATƏT və digər beynəlxalq təsisatlar çoxsaylı qətnamələr qəbul etdilər. Onların heç biri biz vəziyyəti öz əlimizə alanadək həyata keçirilmədi. Biz özümüz bunu etdik. Biz ədaləti, beynəlxalq hüququ, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdik, sonra isə sülhə nail olduq".

Dövlətimizin başçısı qeyd edib ki, bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Azərbaycandan Ermənistana neft göndərilib.

Məqalələrdə xüsusilə vurğulanıb ki, Azərbaycan və Ermənistan arasında bu addım regionda sabitliyin və əməkdaşlığın gücləndirilməsi üçün vacib dönüş nöqtəsidir və bunun bu mötəbər forum çərçivəsində Avrasiyaya həsr olunmuş toplantıda ifadə olunması mühüm əhəmiyyət kəsb edir.

"gulfpress.net", "inkl.com", "indexbox.io", "alsaudiapress.com" portalları isə Azərbaycan Prezidentinin Davosda beynəlxalq hüquq, Avropanın enerji təhlükəsizliyi və enerji təchizatının geosiyasi aspektləri barədə fikirlərinə yer ayırıblar. Qeyd edilib ki, Avropanın enerji təchizat mənbələrini şaxələndirməyə çalışdığı bir dövrdə Azərbaycan Avropa enerji bazarlarında sürətlə mühüm oyunçuya çevrilib. Prezident Əliyevin sözlərinə görə, hazırda Azərbaycan 16 dövlətə, o cümlədən Avropa İttifaqının 10 üzvünə təbii qaz ixrac edir. Bu geniş şəbəkə Azərbaycanı boru kəmərləri vasitəsilə qaz təchiz edən aparıcı qlobal ölkələrdən birinə çevirir ki, bu da təhlükəsiz və etibarlı enerji infrastrukturunun ön plana çıxdığı bir bazarda mühüm fərqləndirici cəhətdir.

Əsasən AZƏRTAC-a istinadla yayılan materiallarda Davosda keçirilən forum çərçivəsində Prezident İlham Əliyevin dünyanın aparıcı şirkətləri, dövlət və hökumət başçıları ilə görüşləri və müzakirə olunan məsələlər barədə məlumatlar verilir.

Bu görüşlərin Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığının genişləndirilməsi və ölkənin qlobal investisiya mühitində mövqeyinin daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunur.

Eyni zamanda dövlətimizin başçısının "Euronews" televiziyasına müsahibəsi zamanı regional əməkdaşlıq, regionda və dünyada baş verən proseslərlə bağlı fikirləri də geniş işıqlandırılıb.

Bir sıra mətbu orqanları isə Azərbaycan Prezidentinin "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə söylədiklərinə, xüsusilə Azərbaycan neftinin gələcəyinə dair fikirlərinə diqqət ayırıblar. "mk.ru", "vesti.ru", "life.ru", "Komsomolskaya pravda", "Vzqlyad" kimi portal və qəzetlərdə Prezident İlham Əliyevin Azərbaycanda ikinci neft bumunun baş verə biləcəyinə dair fikri manşetə çıxarılıb. Qeyd edilib ki, qaz hasilatının artması fonunda hazırda ölkə "qara qızıl"ın hasilatını azaldır. Lakin neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlar var.

Bununla yanaşı, Prezident İlham Əliyev əsas prioritetin iqtisadiyyatın şaxələndirilməsi olduğunu xüsusi vurğulayıb. Azərbaycan Prezidenti "yaşıl enerji"nin artan roluna diqqət çəkərək deyib: "2032-ci ilə qədər günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə etməyi gözləyirik".

# Sülhə nail olmaq üçün güclü siyasi iradə lazımdır

## Prezident İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*







Azərbaycana həmişə məmnunluqla səfər etdiklərini deyən qonaqlar qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Onlar 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə Prezident İlham Əliyevə təqdim olunacağını bildirərək, bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mükafatın təntənəli təqdimat mərasiminin keçiriləcəyini dedilər, həmin tədbirdə fəxri qonaq qismində iştirak üçün dəvət məktubunu Prezident İlham Əliyevə təqdim etməkdən şərəf hissi duyduqlarını vurğuladılar.

Qeyd olundu ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunub və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edir. Dövlətimizin başçısının bu mükafata layiq görülməsi, eyni zamanda Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibin, Roma Papası XIV Leonun və münsiflər heyətinin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirildi.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvlərinin ötən il dünya üzrə bütün sülh modellərinin araşdırılmasından sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin modelinin münaqişə və müharibə olan digər bölgələrdə də tətbiqi üçün gözəl nümunə olması barədə qərar qəbul etdikləri bildirildi.

Müsəlman Ağsaqqalları Şurasının baş katibi **Məhəmməd ƏBDÜLSALAM:** Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün zati-alinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir.

Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın həqiqətən buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir. Cənab Prezident, Sizə həqiqətən təşəkkürümüzü bildiririk.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, Avropa İttifaqı Şurasının sabiq prezidenti **Şarl MİŞEL:** Hesab edirəm ki, Sizin Ermənistanla birgə icra etdiyiniz sülh razılaşması dünya ölkələri üçün çox güclü bir siqnaldır. Yəni çətinliklərə, keçmiş və indiki iztirablara baxmayaraq, gələcəyə kiçik də olsa, nikbinliklə və ümidlə baxmaq üçün ortaq iradə var. Bu da bizim təşviq və müdafiə etmək istədiyimiz dəyərlərə bağlıdır. Çünki biz hesab edirik ki, bu dəyərlər gələcəkdə daha çox təşviq olunmalıdır. Bir daha qeyd etmək istəyirəm, biz Sizin liderliyinizi, bu sülh razılaşmasını təqdir edirik. Mükafatla bağlı verdiyimiz qərarla biz bu sülh razılaşmasının reallığa çevrilməsi üçün Sizin göstərdiyiniz bütün səylərə dəstək olduğumuzu nümayiş etdirmək, region və Cənubi Qafqaz, həmçinin daha geniş bölgə üçün müsbət ümidlər və perspektivlər arzulamaq istəyirik.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, Afrika İttifaqı Komissiyasının sabiq sədri **Musa FAKİ:** Düşünürəm ki, sülh və sabitlik çox zəruridir. Fikrimcə, baxışlarınız və rəhbərlik keyfiyyətləriniz çox yüksək dəyərləndirilir. Münsiflər heyətinin üzvü kimi Sizi təbrik etmək istəyirəm və görüşümüzdə iştirak etmək üçün razılıq verdiyinizə, bütün dünyaya və region xalqlarına sülhün və cəsarətin nədən ibarət olduğunu göstərdiyinizə görə minnətdaram. Qeyd etdiyiniz kimi, son vaxtlara qədər qətl və qan tökülməsi müşahidə olunurdu. Lakin indi irəliyə doğru getmək, sülhü və sabitliyi bərqərar etmək cəsarətini nümayiş etdirdiniz. Zati-aliləri, təbrik edirəm.

❖ ❖ ❖

Xoş sözlərə və dəvətə, həmçinin regionda sülhün bərqərar olunması istiqamətində Azərbaycanın səylərinin yüksək qiymətləndirilməsinə görə münsiflər heyətinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul etdiyini vurğuladı.

Sülhün regional sabitlik və firavanlıq baxımından önəminə toxunan Prezident İlham Əliyev dedi ki, işğal zamanı xalqımızın üzləşdiyi əziyyətlərə, verdiyi qurbanlara baxmayaraq, Azərbaycan dayanıqlı sülhün bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirib. Prezident İlham Əliyev sülh razılaşmasının məhz Azərbaycan tərəfindən hazırlanaraq Ermənistana təqdim olunduğunu və bu istiqamətdə səylərin davam etdiriləcəyini diqqətə çatdırdı.

**Prezident İlham ƏLİYEV:** "Sizin də düzgün qeyd etdiyiniz kimi, sülh bütün regiona sabitlik və firavanlıq gətirəcək. Yaxın keçmişə nəzər salsaq, bizim məsələmizin bir növ nadir olduğunu görərik. Yaxın keçmiş deyərkən, son onilliyi nəzərdə tuturam. Son qanlı döyüşlərdən sülhə gedən yol iki il zaman apardı. Əziyyətə və qurbanlara baxmayaraq, biz sülhün birdəfəlik bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirdik və artıq bunun bəhrəsini görürük".

Dövlətimizin başçısı cəmi beş ildir sülh şəraitində yaşadığımızı qeyd edərək vurğuladı ki, son aylar sülh artıq ticarət sahəsi də daxil olmaqla, praktik müstəviyə keçib. Azərbaycan Prezidenti bu xüsusda 2025-ci il avqustun 8-də Vaşinqton görüşündə sülh gündəliyi ilə bağlı əldə olunmuş razılaşmaların tarixi əhəmiyyətini qeyd etdi, bu məsələdə ABŞ Prezidenti Donald Trampın səylərini yüksək qiymətləndirdi.

**Prezident İlham ƏLİYEV:** "Sülh şəraitində yaşamağa öyrəşirik. İnanın mənə, bu, xoş hissdir. Hiss edirsiniz ki, müharibə artıq yoxdur, əlavə qurbanlar yoxdur, qan artıq tökülmür. Siz xalq, ölkə və inkişaf, rifah, sabitlik üçün daha çox işlər görə bilərsiniz. Yenə də düşünürəm ki, Azərbaycan ilə Ermənistan arasında əldə olunmuş razılaşma və bu cür mötəbər şəxslərdən ibarət qrupun verdiyi qiymət həqiqətən göstərir ki, sülhə nail olmaq üçün sizdə güclü siyasi iradə lazımdır. Bunu ürəkdən arzulamalısınız. Bunu sözdə yox, əməldə etməlisiniz. Bu cür səylər dəyərləndirildiyi halda Siz daha da həvəslənirsiniz və qlobal xəritədə insanların hələ də müharibədə öldüyü digər yerlərə də sülh mesajını verirsiniz".

"Zayed İnsan Qardaşlığı Mükafatı"ndan danışan dövlətimizin başçısı bildirdi ki, mərhum Şeyx Zayed bin Sultan Al Nəhyanın xatirəsinə dünyada böyük rəğbət bəslənilir. Prezident İlham Əliyev, eyni zamanda onun xələfi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla qardaşlıq münasibətlərinin olduğunu qeyd etdi. Bu xüsusda dövlətimizin başçısı mükafata layiq görülməsinin onun üçün ikiqat şərəf olduğunu dedi. Prezident İlham Əliyev regionda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlərə göstərdikləri dəstəyə və onun fəaliyyətinə verdikləri qiymətə görə, həmçinin Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxinə və Roma Papasına minnətdarlığını çatdırmağı xahiş etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər







Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri Azərbaycanın azadlığı uğrunda həlak olan qəhrəman Vətən övladlarının məzarları üzərinə tər güllər düzüb, əziz xatirələrini ehtiramla anıblar.

## Milli Məclisin kollektivi şəhidlərin xatirəsini anıb

Yanvarın 20-də Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin kollektivi 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edib, Azərbaycanın azadlığı uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzüb.

*"Azərbaycan"*



## Yeni Azərbaycan Partiyasının nümayəndələri Vətən övladlarının xatirəsini yad ediblər

**20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

YAP nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.



Partiya nümayəndələri tərəfindən "Türk şəhidliyi" abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri qoyularaq Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş türk qardaşlarımızın xatirəsi ehtiramla anılıb.

## 20 Yanvar şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad edilib

**Yanvarın 20-də saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad olunub.**

AZƏRTAC xəbər verir ki, nəqliyyatın hərəkəti dayandırılıb, gəmilərdən, avtomobillərdən, qatarlardan siqnallar verilib, hüzn əlaməti olaraq ölkənin şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycan Respublikasının Dövlət Bayrağı endirilib.

Qeyd edək ki, Qanlı Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Azərbaycanın bütün ərazisində və bir sıra xarici ölkələrdə şəhidlərin xatirəsi yad edilib, 20 Yanvar hadisələri ilə bağlı anım mərasimləri keçirilib. 20 Yanvar faciəsi zamanı şəhid olanların ailələrinə yardım göstərilib.





Yanvarın 20-də səhər saatlarından başlayaraq Şəhidlər xiyabanını ziyarət edənlər qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüblər.

## Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə İşçi qrupunun növbəti iclası keçirilib




**Yanvarın 21-də Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Strateji İşçi qrupunun xarici işlər nazirinin müavini Elnur Məmmədov və dövlət katibinin köməkçisinin müavini Sonata Koulterin rəhbərliyi ilə onlayn formatda ikinci iclası keçirilib.**

XİN-dən AZƏRTACA-a bildirilib ki, iclas zamanı ötən avqustda Vaşinqton Sülh Sammiti çərçivəsində Azərbaycan və ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Anlaşma Memorandumuna uyğun olaraq, iki ölkə arasında enerji, ticarət, tranzit də daxil olmaqla regional bağlantılar, iqtisadi sərmayə, müdafiə və təhlükəsizlik, terrorçuluqla mübarizə, eləcə də süni intellekt, rəqəmsal infrastruktur kimi sahələrdə strateji tərəfdaşlığın inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Strateji Tərəfdaşlıq Xartiyasının yekunlaşdırılması məqsədilə sənədin mətni üzərində müzakirələr davam etdirilib.

## 20 Yanvar - Ümumxalq Hüzn Günü xarici ölkələrdə qeyd edilib

### ABŞ

ABŞ-nin Vaşinqton şəhərində Amerika Universitetinin Vaşinqton Hüquq Kollecində 20 Yanvar - Ümumxalq Hüzn Gününün 36-cı ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Azərbaycanın ABŞ-dəki səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə səfirliyin əməkdaşları, ABŞ dövlət qurumlarının nümayəndələri, diplomatik korpus üzvləri, azərbaycanlı icmasının təmsilçiləri, bu ölkədə təhsil alan azərbaycanlı və xarici tələbələr, həmçinin media nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Amerika Universitetinin Vaşinqton Hüquq Kollecinin direktor müavini Şəlalə Vəliyeva 1990-cı il 20 yanvarda sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi qanlı hadisələrin Azərbaycan xalqının yaddaşında silinməz iz buraxdığını bildirib. O, 20 Yanvar faciəsinin xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsində həlledici dönüş nöqtəsi olduğunu vurğulayıb.

Universitetin beynəlxalq və müqayisəli hüquq araşdırmaları üzrə direktoru, hüquq professoru Padideh Alai bu kimi faciələrin yaddaşlarda yaşadılmasının və beynəlxalq ictimaiyyətə düzgün şəkildə çatdırılmasının vacibliyini qeyd edib. Onun sözlərinə görə, bu cür hadisələr təəssüf ki, bu gün də baş verir və bəşəriyyət onların mahiyyətini dərindən dərk etməlidir.

Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim çıxışında 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik iradəsini sındıra bilmədiyini, əksinə, milli birliyi və azadlıq əzmini daha da gücləndirdiyini bildirib. Səfir vurğulayıb ki, tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması bu cür faciələrin təkrarlanmamasında mühüm rol oynayır.

Saratoqa Fondunun prezidenti Qlen Hovard 20 Yanvar hadisələrini Azərbaycan dövlətçiliyinin və milli kimliyinin bərpası yolunda atılan mühüm addım kimi dəyərləndirib. O, bu faciənin keçmiş Sovet İttifaqında azadlıq arzusu ilə yaşayan digər xalqlara da ilham verdiyini, Qarabağın işğaldan azad edilməsinin isə Azərbaycanın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olduğunu qeyd edib.

Tədbir sual-cavab sessiyası və iştirakçılar arasında fikir mübadiləsi ilə davam edib.

### Böyük Britaniya

Londonda 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyinin dəstəyilə təşkil olunan tədbir London Universitet Kollecinin (UCL) Azərbaycan Cəmiyyətinin və Britaniya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə reallaşıb. Anım mərasimində Böyük Britaniyada yaşayan Azərbaycan diasporunun nümayəndələri, bu ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Tədbirin açılışında Universitet Kollecinin (UCL) Azərbaycan Cəmiyyətinin sədri Murad Abdulkərim çıxış edib, faciə qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, 20 Yanvar hadisələrini əks etdirən ingilis dillində qısa sənədli film nümayiş olunub.

Daha sonra London Universitet Kollecinin tələbəsi Zeynal Zeynallının moderatorluğu ilə keçirilən paneldə Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov çıxış edib. Səfir çıxışında 20 Yanvar hadisələrinin Azərbaycan xalqının tarixi yaddaşında silinməz iz buraxdığını bildirib. Vurğulayıb ki, həmin gecə törədilən zorakılıq mülki əhaliyə qarşı yönəlmiş ağır cinayət olmaqla yanaşı, mahiyyət etibarilə insanlığa qarşı cinayət kimi dəyərləndirilməlidir. Həmin vaxtı Moskvada təhsil aldığını bildirən səfir, 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı Nümayəndəliyində Ümummilli Lider Heydər Əliyevin mətbuat və ictimaiyyət qarşısında verdiyi kəskin siyasi etirazın canlı şahidi olduğunu bildirib. O, Ulu Öndərin sovet rejiminə qarşı bu cəsarətli çıxışının Azərbaycan xalqının müstəqillik uğrunda sarsılmaz mövqeyinin ifadəsi olduğunu vurğulayıb.

Elin Süleymanov həmçinin 20 Yanvar gecəsinin qurbanlarının yalnız etnik azərbaycanlılardan ibarət olmadığını, müxtəlif millətlərə mənsub insanların da həlak olduğunu diqqətə çatdıraraq, bunun etnik və mədəni müxtəlifliyin hər zaman ölkəmizin ən ümdə xüsusiyyətlərindən biri olduğunun bariz göstəricisi olduğunu deyib.

Tədbirdə çıxış edən gürcüəsilli tədqiqatçı Tamara Draqadze 1990-cı ilin yanvarında Azərbaycanda olduğunu deyib. Tamara Draqadze bildirib ki, 20 Yanvar hadisələrindən sonra Heydər Əliyevin Moskvada açıq mövqe ortaya qoyması yalnız şəxsi cəsarət nümunəsi deyildi, eyni zamanda Azərbaycanın siyasi taleyi baxımından həlledici addım idi. Onun sözlərinə görə, həmin çıxış Azərbaycan xalqının təkcə millət kimi deyil, həm də siyasi liderliklə formalaşan dövlət kimi meydana çıxdığını göstərdi.

Sonda Tamara Draqadze bildirib ki, bu gün dünyada baş verən münaqişələr və mülki əhaliyə qarşı zorakılıqlar 20 Yanvar faciəsinin mahiyyətini daha dərindən anlamağa imkan verir. O, gənc nəslin tarixi yaddaşı qoruyaraq daha ədalətli və humanist bir dünyanın qurulmasına töhfə verəcəyinə ümid etdiyini bildirib.

Beynəlxalq cinayət hüququ üzrə fəlsəfə doktoru (PhD) namizədi Tofiq Şahniyarov çıxışında 20 Yanvar hadisələrinə hüquqi aspektdən toxunub. Anım mərasimi interaktiv müzakirə ilə davam edib, tələbələr mövzu ətrafında çıxışçılara suallar ünvanlayıblar.

*AZƏRTAC*

## UN-HABİTAT-ın icraçı direktoru Azərbaycana dəstəyə görə təşəkkür edib

**BMT-nin Məskunlaşma Proqramı (UN-HABİTAT) BMT proqramının fəaliyyətlərini dəstəklədiyinə görə Azərbaycana minnətdardır.**

AZƏRTAC xəbər verir ki, bu fikri BMT-nin Məskunlaşma Proqramının (UN HABİTAT) icraçı direktoru xanım Maimuna Mohd Şərif Azərbaycanla əməkdaşlığa dair açıqlamasında bildirib.

O, Ümumdünya Şəhər Forumunun 11-ci sessiyası çərçivəsində keçirilən görüşə görə də Azərbaycan nümayəndə heyətinə təşəkkürünü bildirərək deyib ki, görüşdə tərəflər arasında Azərbaycanda birgə fəaliyyət imkanları müzakirə edilib.

Qeyd edək ki, BMT-HABİTAT və Azərbaycan fəal əməkdaşlıq edir.

Azərbaycan bu yaxınlarda təşkilata 1,5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi verib.





# Xalqımız şəhidlərini unutmur

**Tariximizə həm kədər, həm də qürur günü kimi yazılmış 20 Yanvar faciəsinin baş verdiyi vaxtdan 36 il keçir. Üstündən illər keçməsinə baxmayaraq, Azərbaycan xalqı azadlığı və müstəqilliyi uğrunda şəhid olanların xatirəsini unutmur, onları həmişə böyük hörmətlə anır, ehtiramla yad edir.**

İllərdən bəridir şəhidlərin dəfn olunduğu xiyaban xalqımızın müqəddəs ziyarətgahına çevrilib. Yalnız qanlı faciənin ildönümlərində deyil, demək olar ki, hər gün Şəhidlər xiyabanı ziyarət edilir, şəhidlərin məzarı üstünə tər qərənfillər qoyulur, Uca Tanrıdan onlara rəhmət dilənir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet imperiyası ölkəmizdə alovlanmağa başlamış milli azadlıq hərəkatının qarşısını almaq məqsədilə heç bir xəbərdarlıq etmədən ölkəmizin paytaxtı Bakı şəhərinə hücum etmişdir. Soyuq qış gecəsində Azərbaycanın paytaxtına və bir neçə rayonuna ən ən müasir silahlarla, zirehli texnikalarla təchiz olunmuş qoşun yeridilmişdir. Keçmiş imperiyanın əsgərləri müstəqilliyi və azadlığı uğrunda mübarizəyə qalxmış xalqımızın cəsur oğul və qızlarına qarşı böyük amansızlıq göstərərək onların həyatına son qoymuşdur. Yenicə çiçəkləyən müstəqillik və azadlıq arzularını qana boyamışdılar. İnsanlıqlarını itirmiş hərbçilər bir gecənin içində şəhərimizin küçə və prospektlərini qanlı döyüş meydanına çevirmişdilər. Zirehli texnikalarını onlara qarşı heç bir müqavimət göstərməyən insanların üstünə sürmüşdülər.

İmperiya nə qədər qəddarlıq və amansızlıq göstərsə də, xalqımızın ürəyində çiçəkləyən azadlıq və müstəqillik arzularının boy atmasının qarşısını ala bilməmişdilər. Xalqımızın müstəqilliyə aparan yolunu 20 Yanvar şəhidləri cəsarət və hünərləri ilə açmışdılar.

...Yanvarın 20-sidir, soyuq bir qış günüdür, qar yağır, külək əsir. Havanın qarlı, şaxtalı olmasına baxmayaraq, Şəhidlər xiyabanına ziyarətə gələn insanların ardı-arası kəsilmir. Səhər lap ertədən başlayaraq, insanlar 36 il əvvəl müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərin məzarını ziyarət etməyə gəlirlər. Onların gözlərindən qəm süzülür, üzlərindən kədər yağır. Şəhidləri ziyarət etməyə gələnlər kövrək addımlarla əllərində tər qərənfillər məzarlara yaxınlaşırlar. Qan rəngli qərənfillər şəhidlərin məzarı üstünə düzülür, onların xatirələri hörmət və ehtiramla yad edilir.

Şəhidlər xiyabanını ziyarətə gələnlərlə görüşüb söhbət etdik, ürək sözlərini dinlədik. Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan zabit Füzuli Abbasov söhbət zamanı dedi ki, 36 il əvvəl keçmiş sovet imperiyasının əsgərləri tərəfindən ölkəmizin paytaxtında və bölgələrində törədilmiş qanlı faciə həmişə ürəyimizi yandırır, qəlbimizi göynədir. İllərin arxasında qalmış soyuq 20 Yanvar gecəsində ölkəmizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş cəsur, vətənpərvər övladlarımızın əziz xatirəsi əbədi olaraq qəlbimizdə yaşayır. "Həmişə olduğu kimi, bu il də əlimdə qərənfillər müqəddəs məkanımız olan Şəhidlər xiyabanına gələrək adları qəhrəmanlıq tariximizə böyük hərflərlə yazılmış oğul və qızlarımızın məzarını ziyarət edir, ruhlarına dualar oxuyuram. Havanın belə soyuq olmasına baxmayaraq, xiyabanda çox sıxlıqdır. İnsanlar axın-axın ziyarətə gəlirlər. Təkcə ölkəmizin paytaxtında deyil, bölgələrdə də 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər keçirilir. Hər yerdə şəhidlərin məzarı ziyarət olunur, xatirələri əziz tutulur".





Şəhidlər xiyabanını ziyarətə gəlmiş şəhər sakini Alim Zeynalov isə söhbət zamanı dedi ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərində Azərbaycan tarixinin ən qanlı hadisələrindən biri baş verdi. Keçmiş ittifaqın başdan-ayağa silahlanmış ordusu gözlənilmədən bir neçə istiqamətdən Bakıya soxularaq dinc əhalini atəşə tutdu. Heç bir günahı olmayan insanlar amansızlıqla qətlə yetirildi. İmperiyanın həmin vaxt rəhbəri olan Qorbaçov bu cür qəfil hücumla xalqımızın azadlıq və müstəqillik arzusunu qan içində boğmağa çalışdı. Məqsədinə çatmaq üçün insanlığa yaraşmayan çirkin addımlar atdı. Amma imperiya bu çirkin və gözlənilməz addımlarla xalqımızın sarsılmaz iradəsini qıra bilmədi. Tarixin sınaqlarından həmişə üzüağ çıxmış məğrur xalqımız gözləmədiyi bir vaxtda - 1990-cı il 20 yanvarın səhərini güllə səsləri, göz yaşı ilə açdı. Neçə-neçə insanın ömür yolu həmin qanlı gecədə yarımçıq qaldı. Qəddar sovet hərbçiləri insanlarla yanaşı, binaların divarlarını, yol kənarında dayanmış avtomobilləri də silahlarının nişangahına aldılar. Qarşılarına çıxan hər şeyi atəşə tutdular, böyük vəhşiliklər törətdilər. 20 Yanvar faciəsi qəhrəmanlıq tariximizin səhifələrinə azadlığımız, müstəqilliyimiz uğrunda mübarizə kimi yazıldı. Xalqımız şəhidlərini həmişə əziz tutur, xatirələrini hörmətlə yad edir.

Digər müsahibimiz ingilis dili müəllimi Könül Məmmədova bildirdi ki, 36 ildir xalqımız 20 Yanvar faciəsini Hüzn Günü kimi qeyd edir. 1990-cı ilin 20 yanvar gecəsində Azərbaycan xalqının azadlığı və müstəqilliyi yolunda canlarını qurban vermiş şəhidlər heç vaxt unudulmur. Onlar cəsarətləri, igidlikləri, vətənpərvərlikləri ilə adlarını xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazıblar. Baş vermiş bu qanlı faciənin üstündən yüz illər, min illər keçsə belə, 20 yanvar tarixi xatırlanacaq, gələcək nəsil şəhidlərin qəhrəmanlıq yolları ilə yaxından tanış olacaqdır. Gənclər zaman-zaman igidliyi, mübarizliyi onlardan öyrənəcəklər. Həmişə bu oğullar kimi cəsur və qəhrəman olmağa çalışacaqlar. İllərdən bəri ağrı-acılarını yaşadığımız bu qanlı faciə xalqımızın müstəqilliyə gedən yolunda atılan ilk addımdır. Biz dərslərdə də bu barədə şagirdlərə ətraflı məlumat veririk. Tarximizin bu səhifəsini gələcəyimiz olan uşaqlara dərindən öyrədirik. Çalışırıq ki, məktəblilər vətənpərvər, bilikli olsunlar, hərtərəfli inkişaf etsinlər. Qoy şagirdlərimiz şəhidlərimizin hansı müqəddəs amal və məqsəd uğrunda canlarından keçdiklərini dərindən anlasınlar. Gündən-günə inkişaf edən, dünyada nüfuzu artan dövlətimiz üçün uşaqlar gərəkli vətəndaş kimi böyüsünlər. Biz yalnız ildönümlərində deyil, başqa günlərdə də xiyabana gələrək şəhidlərin məzarını ziyarət edirik. Tariximizi uşaqlara yalnız danışmaqla öyrətmək yox, həm də canlı-canlı göstərməliyik. İnanırıq ki, gələcək nəsillər tariximizi daha da dərindən öyrənəcək, sabahımızın vətənpərvər övladları kimi böyüyəcəklər. Onlar qəhrəmanlıqları və mübarizlikləri ilə xalqımızın başını hər yerdə və bütün zamanlarda uca edəcəklər.

Həmişə olduğu kimi, 20 Yanvar faciəsinin 36-cı ildönümündə də Şəhidlər xiyabanına ziyarətə gələnlər çox idi. Xalq müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş oğul və qızlarının xatirəsini hörmətlə anıb yad edirdi. Qaranlıq düşməsinə baxmayaraq, ziyarətçilər böyük ehtiramla şəhidlərin məzarının üstünə gül düzürdülər. Axın-axın xiyabana ziyarətə gələnləri gördükcə düşünürük ki, Azərbaycan xalqı azadlığı və müstəqilliyi uğrunda canından keçmiş şəhidləri daim hörmətlə anacaq, ehtiramla xatırlayacaq, onların qəhrəmanlığı ilə həmişə fəxr edib öyünəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Bölgələrdə də hüzn qürura qarışdı






**20 Yanvar hadisələrindən 36 il keçir. Bu tarix Azərbaycanda ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin rəmzidir.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun xüsusi təyinatlı bölmələrinin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Bakıda və digər şəhərlərdə onlarca insan öldürüldü, yüzlərlə soydaşımız ağır xəsarət aldı.

O zaman Ümummilli Lider Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək kəskin bəyanatla çıxış etdi. 1994-cü il mart ayında isə Ulu Öndərin təşəbbüsü ilə 20 Yanvar faciəsinə Milli Məclisdə ilk dəfə hüquqi-siyasi qiymət verildi.

20 Yanvar hadisələrindən 36 il keçsə də, xalqımız o müdhiş gecəni xatırlayır, bu faciəni törədənlərə öz dərin nifrətini bildirir. Qan yaddaşımıza əbədi həkk olunmuş 20 Yanvar faciəsi respublikamızda Ümumxalq Hüzn Günü kimi geniş qeyd edilir.

Gəncədə də Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda həlak olan 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla yad edilmişdir. Anım mərasimində şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, ictimaiyyət nümayəndələri, ali məktəblərin professor-müəllim heyəti və tələbələr iştirak etmişlər. Onlar Şəhidlər Memorial Kompleksində şəhidlərin məzarlarını ziyarət etmiş, üzərlərinə gül dəstələri qoymuşlar.

20 Yanvar faciəsi Göygöl rayonunun Şəhidlər xiyabanına toplaşan minlərlə rayon sakininin keçirdiyi anım mərasimində də yad edilmişdir.

Mərasimə toplaşanlar o vaxt informasiya blokadasında olan Azərbaycanda baş verən qanlı faciəyə ilk siyasi qiymət verən Ümummilli Lider Heydər Əliyevin cəsarətindən danışmışlar. Bildirmişlər ki, belə ağır günlərdə xalqına həyan olan, SSRİ rəhbərliyinin min fitnə-fəsadı ilə siyasi səhnədən kənarlaşdırılan Ulu Öndər özünü və ailə üzvlərini təhlükə qarşısında qoyaraq yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransı keçirərək, faciənin səbəblərini və təşkilatçılarının adlarını açıqlamışdır.

Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanında uyuyan şəhid məzarlarını ziyarət edərək üstünə tər qərənfillər düzmüş, Vətənin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların xatirəsinə ehtiramlarını bildirmişlər.

Qanlı Yanvarın ildönümü Ağstafada da qeyd edilmişdir. Şəhidlər xiyabanında keçirilən ümumrayon tədbirində əvvəlcə şəhidlərin ruhuna dualar oxunmuş, Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş mərd oğulların məzarları ziyarət olunaraq üstünə qərənfillər düzülmüşdür. Mərasimdə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək Azərbaycan xalqının başına gətirilən faciəni əsl cinayət kimi dəyərləndirmiş və qeyd etmişdir ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qalib ölkədir və torpaqlarımız 30 illik işğaldan sonra azad edilmişdir. Bununla da Ulu Öndər Heydər Əliyevin arzuları gerçəkləşmişdir. Sonra şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Gədəbəydə keçirilən anım mərasimində icra hakimiyyətinin başçısı səlahiyyətlərini icra edən Natiq Nağıyev çıxış edərək qeyd etmişdir ki, azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı Yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi: "Baş verən hadisələr xalqımızın azadlıq arzusunun 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi. Bununla Azərbaycan xalqı zülmə, ədalətsizliyə və zorakılığa boyun əyməyəcəyini, milli iradəsinin sarsılmazlığını təkcə imperiya rəhbərliyinə deyil, bütün dünyaya göstərdi".

Sonra anım mərasiminin iştirakçıları Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin məzarlarını ziyarət etmişlər.

Tovuzda xalqımızın qan yaddaşına qürur günü kimi əbədi həkk olunan 20 Yanvar faciəsinin 36-cı ildönümü yüzlərlə rayon sakininin qatıldığı anım mərasimi ilə qeyd edildi.

Yanvarın 20-də səhər tezdən insanlar Şəhidlər xiyabanına gələrək onların xatirəsini ehtiramla yad etmiş, məzarları üzərinə və şəhidlərin xatirəsinə ucaldılan abidənin önünə gül dəstələri qoymuşlar.

Ümumxalq Hüzn Günü ilə əlaqədar Samux rayon ictimaiyyəti Şəhidlər xiyabanına gələrək qəhrəman oğullarımızın xatirəsini ehtiramla yad etmişdir. Rayon icra hakimiyyətinin, şəhid ailələrinin, idarə, müəssisə və təşkilat nümayəndələrinin iştirakı ilə keçirilən anım mərasiminin iştirakçıları Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsini dərin hüznlə yad edərək kompleksin önünə tər qərənfillər qoymuşlar. Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev çıxış edərək 20 Yanvar faciəsini xalqımızın qəhrəmanlıq salnaməsi və milli qürur günü kimi səciyyələndirərək şəhid ailələrinə ehtiramını ifadə etmiş, 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən və ölkəmizin suverenliyinin bərpa olunmasından söz açmışdır. Sonra 20 Yanvar şəhidlərinin, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Amerikalı ekspert: "Qara Yanvar" Sovet İttifaqının süqutuna səbəb olması baxımından həm də ABŞ üçün vacibdir"




**"Qara Yanvar" Sovet İttifaqının süqutuna səbəb olması baxımından həm də ABŞ üçün vacibdir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Saratoqa Fondunun prezidenti Qlen Hovard deyib. O bildirib ki, həmin gün Azərbaycanın bir xalq kimi öz kimliyini təsdiq etdiyi və milli suverenliyini bərpa etdiyi tarixi an idi.

"Bu hadisə Azərbaycanın müstəqillik yolunu açdı. Lakin bu həm də o dövrdə Sovet İttifaqının digər xalqları üçün simvolik əhəmiyyət daşıyır. "Qara Yanvar" təkcə Azərbaycanın deyil, həm də regionla və onun həmin dövrdə hansı tarixi əhəmiyyətə malik olması ilə bağlıdır. Bu, Azərbaycanın milli tarixində və kimliyində çox vacib bir andır", - deyə ekspert əlavə edib.

## Türk ekspert: "20 Yanvar Azərbaycan xalqının müstəqilliyə gedən yolunda qanlı, lakin həlledici dönüş nöqtəsidir"

**"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən hadisələr Sovet İttifaqının dağılma prosesində mərkəzi hakimiyyətin tətbiq etdiyi ən sərt hərbi müdaxilələrdən biri olmaqla yanaşı, Azərbaycan xalqının müstəqillik iradəsini sındırmağa yönəlmiş sistemli dövlət zorakılığının açıq təzahürü idi".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin beynəlxalq münasibətlər üzrə eksperti Mehmet Emir Aksoy deyib. Onun sözlərinə görə, 20 Yanvar yalnız silahsız mülki şəxslərin qətlə yetirildiyi faciə deyil, eyni zamanda müasir Azərbaycan siyasi tarixində geri dönüşü olmayan dərin ictimai və psixoloji qırılma nöqtəsidir: "1980-ci illərin sonlarında Sovet İttifaqı dərin iqtisadi böhran, mərkəzi hakimiyyətin zəifləməsi və ittifaq respublikalarında yüksələn milli hərəkatlar fonunda dağılma mərhələsinə daxil olmuşdu. Qarabağda erməni separatizminin güclənməsi və SSRİ-nin Azərbaycan türklərinin təhlükəsizliyini təmin etməkdə aciz qalması cəmiyyətdə ciddi narazılıq yaratmışdı".

M.Aksoy qeyd edib ki, Bakıda başlayan kütləvi etirazların əsasını ərazi bütövlüyünün qorunması, Konstitusiya hüquqlarının müdafiəsi və siyasi suverenlik tələbləri təşkil edirdi: "Bu etirazlar əsasən dinc xarakter daşıyırdı. Lakin sovet rəhbərliyi siyasi dialoq yolunu deyil, hərbi zorakılığı seçdi".



Onun sözlərinə görə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ prezidenti Mixail Qorbaçovun göstərişi ilə təxminən 26 min nəfərlik sovet hərbi birləşməsi tank və zirehli texnikalarla Bakıya yeridilib: "Fövqəladə vəziyyət əhaliyə əvvəlcədən elan edilməmişdi. Şəhər faktiki olaraq hərbi nəzarət altına alındı. Müdaxilə zamanı silahsız mülki şəxslərə atəş açıldı, mülki avtomobillər və təcili yardım maşınları hədəfə alındı".

Ekspert vurğulayıb ki, rəsmi məlumatlara əsasən, 147 Azərbaycan vətəndaşı həlak olub, 700-dən çox insan yaralanıb, yüzlərlə şəxs isə qanunsuz şəkildə saxlanılıb. Müstəqil mənbələr itkilərin daha çox olduğunu göstərir. Hadisələrin gedişi bu müdaxilənin ictimai asayişi qorumaqdan çox cəmiyyət üzərində qorxu və itaət yaratmaq məqsədi daşıdığını sübut edir.

M.Aksoy əlavə edib ki, 20 Yanvar hadisələri beynəlxalq hüquq baxımından da ciddi legitimlik problemləri yaradır. Silahsız mülki əhaliyə qarşı hərbi gücdən istifadə fundamental insan hüquqlarının açıq şəkildə pozulmasıdır. Buna baxmayaraq, həmin dövrdə beynəlxalq ictimaiyyətin reaksiyası zəif oldu. Bu isə Azərbaycan cəmiyyətində təkcə Moskvaya deyil, ümumilikdə beynəlxalq sistemə qarşı da dərin inamsızlıq formalaşdırdı.

Ekspertin fikrincə, qısa müddətdə sovet hakimiyyəti Bakıda nəzarət görüntüsü yaratsa da, uzunmüddətli perspektivdə 20 Yanvar Moskvanın Azərbaycan üzərindəki siyasi legitimliyini tamamilə aradan qaldırdı: "Xalqın sovet sisteminə inamı sarsıldı, müstəqillik ideyası isə kütləvi və geri dönməz milli məqsədə çevrildi. Ulu Öndər Heydər Əliyevin Moskvada verdiyi kəskin bəyanatlar bu hadisələrin Azərbaycan xalqına qarşı ağır cinayət olduğunu açıq şəkildə ortaya qoydu".

Mehmet Emir Aksoy vurğulayıb ki, 1991-ci ildə əldə olunan dövlət müstəqilliyi 20 Yanvarın yaratdığı ictimai şüur və siyasi qətiyyət olmadan mümkün olmazdı: "Bu baxımdan 20 Yanvar Azərbaycan üçün yalnız matəm günü deyil, müstəqilliyin hansı ağır bədəllər hesabına qazanıldığını göstərən tarixi bir eşikdir. Bu hadisə Azərbaycan xalqının siyasi taleyinin kənar güclərin iradəsi ilə deyil, öz milli iradəsi və qərarlılığı ilə müəyyən olunacağını bütün dünyaya nümayiş etdirdi".

Ekspert sonda əminliklə qeyd edib ki, bu gün 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşında müqavimətin, suverenliyin və müstəqilliyin rəmzi kimi yaşayır.

**Siyasi və iqtisadi strategiyaların sinxronlaşdığı məkan olan Ümumdünya İqtisadi Forumu müasir beynəlxalq münasibətlər sistemində nüfuzlu platformalardan biri hesab edilir.**



# Beynəlxalq platformalarda ehtiramla qarşılanan lider

Hər il İsveçrənin Davos şəhərində keçirilən bu tədbir dövlət və hökumət başçılarını, beynəlxalq maliyyə institutlarını, aparıcı transmilli korporasiyaların rəhbərlərini, tanınmış iqtisadçıları, politoloqları və media nümayəndələrini bir araya gətirir.

Forum çərçivəsində qlobal iqtisadi artım, enerji təhlükəsizliyi, iqlim dəyişikliyi, geosiyasi risklər, regional münaqişələr və davamlı inkişaf məsələləri kompleks şəkildə müzakirə olunur. Davos forumu diskussiya platforması olmaqla yanaşı, qlobal siyasətin qeyri-rəsmi koordinasiya məkanı kimi çıxış edir. Burada baş tutan ikitərəfli və çoxtərəfli görüşlər, panel müzakirələri və xüsusi formatlı tədbirlər gələcək beynəlxalq əməkdaşlıq modellərinin formalaşmasına birbaşa təsir göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya İqtisadi Forumu çərçivəsində keçirdiyi görüşlər ölkəmizin beynəlxalq sistemdə artan rolunun, regional və qlobal proseslərə təsir imkanlarının göstəricisidir. Bu görüşlər həm də göstərir ki, Prezident İlham Əliyev Davos platforması çərçivəsində intensiv və çoxşaxəli diplomatik fəaliyyət həyata keçirir.

Prezident İlham Əliyevin forumda budəfəki iştirakının proqramı da zəngindir. Braziliyanın "BTG Pactual" şirkətinin sədri, "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru, "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru, "Carlsberg Group" şirkətinin baş icraçı direktoru, İraq Kürdüstan Regionunun Baş naziri, "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti, "BlackRock"un baş icraçı direktoru və "Global Infrastructure Partners" şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru, "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti, "Brookfield Asset Management" şirkətinin prezidenti və digərləri ilə görüşlər təsdiq edir ki, Prezident İlham Əliyevlə görüşə maraq böyükdür. Həmin görüşlər Azərbaycandakı əlverişli biznes mühitinin beynəlxalq səviyyədə təqdir olunduğunu nümayiş etdirir.

Həmçinin Finlandiya və İsrail prezidentləri, Çexiyanın Baş naziri, Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri və digər nüfuzlu siyasətçilər ilə görüşlər Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunu və çoxtərəfli əməkdaşlığa verdiyi önəmi göstərir. Bu görüşlərin əsasən qarşı tərəfin istəyilə baş tutması Azərbaycan Prezidentinin beynəlxalq nüfuzunun bariz nümunəsidir.

Forum çərçivəsində çoxşaxəli görüşlər Azərbaycanın dünya siyasətində də aktiv və etibarlı iştirakçı olduğunu bir daha sübut edir. Bu fakt dövlətimizin başçısının bütün platformalarda hörmətlə qarşılanan, güclü və praqmatik lider olduğunu nümayiş etdirir.

Dövlət başçısının enerji və maliyyə sektorunun aparıcı aktorları ilə görüşləri Azərbaycanın Avropa və qlobal enerji təhlükəsizliyində mühüm rol oynadığını göstərir. Xüsusilə "Vestas Wind Systems", "DP World", "BlackRock" və "J.P.Morgan" kimi qurumlarla aparılan müzakirələr "yaşıl enerji" layihələri, nəqliyyat-logistika dəhlizləri və uzunmüddətli investisiya perspektivləri baxımından strateji əhəmiyyət daşıyır. Bu mənada Azərbaycan təkcə enerji ixracatçısı yox, eyni zamanda regional sabitliyin təminatçısı və qlobal iqtisadi proseslərin fəal iştirakçısı kimi çıxış edir.

Yanvarın 20-də forum çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında iştirak edən Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərə göstərilən maraq dövlətimizin başçısının beynəlxalq iqtisadi və regional məsələlərdə formalaşdırdığı strateji baxışın nə qədər əhəmiyyətli olduğunun göstəricisidir.

Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibə də Azərbaycan liderinə olan yüksək marağın bariz nümunəsidir. Müsahibədə dövlətimizin başçısına ünvanlanan suallar regional təhlükəsizlik, enerji siyasəti, Cənubi Qafqazda sülh perspektivləri və qlobal çağırışlar kontekstində Azərbaycanın mövqeyinə fokuslanıb. Bu fakt onu göstərir ki, Prezident İlham Əliyev qlobal miqyasda rəy formalaşdıran siyasi liderdir.

Ümumdünya İqtisadi Forumunun Davos toplantısı bir daha təsdiqləyir ki, Prezident İlham Əliyev beynəlxalq platformalarda ehtiramla qarşılanan liderdir. Davosda müşahidə olunan mənzərə həm də onu deməyə əsas verir ki, Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını beynəlxalq müstəvidə uğurla təmin edir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Prezidentinin sülh siyasəti yüksək mükafatlara layiqdir

**Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın Cənubi Qafqazda sülhün təmin olunmasındakı rolunun beynəlxalq səviyyədə tanınması ilə yanaşı, örnək ölkə kimi tarixə düşdüyünü göstərir. Azərbaycan son 80 ildə tam və mütləq qələbə qazanan yeganə ölkə olub. Ölkəmiz beynəlxalq hüquqazidd olan işğala öz daxili potensialı hesabına son qoyub, hərbi və diplomatik çeviklik sayəsində regionda status-kvonu dəyişib.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev tarixi zəfərdən dərhal sonra müəllifi olduğu sülh gündəliyini irəli sürüb. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatı kommunikasiyaların açılmasını ehtiva etsə də, qarşı tərəf sülhdə manipulyasiyalarla vaxtı uzadaraq, konstruktiv addım atmayıb. Ötən il avqustun 8-də Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında əldə olunan razılaşmalar üç onillikdən çox davam edən gərginlikdən sonra regiona sülh, sabitlik və rifah gətirməsi məqsədi daşıyır. Bu irəliləyiş Cənubi Qafqazda yeni bir dövr açdı. Yekun müqavilə imzalanmasa belə, paralel olaraq sülhdə əməli addımlar atılır. "Konkret iqtisadi addımlar sülh sazişinin artıq praktikada reallaşmağa başladığını göstərir. Azərbaycan Ermənistanın kommersiya yükləri üçün tranzit yolunu açaraq, Qazaxıstan və Rusiyadan gələn taxılın Gürcüstan vasitəsilə Ermənistana çatdırılmasına imkan yaradıb. Ermənistan isə öz növbəsində Türkiyə malları üçün yol açıb. Tərəflər, o cümlədən Azərbaycan neft məhsullarının Ermənistana ixracı da daxil olmaqla, ticarətə başlayıblar. İki ölkə müstəqillik əldə etdikdən sonra heç vaxt birbaşa ikitərəfli ticarət aparmayıb. Bu gün baş verən proses sıfırdan, tamamilə yeni bir iqtisadi münasibətlər sisteminin formalaşdırılmasıdır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, normallaşma prosesi təkcə dövlətlərarası diplomatiya ilə məhdudlaşmır: "İctimai dəstək, açıq ünsiyyət və etimadın qurulması davamlı sülhün əsas komponentləri kimi getdikcə daha çox qəbul olunur. İki ölkə arasında vətəndaş cəmiyyəti mübadilələri həyata keçirilib. Bu mübadilələr dialoqu təşviq edir və siyasi razılaşmaların cəmiyyət daxilində möhkəmlənməsinə kömək edir. Bu addımlar da regionda iqtisadi inteqrasiyaya töhfə verir".

Zəngəzur dəhlizinin (TRIPP) regional transformasiyanın strateji elementi olaraq qaldığını vurğulayan Pərvanə Vəliyeva deyib ki, istismara verildikdən sonra bu dəhliz "Şərq-Qərb" marşrutları boyunca yeni logistika imkanları yaradacaq, Avropa ilə Asiyanı birləşdirən Orta dəhliz daxilində strateji alternativ rolunu oynayacaq, Avrasiya məkanında yüklərin daha sürətli və səmərəli daşınmasını təmin edəcək. Tranzit ölkələr kimi həm Azərbaycan, həm də Ermənistan bundan əhəmiyyətli dərəcədə fayda götürə biləcəklər.

Deputatın fikrincə, daha geniş normallaşmanın nəticəsi olaraq infrastruktur sərmayələri, tranzit enerji dəhlizləri, rəqəmsal bağlantılar, dəmir yolu və avtomobil yollarının inteqrasiyası və digər sahələrdə də layihələr icra oluna bilər: "ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycan Respublikasını təşkilata təsisçi üzv dövlət olmağa dəvət edib. Bundan öncə, məhdud sayda dövlət və hökumət başçısının qatıldığı Yaxın Şərq Sülh sammitində dövlət başçımız, məhz ABŞ Prezidentinin şəxsi dəvəti əsasında iştirak edib. Cənubi Qafqaza sülhün gətirilməsi, Azərbaycanın nüfuzunu dünyada qaldırmaqla yanaşı, ölkəmizə ehtiyacın artdığını da şərtləndirir. Müxtəlif ölkələrin liderləri Prezidentimizin tövsiyə və fikirlərini eşitmək üçün ikitərəfli görüşlər keçirirlər. Onlar etiraf edirlər ki, belə həssas bir regionda Azərbaycan ideal xarici siyasət kursu həyata keçirir və öz gündəliyini irəlilədir".

Pərvanə Vəliyeva bildirib ki, Cənubi Qafqaz kimi həssas regionda onillliklərlə davam edən münaqişədən sonra sülhə nail olan Azərbaycan artıq beynəlxalq arenada "ən yaxşı nümunə"yə çevrilib və bu siyasət yüksək mükafatlara layiqdir. Bu ilk növbədə Prezident İlham Əliyevin qətiyyətinin və prinsipiallığının, həmçinin ölkəmizdə olan güclü xalq-iqtidar birliyinin, dövlət başçısına inamın məntiqi nəticəsidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın sülh gündəliyi Davosda da təsdiqləndi

## Bu forum bir daha göstərdi ki, Prezident İlham Əliyev dünyada nüfuzlu lider kimi qəbul olunur

**İsveçrənin Davos şəhəri növbəti dəfə Dünya İqtisadi Forumuna evsahibliyi edir. "Dialoq ruhu" başlığı altında keçirilən builki toplantı bəşəriyyətin üzləşdiyi müasir çağırışlara qarşı ortaq yol xəritəsinin cızılması üçün mühüm platformadır. Builki Davos tribunasında Azərbaycanın səsi daha güclü eşidilir. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasəti nəticəsində rəsmi Bakı artıq forumda, sadəcə, iştirakçı deyil, həm də qlobal layihələrin əsas təşəbbüskarı kimi tanınır.**

### İlham Əliyevin praqmatik siyasəti Ermənistana yeni reallıqları qəbul etdirdi

Forum çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclası Cənubi Qafqaz üçün tarixi bir dönüş nöqtəsi kimi yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin sərgilədiyi qətiyyətli mövqe və Ermənistan tərəfinin bu mövqe ilə tam həmrəylik nümayiş etdirməsi bölgədə rəsmi Bakının diktə etdiyi sülh gündəliyinin şərtsiz qəbul olunduğunu sübut etdi. Prezident moderatorun sualına cavab olaraq çıxışında vurğuladı ki, Azərbaycan beynəlxalq vasitəçilərin nəticəsiz fəaliyyətinə bel bağlamadan ədaləti, beynəlxalq hüququ və öz ərazi bütövlüyünü öz gücü ilə bərpa etdi. Dövlət başçısı bəyan etdi ki, bu gün əldə olunan sülh kənar güclərin deyil, məhz Azərbaycanın yaratdığı yeni reallığın məntiqi nəticəsidir: "Paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir. Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar". Prezident qeyd etdi ki, sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur: "Olduqca mühüm neft məhsullarının birinci hissəsi Azərbaycandan Ermənistana göndərildi və bu, qiymətlərin aşağı düşməsinə imkan yaratdı. Beləliklə, iki və ya üç il əvvəl belə addımı tamamilə təsəvvür etmək olmazdı. Lakin bu gün o, artıq reallıqdır".

Ermənistan Prezidenti Vaaqn Xaçaturyan Azərbaycan liderinin fikirləri ilə tam razı olduğunu söyləyib. Prezident İlham Əliyevin sözlərini təsdiqləyən Xaçaturyan bildirib ki, Ermənistan ilə Azərbaycanın siyasi rəhbərliyi prinsipial razılığa gəlməsəydi, müharibə davam edəcəkdi: "Cənab Prezident İlham Əliyevlə razıyam ki, əks-təqdirdə, bu müharibə davam edəcəkdi". O əlavə edib ki, artıq Ermənistanda insanlar avtomobillərinə Azərbaycan benzinini doldururlar. Ermənistan prezidentinin bunu məmnunluqla qeyd etməsi rəsmi İrəvanın Bakıdan iqtisadi asılılığını və bu əməkdaşlıqdan yeganə xilas yolu kimi yararlanmaq istəyini büruzə verir. Xaçaturyan bildirib ki, əslində, Prezident İlham Əliyevdən sonra nəsə demək çox çətindir. Ermənistan rəhbəri qeyd edib ki, İlham Əliyevin söylədiyi fikirlər onun baxışı və prinsipləri ilə üst-üstə düşür.

"Prezident Əliyevdən sonra nəsə demək çox çətindir" etirafı Ermənistan rəhbərliyinin Azərbaycan Prezidentinin arqumentləri və liderliyi qarşısında alternativsiz qaldığını nümayiş etdirir. Xaçaturyan Azərbaycanın irəli sürdüyü ərazi bütövlüyü, suverenlik və yurisdiksiya prinsiplərini "rəhbər prinsiplər" kimi tanıdıqlarını bir daha təsdiqləyir. Dialoqlar göstərdi ki, artıq Cənubi Qafqazda münaqişə ritorikası yox, Azərbaycanın təşəbbüskarı olduğu logistik və iqtisadi layihələr müzakirə mövzusudur. Ermənistan rəhbərliyi "beynəlxalq ümidlərin boşa çıxdığını" etiraf edərək, yeganə çıxış yolunun Azərbaycan Prezidentinin müəyyən etdiyi prinsiplər çərçivəsində regional inteqrasiyaya qoşulmaq olduğunu dərk edir. Ermənistan rəhbərliyinin sərgilədiyi mövqe və konstruktiv geriçəkilmə sübut etdi ki, İlham Əliyevin praqmatik siyasəti təkcə Azərbaycanın qələbəsini təmin etməyib, həm də Ermənistanı bu yeni və qaçılmaz reallıqla barışmağa və onu dəstəkləməyə sövq edib. Prezident İlham Əliyevin Davos kimi qlobal platformada müəyyən etdiyi "yol xəritəsi"nin qarşı tərəf üçün yeganə çıxış yolu kimi qəbul edilməsi Azərbaycan liderinin intellektual və siyasi üstünlüyünün bariz təzahürü olmaqla yanaşı, dövlətimizin başçısının siyasi iradəsi sayəsində meydana gəlmiş sülh gündəliyinin də qeyd-şərtsiz qəbul olunmasıdır.

### Aleksandar VUÇİÇ: "İlham Əliyev dünyada ən mükəmməl, dahi liderlərdən biridir"

Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və prinsipial siyasət Azərbaycanı həm regional, həm də qlobal miqyasda mühüm güc mərkəzinə çevirib. Azərbaycan liderinin uzaqgörən siyasəti, strateji qərarları və qətiyyətli addımları mütəmadi olaraq Qərb dövlətlərinin rəhbərləri, avropalı liderlər və beynəlxalq ekspertlər tərəfindən çox yüksək qiymətləndirilir. Davosda Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycan lideri İlham Əliyev haqqında söylədikləri bu örnəklərdən, sadəcə, biridir. Aleksandar Vuçiç hər zaman Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini, strateji zəkasını və Azərbaycanın keçdiyi inkişaf yolunu xüsusi rəğbətlə qeyd edib. Dəfələrlə vurğulayıb ki, hazırkı qlobal siyasi böhran və liderlik qıtlığı dövründə İlham Əliyev nadir şəxsiyyətlərdəndir.

Vuçiç bəyan edib ki, Prezident İlham Əliyev həqiqətən də müasir dünyada ən mükəmməl, dahi liderlərdən biridir və bu, çox əlamətdar hadisədir: "Bunun çox böyük təsir effekti var və bu, danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük. İndiki dövrdə belə bir lideri görmək çox nadirdir". Vuçiç Prezident İlham Əliyevi şəxsi dostu hesab etdiyini söyləyib. Serbiya Prezidenti Aleksandar Vuçiçin cənab Prezidenti "müasir dünyanın dahi lideri" adlandırması bu uzaqgörən siyasətin geniş coğrafiyada necə yüksək qiymətləndirildiyinin bariz təzahürüdür. Avropalı liderlərin Azərbaycan Prezidentinə olan münasibəti, sadəcə, diplomatik etiket deyil, real və güclü bir liderliyin, verilən sözə sadiqliyin və strateji intellektin rəsmi etirafıdır. Bu həm də İlham Əliyevin şəxsi nüfuzunun Azərbaycanın hüdudlarını aşdığını göstərir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# *Davos 2026:* Azərbaycan Dövlət Neft Fondu və "Brookfield" infrastruktur sahəsində strateji əməkdaşlığı möhkəmləndirir

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə aktivlərin idarə olunması üzrə ixtisaslaşmış dünyanın ən iri şirkətlərindən biri olan "Brookfield Asset Management" arasında niyyətlər haqqında protokolun imzalanması təkcə formal addım deyil, konkret investisiya istiqamətlərinə və strateji prioritetlərin üst-üstə düşməsinə əsaslanan praqmatik və uzunmüddətli əməkdaşlığın qurulmasına qarşılıqlı marağın ifadəsidir.**




AZƏRTAC xəbər verir ki, tərəflər arasında əməkdaşlığın perspektivləri Azərbaycan iqtisadiyyatının əsas inkişaf istiqamətləri ilə birbaşa bağlıdır.

Tərəfdaşlıq çərçivəsində enerji keçidi sahəsində, o cümlədən enerji saxlama sistemləri, bərpaolunan enerji, eləcə də rəqəmsal infrastruktur üzrə investisiya imkanlarının öyrənilməsi planlaşdırılır. Bu istiqamətlər həm Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi üzrə uzunmüddətli strategiyasına, həm də dünyanın müxtəlif regionlarında energetika, infrastruktur və rəqəmsal platformalar sahəsində iri layihələr həyata keçirən "Brookfield" şirkətinin investisiya profilinə uyğundur. Bu sektorlar üzrə potensial birgə layihələr ölkənin infrastrukturunun modernləşdirilməsində və qlobal iqtisadi və enerji çağırışlarına davamlılığının artırılmasında mühüm rol oynaya bilər.

Azərbaycan üçün "Brookfield Asset Management" ilə əməkdaşlıq uzunmüddətli institusional kapitalın cəlb edilməsi və ARDNF-in investisiya portfelinin diversifikasiyası baxımından praktiki əhəmiyyət daşıyır. Real aktivlərə investisiyalar ənənəvi maliyyə alətlərindən asılılığın azaldılmasına imkan verir və infrastrukturun, energetikanın və müasir texnologiyaların inkişafına əsaslanan dayanıqlı iqtisadi artım üçün baza yaradır.

"Brookfield Asset Management" üçün Azərbaycanla tərəfdaşlıq artan investisiya potensialına və sabit makroiqtisadi mühitə malik bazarda layihələrdə iştirak imkanları açır. Ölkənin suveren fondu ilə birgə fəaliyyət layihələrin institusional etibarlılığını gücləndirir və şirkətə infrastruktur və enerji aktivlərinin uzunmüddətli idarə edilməsində qlobal təcrübəsini tətbiq etməyə şərait yaradır.

Xatırladaq ki, yanvarın 21-də Prezident İlham Əliyev Davosda "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teskey ilə görüşüb. "Brookfield Asset Management"in real aktivlərə yönəlmiş qlobal investisiya fəaliyyəti nəzərə alınmaqla, görüş zamanı ölkəmizdə maraq doğuran investisiya sahələri və Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə əməkdaşlıq çərçivəsində mümkün layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində ARDNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlıq üzrə niyyətlər haqqında protokol imzalanıb. Sənəd mövcud strateji münasibətlərin institusional səviyyədə daha da dərinləşdirilməsini, fondun qlobal miqyasda nüfuzlu investisiya platformalarına çıxış imkanlarının genişləndirilməsini nəzərdə tutur. Bundan əlavə, 3-4 il ərzində ARDNF tərəfindən "Brookfield" tərəfindən idarə olunan fondlara və birgə investisiya layihələrinə 1,4 milyard ABŞ dollarınadək investisiya yatırılması imkanlarının qiymətləndirilməsi planlaşdırılır.




# Müharibədə qalib gəlmək tarix yazmaq, sülhdə qalib gəlmək tarixdə qalmaqdır

## Beynəlxalq "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülən Prezident İlham Əliyev hər iki tarixin müəllifidir

**Böyük güclərin toqquşan maraqları səbəbindən bu gün bir çox ölkənin mürəkkəb çağırışlarla üz-üzə qaldıqları müasir dünyamızda Azərbaycan bütün çətinliklərə baxmayaraq, strateji inkişaf yoluna davam edir, qazandığı nailiyyətləri möhkəmləndirərək onların sırasını daha da genişləndirir. Hazırda ən mühüm çağırışlarından biri də hərbi-siyasi münaqişələrlə yanaşı, eyni zamanda xalqlar, mədəniyyətlər, dinlər arasında dərinləşən fərqli baxışlar mühitidir. Qloballaşma sürətlənərək genişləndikcə insanlıq üçün əsas sualın aktuallığı da artır: fərqliliklər yeni qarşıdurmaların mənbəyidir, yoxsa onlar dialoq və əməkdaşlıq üçün zəmin yaradacaq mühüm amildir?**

Bu kontekstdə Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdiyi "Zayed İnsan Qardaşlığı Mükafatı" tarixi əhəmiyyət daşıyır. Sözügedən mükafat təkcə Azərbaycan Prezidentinin fəaliyyətinə verilən ali qiymət deyil, eyni zamanda ölkəmizin son illər yürütdüyü sülh, dialoq və humanizm siyasətinə beynəlxalq səviyyədə dəstəyin təzahürüdür.

Şeyx Zayed Fondunun mükafatı Prezident İlham Əliyevin ardıcıl şəkildə formalaşdıraraq həyata keçirdiyi sülh gündəliyinin artıq regional çərçivələri aşaraq qlobal mənəvi platformaya çevrildiyini nümayiş etdirir.

### Humanizm fəlsəfəsindən qaynaqlanan qlobal missiya

Əvvəlcə Şeyx Zayed Fondu və bu fondun təsis etdiyi "Zayed İnsan Qardaşlığı Mükafatı" haqqında qısaca məlumat verək. Fond Birləşmiş Ərəb Əmirliklərinin banisi və ilk prezidenti, ərəb dünyasının böyük dövlət xadimi Şeyx Zayed bin Sultan Əl Nəhyanın ideyaları əsasında yaradılıb. Fondun fəlsəfəsinin mərkəzində insana xidmət, mərhəmət, tolerantlıq, mədəniyyətlərarası harmoniya dayanır.

Bu da Şeyx Zayedin siyasi irsindən irəli gəlir. Onun irsi təkcə dövlət quruculuğu ilə məhdudlaşmır, BƏƏ lideri millətindən, dinindən, irqindən asılı olmayaraq, insanı ali dəyər hesab edir. Məhz bu yanaşma sonradan fondun fəaliyyət konsepsiyasına çevrildi. Hazırda Şeyx Zayed Fondu dünyanın onlarca ölkəsində humanitar yardım proqramları, təhsil və səhiyyə layihələri həyata keçirir, dinlərarası dialoq təşəbbüslərini reallaşdırır, münaqişədən zərər çəkmiş icmalara dəstək verir, sülh və birgəyaşayış mədəniyyətini təşviq edir.

Fondun ən ali təşəbbüslərindən biri də "Zayed İnsan Qardaşlığı Mükafatı"dır. Bu mükafat ilk növbədə liderliyə verilən ən yüksək qiymətdir. "Zayed İnsan Qardaşlığı Mükafatı" siyasi vəzifədən daha çox humanist mövqe və qlobal sülhə real töhfələrə görə təqdim olunur. Çünki mükafatın əsas qayəsi bütün dünyada qarşıdurma yox, dialoqu, nifrət yox, anlayışı, müharibə yox, sülhü təşviq edən liderləri, təşəbbüsləri ön plana çıxarmaqdır.

Azərbaycan Prezidentinin bu ali mükafata layiq görülməsi də əsla təsadüfi deyil. Bu, konkret siyasi kursun - Azərbaycanın sülhə əsaslanan yeni xarici siyasət fəlsəfəsinin tanınmasıdır.

### Prezident İlham Əliyevin sülh gündəliyi

Vətən müharibəsindəki tarixi qələbəmizdən, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionumuzda dayanıqlı sülhün əldə olunması, qarşılıqlı əməkdaşlıq və inkişaf mühitinin təmin edilməsi Prezident İlham Əliyevin siyasi fəaliyyətində əsas istiqamətlərdən biri kimi nəzərə çarpır. Azərbaycan 30 ilə yaxın davam edən işğal dövrünə ordumuzun gücü ilə son qoyaraq münaqişə tərəfi Ermənistanın kapitulyasiyasına, torpaqlarımızın azadlığına nail olduqdan sonra cənab İlham Əliyevin praktiki addımlarında intiqam hissi, ağrı-acılı keçmişimiz yox, məhz aydın gələcək, sabitlik, regionumuzun təhlükəsizliyi əsas yer tutmağa başladı. Çünki tarixi Zəfərimiz Azərbaycanın üzərinə həm də tarixi bir missiya qoymuşdu: bu qələbənin yaratdığı reallıqlara daha ali hisslərlə, daha strateji baxışla nəzər salmaq, onu revanş vasitəsi kimi yox, regionun xoşbəxt gələcəyi üçün mühüm bir fürsət kimi dəyərləndirmək. Prezident İlham Əliyev tarixi Zəfərimizlə yaratdığımız reallıqlara məhz belə yanaşdı, ilk gündən bəyan etdi ki, Azərbaycanın məqsədi regionda dayanıqlı sülhün təmin olunmasıdır.

Bu yanaşma ilk baxışdan sadə görünsə də, əslində, olduqca mürəkkəb idi. Nəzərə alınmalıdır ki, sülh prosesi yalnız bir tərəfin niyyətindən asılı olmur, qarşı tərəfin də siyasi yetkinliyi və mövqeyi ilə ölçülür. Azərbaycanın timsalında dünyada çox nadir və təqdir edilməli nümunələrdən biri baş verdi. Qalib tərəf olmasına rəğmən sülh təşəbbüsü də məhz Azərbaycandan gəldi. Ölkəmiz dayanıqlı, hər iki tərəfi tam qane edən sülh şəraitinin əldə olunması üçün qarşı tərəfin də rəyinə, mövqeyinə təmkin göstərdi, qarşılıqlı şərtlərin birgə müzakirəsinə, detalların dəqiqləşdirilməsinə şərait yaratdı. Bu, qalib tərəfin diktəsi deyil, qalibin məsuliyyətli davranış modeli idi. Azərbaycan sülh müqaviləsinin təşəbbüskarı kimi beş baza prinsipini irəli sürdü, regionda yeni siyasi reallıqların hüquqi müstəvidə təsbit olunmasını təklif etdi.

Sülh yolunda ən böyük maneə isə Ermənistanın daxilindəki revanşist qüvvələr oldu. Bəzi siyasi dairələr müharibədən dərs çıxarmaq əvəzinə yenidən hakimiyyəti ələ keçirib, Ermənistanı istədikləri kimi çapıb-talamaqdan ötrü cəmiyyəti saxta miflərlə, xəstə xülyalarla, əsassız iddialarla, düşmənçilik ritorikası ilə zəhərləməyə çalışdılar. Bu revanşizm meyilləri təkcə Ermənistan üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün təhlükə doğururdu, hər bir revanşist çağırış regionu yenidən qarşıdurma riskinə sürükləyirdi.

Eyni zamanda bəzi xarici mərkəzlərin də bu meyilləri dolayısı ilə dəstəkləməsi, prosesləri uzatmaq cəhdləri müşahidə olunurdu. Məqsəd aydın idi - sülhü ləngitmək, qeyri-müəyyənliyi qorumaq və regionu daimi gərginlik zonasında saxlayaraq həmin ərazilərin xalqları üçün öz təhlükəli oyunlarını davam etdirmək.

### Qətiyyətli siyasət, sülhün alternativsizliyi

Belə bir şəraitdə Prezident İlham Əliyevin strateji siyasi xətti mövcud vəziyyəti müsbətə doğru dəyişərək bütün məkrli niyyətlərin qarşısını aldı. Dövlətimizin başçısı dəfələrlə bəyan etdi ki, sülhün alternativi yoxdur və Azərbaycan bu prosesi sonsuz gözləmə predmetinə çevirməyəcək. Ölkəmiz öz mövqeyini təkcə diplomatik masada deyil, real gücə və beynəlxalq hüquqa əsaslanaraq ortaya qoydu. Hər bir təxribatın qarşısı vaxtında alındı, hər bir təzyiq cəhdi siyasi iradə ilə neytrallaşdırıldı.

Bu mərhələdə Azərbaycanın əsas üstünlüyü addımlarının strateji ardıcıllığı oldu. Prezident İlham Əliyev bir addım belə geri çəkilmədən prinsipial mövqeyini qorudu - ya sülh olacaq, ya da regionda yeni status-kvo yalnız Azərbaycanın iradəsi ilə formalaşacaq.

Əsrlərin təcrübəsi göstərir ki, müharibəni udmaq hələ tam qələbə deyil, əsl qələbə əlverişli şərtlərlə sülhün əldə olunması ilə təsdiqlənir. Çünki müharibədə silahlar danışırsa, sülhdə iradə, siyasi müdriklik və lider məsuliyyəti öz sözünü deyir. Bu mənada müasir Azərbaycan tarixinin əsas həqiqətlərindən biri aydındır: müharibədə qalib gələn tərəf sülhdə də qalibdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təkcə 44 günlük Vətən müharibəsində deyil, müharibədən sonrakı mürəkkəb geosiyasi mərhələdə də öz qələbəsini qorumağı və onu siyasi nəticəyə çevirməyi bacardı.

Postmünaqişə dövrünün ən mühüm nəticələrindən biri Azərbaycanın proseslərin obyektinə deyil, subyektinə çevrilməsi oldu. Regionda baş verən hadisələrin dəyərləndirilməsi rəsmi Bakının mövqeyi nəzərə alınmadan mümkünsüz hala gəldi. Sülh gündəliyinin məzmununu məhz Azərbaycan müəyyənləşdirdi, əsas şərtləri Azərbaycan irəli sürdü, vaxt çərçivəsini Azərbaycan formalaşdırdı.

Bu, diplomatik üstünlüyün açıq göstəricisi idi.

### Sülh prosesinin Vaşinqton mərhələsi

Ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalar uzun və mürəkkəb prosesin məntiqi yekunu kimi tarixə düşdü. Bu mərhələ faktiki olaraq münaqişə səhifəsinin bağlanması, keçmişin deyil, gələcəyin gündəliyinə keçid demək idi. Vaşinqtonda - Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti ilə Ermənistanın Baş naziri arasında sülh sazişinin paraflanması, bu görüşdə verilən tarixi qərarlar bir daha göstərdi ki, sülh yalnız kənar vasitəçilərin deyil, güclü siyasi iradəyə malik liderlərin iştirakı ilə mümkün olur. Bu, Prezident İlham Əliyevin sülh strategiyasının beynəlxalq müstəvidə də qəbul edildiyini təsdiqlədi.

Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarını ehtiva edən məqamlar Ermənistanın konstitusiyasından çıxarılan kimi artıq yekun sülh müqaviləsinin imzalanmasına heç bir maneə qalmayacaq. Vaşinqton görüşündən sonra regionda kommunikasiyaların açılması istiqamətində də ardıcıl işlər gedir, regional iqtisadi inteqrasiya çağırışları əməli nəticələrdə özünü göstərir. Artıq Azərbaycan öz ərazisindən Ermənistana taxıl məhsullarının tranzitinə şərait yaradıb. Həmçinin Azərbaycanın neft məhsullarının ilk partiyaları Ermənistana göndərilib. Ən mühümü, təmas xəttində atəş səsləri eşidilmir. Bütün bunlar Prezident İlham Əliyevin sülh gündəliyinin ilkin mühüm nailiyyətləridir. Məhz bu siyasət nəticəsində Azərbaycan təkcə hərbi və siyasi güc deyil, məsuliyyətli qalib dövlət modeli ilə təqdim olunur. Regionun təhlükəsizliyinə, gələcək inkişafına görə böyük bir missiyanı üzərinə götürmüş lider ölkə kimi öz missiyasını şərəflə yerinə yetirir.

Azərbaycan ilk növbədə multikultural və dini tolerantlıq modelini qoruyur, münaqişədən sonra Qarabağda, Şərqi Zəngəzurda bərpa və reinteqrasiya proseslərini ardıcıl şəkildə davam etdirir.

### Münaqişələrin həllinin Azərbaycan modeli

Bu gün Azərbaycanın sülh modeli artıq təkcə regional hadisə olmayıb, dünyadakı digər münaqişələrin həlli üzrə də nümunəvi təcrübə kimi diqqət çəkir. Azərbaycan modeli beynəlxalq hüquqa əsaslanan ardıcıl, prinsipial mövqeyi, hərbi qələbənin siyasi nəticəyə çevrilməsini, qalib tərəfin sülh təşəbbüskarı olması faktını, revanşizmin vaxtında neytrallaşdırılması əzmini, sabitlik və inkişafın prioritet seçilməsi və s. bu kimi əhəmiyyətli amilləri özündə ehtiva edərək mütləq qələbənin tam formulu kimi görünür.

Bu model belə bir həqiqəti də sübuta yetirir ki, müharibədə qalib gəlmək tarix yazmaqdır, sülhdə qalib gəlmək isə tarixdə qalmaqdır. Azərbaycan Prezidenti İlham Əliyev hər iki mərhələnin Qalib Lideridir. Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə öz haqqını bərpa etdi, nəinki özünün, ümumən Cənubi Qafqaz regionunun da gələcəyini qurmağa başladı. Bu mənada Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş qələbə təkcə Azərbaycanın deyil, həmin bölgənin sabahı naminə qazanılmış qələbədir, Azərbaycan Prezidentinin sülh gündəliyi regionumuzun xoşbəxtliyi, sabitlik və daim inkişafda olması üçün addım-addım irəli aparılan prosesdir.

Birləşmiş Ərəb Əmirliklərinin Şeyx Zayed Fondunun Azərbaycan Prezidentinə təqdim etdiyi "Zayed İnsan Qardaşlığı Mükafatı" isə ölkəmizin sülh təşəbbüslərinin legitimliyini artırır, cənab İlham Əliyevin regional liderlik statusunu daha da möhkəmləndirir, ölkəmizin beynəlxalq humanitar imicinə yeni məzmun qazandırır, dövlətimizin islam dünyası ilə mənəvi bağlarını gücləndirir.

Bu mükafat gücə yox, məsuliyyətə, emosional qərarlara yox, müdrikliyə, müharibəyə yox, sülhə verilən beynəlxalq qiymətdir. Ona görə də bu mükafat son dərəcə dəyərlidir və mühüm tarixi əhəmiyyət daşıyır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin sülh diplomatiyası beynəlxalq səviyyədə mükəmməl nümunədir

## Dövlətimizin başçısının "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi bunu bir daha təsdiqləyir

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən elan edilən 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qalibləri arasında Azərbaycan Prezidenti İlham Əliyev də yer alır. Cənab Prezident bu mötəbər mükafata sülhpərvər və möhtəşəm sülh quruculuğu xidmətlərinə görə layiq görülüb. Dövlətimizin başçısı Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyduğuna, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına nail olduğuna görə bu ali mükafatla təltif olunub.**

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər komitəsinin üzvü və mükafatın baş katibi Məhəmməd Əbdülsəlamın vurğuladığı kimi, komitə Ermənistan və Azərbaycan arasında tarixi sülh sazişinin paraflanmasına xüsusi önəm verib. Dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirən həmin saziş qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyətdir. Bu nailiyyətlərin müəllifi olan İlham Əliyevin əvəzolunmaz xidmətləri isə qlobal sülh üçün yaxşı nümunədir.



Azərbaycan Prezidentinin sülh diplomatiyası sahəsindəki misilsiz nailiyyətləri birmənalı olaraq onu ehtiva edir ki, müasir dünya nizamında heç bir beynəlxalq təşkilatın, siyasi-hərbi dəstəyin olmadığı şəraitdə təkbaşına hərb meydanında sarsılmaz qələbə qazanmaq və BMT-nin kağız üzərində qalmış qətnamələrini icra etmək, bu hərbi-siyasi legitim aktını dayanıqlı sülhə çevirmək hər liderə nəsib olmur. Eyni zamanda hərbi qüdrətin təcəssümü olan siyasi zəfərin diplomatik uğurunu qısa zamanda təmin etmək olduqca çətindir.

Ermənistanın beynəlxalq güclərin siyasi dəstəyi sayəsində 30 il davam etdirdiyi işğala cəmi 44 gündə son qoymaq və Vətən müharibəsinin sonuncu akkordu olan 2023-cü ilin antiterror əməliyyatını 23 saata başa çatdırmaq əsl Ali Sərkərdənin, Siyasi Liderin dəmir iradəsi, son ana qədər güvəndiyi nümunəvi peşəkar Silahlı Qüvvələrin qalibiyyət əzmi sayəsində mümkün olduğundan bu Zəfər strategiyası, Qələbə doktrinası beş ildir ki, dünya hərb məktəblərinin, siyasət akademiyalarının tədris və təlim proqramlarında yer alır.

Azərbaycan beynəlxalq aləmə digər bir gerçəkliyi də təqdim etdi, öz torpaqlarını azadlığa qovuşdurmaqla həm də dünyada yeni geosiyasi tarazlıq modelini - haqqın, ədalətin, ləyaqətin düsturunu formalaşdırdı. Hərbi qüdrətinin fonunda və bir sıra hallarda müxtəlif qüvvələrin antisülh bəyanatları şəraitində regionda əbədi sülh carçısı olduğunu nümayiş etdirərək bunu praktiki əməli ilə təsdiqlədi, bölgədə dinc və birgəyaşayışın, tolerantlığın, kin və nifrətdən uzaq mülayim qonşuluğun modelini yaratdı.

Kənar təsirlərə və Ermənistandakı revanşist qüvvələrin təxribatlarına rəğmən təmkinlə, əsl sülh niyyəti və alicənab yanaşması ilə qarşı tərəfi sülh masasında əyləşdirdi, beynəlxalq alyansın böyük etimadla qarşıladığı uzunmüddətli sülhün təməlini qoydu. Bütün bu xüsusatlar müqabilində beynəlxalq hüquq Azərbaycanın yaratdığı siyasi reallığı əxz etdi, tamamilə ədalətə söykənən sülh gündəliyini nümunəvi format kimi təsdiqləməyə məcbur oldu.

Azərbaycan lideri yorulmaz fədakarlığı, heyrətamiz diplomatiyası ilə bütün region, yaxın və uzaq coğrafiyaları birgə əməkdaşlıq, həmrəylik körpüsündə daha sıx birləşdirdi, enerji, nəqliyyat, logistika, kommunikasiya ailəsini möhkəmləndirdi. Bu təşəbbüskarlıq arxitekturasının növbəti təməli 2025-ci ilin avqust ayında Vaşinqtonda qoyuldu, sülh sazişinin paraflanması isə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam və şərtsiz tanıması və geri dönməz sülh qapısına ayaq qoyması demək idi.

Azərbaycanın irəlilətdiyi sülh prosesi Ermənistan üçün də nicat qapılarını açdı. Son yarım ildə Qazaxıstan və Rusiyadan Azərbaycan üzərindən bu ölkəyə logistik axının başlanması, digər ölkələrlə inteqrasiyanın qurulması, eləcə də Azərbaycanın özünün Ermənistana yanacaq satması bölgədə etimad habının əsasını qoydu, uzunömürlü sülhə inamı gücləndirdi.

Bakının xoşməramlı şərtləri və sülh proqramı bölgədəki bütün ölkələrin və xalqların rifahına xidmət edən yeni iqtisadi-humanitar platforma kimi təqdir olunur. Azərbaycan Prezidentinin başlatdığı quruculuq və bərpa prosesi Cənubi Qafqazın nəqliyyat və logistika xəritəsini formalaşdırması, yeni iqtisadi bağlantılar üçün əlavə fürsətlər yaradır. Bu mütərəqqi yanaşma və humanizm səyləri bir daha dövlətimizin yalnız hərbi qüdrətinin deyil, həm də strateji baxışının və beynəlxalq təhlükəsizliyə sadiqliyinin dünyaya nümayişi deməkdir.

Bütün bu faktorlar və digər mühüm amillər Prezident İlham Əliyevin layiqincə yerinə yetirdiyi mötəbər sülh və humanitar quruculuq missiyasının müasir dünya siyasi salnaməsində öz tarixi dəyərini aldığını təsdiqləyir.

Beləliklə, bu tarixi gerçəkliyi dəyərləndirən Şeyx Zayed Fondunun layiq gördüyü "Zayed İnsan Qardaşlığı Mükafatı"nın cənab Prezidentə verilməsi də yuxarıda vurğuladığımız ardıcıl və davamlı missiyanın tərənnümü və təcəssümüdür. Bu mükafat diplomatik uğurun simvolu olmaqla yanaşı, eyni zamanda Azərbaycanın ali rəhbərinin qlobal təsisatlara, beynəlxalq siyasi auditoriyaya qəbul etdirdiyi sülh gündəliyinin gerçəkliyi - dünyanın barışdığı sülh manifestidir.

Xatırlatma üçün qeyd etməliyik ki, BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilmiş eyniadlı fond qlobal miqyasda humanitar əməkdaşlıq, sülh və həmrəylik rəmzi kimi qəbul edilir. Zayed Fondunun bir neçə missiyası olsa da, əsas ana məramı və fəlsəfəsi dünyada humanizm, dözümlülük və xalqlararası sülhün təşviqi, bu istiqamətdə dayanıqlı təşəbbüslərə dəstəyidir.

Fondun bu dəyərlərə olan hörmət və etibarının, yüksək etimadının təcəssümü və təltifi "Zayed İnsan Qardaşlığı Mükafatı"dır. 2019-cu ildən 19 ölkədən 19 şəxsə təqdim olunan bu nüfuzlu beynəlxalq mükafata layiq görülən dövlət və ictimai-siyasi xadimlərin sırasında Roma Papası Fransisk, BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və xanımı kraliça Raniyə Əl Abdullah, Misirin Əl-Əzhər dini qurumunun baş imamı Əhməd Əl-Tayyib, Barbadosun Baş naziri Mia Amor Mottley və digər nüfuzlu şəxslər var.

Bu baxımdan Azərbaycan Prezidentinin sadalanan liderlərin və dünya xadimlərinin cərgəsində yer alması, həqiqətən də, qürurverici amil olmaqla bərabər, möhtəşəm uğur kimi qəbul edilir.

Mükafatın 2026-cı il üçün münsiflər komitəsində Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişel, Afrika İttifaqı Komissiyasının sabiq sədri Mussa Faki Mahamat, UNICEF-in icraçı direktoru Ketrin Rassel, Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Səidə Mirziyoyeva, Müqəddəs Taxt-Tac nəzdində Mədəniyyət və Təhsil Dikasteriyasının prefekti Kardinal Xose Tolentino de Mendonsa və "Zayed İnsan Qardaşlığı Mükafatı"nın baş katibi Məhəmməd Əbdülsəlam yer alıblar.

***Ramid NAMAZOV,***
***Milli Məclisin deputatı***

# Davosdan dünyaya verilən Azərbaycan mesajları

**Azərbaycan yüksək iqtisadi göstəriciləri, həyata keçirdiyi qlobal layihələri, qazandığı etibarlı tərəfdaş imici sayəsində hər il Davos forumunun da diqqət mərkəzində olur. Tədbir iştirakçılarından dünyaşöhrətli şirkətlərin bir çoxunun rəhbəri Azərbaycan Prezidenti ilə görüşmək, ölkəmizlə əməkdaşlığı davam etdirmək, yaxud yeni əlaqələr qurmaq barədə müzakirələr aparmaq istəyirlər. Bu dəfə də belədir.**



## Dünyanın tanınmış şirkətləri ARDNF ilə əlaqələri genişləndirmək istəyirlər

### Həmin şirkətlərin rəhbərlərinin Prezident İlham Əliyevlə görüşlərində əsasən bu məsələ müzakirə mövzusu oldu

Prezident İlham Əliyev Davosda Amerika Birləşmiş Ştatlarının "J.P.Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon ilə görüşüb. Əvvəla qeyd edək ki, bu şirkət ABŞ-nin aparıcı qlobal maliyyə institutlarından biridir. Yaşı 200-dən çox olan "J.P. Morgan" hazırda həm də dünyanın ən böyük və şaxələndirilmiş maliyyə institutları sırasında dayanır. İdarə etdiyi aktivlərin həcmi isə 4 trilyon dollardan çoxdur. Şirkət bankçılıq, investisiya və aktivlərin idarə edilməsi sahələrində fəaliyyət göstərir.

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və ölkəmizin digər qurumları ilə "J.P.Morgan" şirkəti arasında əməkdaşlıq əlaqələri uzunmüddətli xarakter daşıyır və qarşılıqlı etimada əsaslanır. Sözügedən görüşdə dövlətimizin başçısı bunu bir daha vurğulayıb.

Ceymi Daymon Azərbaycanın beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyini yüksək qiymətləndirdiyini, ölkəmizdə sabit investisiya mühitinin olduğunu qeyd edib. Rəhbərlik etdiyi şirkətin ARDNF ilə uzunmüddətli əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini, bu tərəfdaşlığın möhkəm institusional əsaslara söykəndiyini və bunun daha da dərinləşdirilməsində maraqlı olduqlarını bildirib. O, həmçinin Azərbaycanın ardıcıl maliyyə siyasəti həyata keçirdiyini deyib.

Söhbət zamanı bu şirkətin SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) fəaliyyətinin maliyyələşməsi sahəsində çoxillik əməkdaşlığı da məmnunluqla vurğulanıb. "J.P.Morgan"la SOCAR arasında tərəfdaşlığın genişləndirilməsi ilə əlaqədar gələcək layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin ölkəmiz tərəfindən ABŞ-nin enerji sektoruna investisiya qoyuluşu məqsədilə "J.P.Morgan" şirkətinin cəlb edilməsi, qlobal maliyyə bazarlarında mövcud vəziyyət, beynəlxalq investisiya mühiti və makroiqtisadi çağırışlar ətrafında fikir mübadiləsi aparılıb. Qlobal iqtisadi proseslər fonunda institusional investorlar üçün formalaşan imkanlar və uzunmüddətli əməkdaşlıq perspektivləri müzakirə olunub.

ARDNF-nin əməkdaşlıq etdiyi şirkətlərdən biri də aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən olan "BlackRock"dır.

Prezident İlham Əliyev Davosda "BlackRock"un baş icraçı direktoru Larri Fink və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə də görüşüb. Mövcud əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin Azərbaycanda infrastruktur sahəsində potensial investisiya imkanları müzakirə olunub. Dövlətimizin başçısının Davosa səfəri çərçivəsində Dövlət Neft Fondu ilə "BlackRock" və bu şirkətin tərkibinə daxil olan, qlobal infrastruktur investisiya idarəetmə şirkəti olan "Global Infrastructure Partners" arasında uzunmüddətli əməkdaşlığa dair niyyət protokolunun imzalanmasının əhəmiyyətinə toxunulub.

Qeyd edək ki, bu sənəd mövcud əməkdaşlığın uzunmüddətli, strateji çərçivədə davam etdirilməsini, eləcə də beynəlxalq infrastruktur investisiya platforması çərçivəsində Azərbaycanda potensial investisiya imkanlarının araşdırılmasını nəzərdə tutur. Niyyət protokoluna əsasən, ARDNF-nin GIP tərəfindən idarə olunan infrastruktur fondlarına və birgə investisiya imkanlarına 3-4 il müddətində 1,5 milyard dollarıdək kapital qoyuluşu imkanlarının nəzərdən keçirilməsi planlaşdırılır. Əməkdaşlıq çərçivəsində Azərbaycanda regional bulud və süni intellekt tələbatına xidmət edən məlumat mərkəzləri və infrastruktur üzrə potensial investisiya imkanlarının dəyərləndirilməsi, hava limanı infrastrukturu sahəsində "Global Infrastructure Partners"in əməliyyat və idarəetmə təcrübəsi nəzərə alınmaqla tərəfdaşlığın perspektivlərinin araşdırılması nəzərdə tutulur.

Görüşün sonunda Prezident İlham Əliyevin iştirakı ilə niyyət protokolunun mübadiləsi mərasimi olub. Bu sənəd ARDNF-nin qlobal investisiya ekosistemində mövqeyinin möhkəmləndirilməsinə, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın daha da genişləndirilməsinə və Azərbaycanın strateji əhəmiyyətli infrastruktur sahələrində uzunmüddətli investisiya imkanlarının formalaşdırılmasına töhfə vermək məqsədi daşıyır.

Prezident İlham Əliyevin "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teski ilə Davosdakı görüşündə bu şirkətin real aktivlərə yönəlmiş qlobal investisiya fəaliyyəti nəzərə alınmaqla, ARDNF ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə investisiya baxımından maraq doğuran sahələr və mümkün layihələr barədə fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində ARDNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolu da imzalanb. Sənəd mövcud strateji münasibətlərin institusional əsasda daha da dərinləşdirilməsini, fondun qlobal miqyasda nüfuzlu investisiya platformalarına çıxış imkanlarının genişləndirilməsini nəzərdə tutur. Eyni zamanda ARDNF-nin "Brookfield" tərəfindən idarə olunan fondlara və birgə investisiya layihələrinə 3-4 il müddətində ümumilikdə 1,4 milyard dollaradək kapital qoyuluşu imkanlarının dəyərləndirilməsi planlaşdırılır.

Əməkdaşlıq çərçivəsində Azərbaycanda investisiya potensialı olan əsas sahələr üzrə də imkanların araşdırılması nəzərdə tutulur. Bunlar enerji keçidi və saxlancı, bərpaolunan enerji, rəqəmsal infrastruktur və digər sahələrdir.

Xatırladaq ki, ARDNF 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyevin fərmanına əsasən təsis edilib. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-nin Əsasnaməsi təsdiq olunub. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edilib və qurum əməli fəaliyyətə başlayıb. ARDNF şəffaf fəaliyyətinə görə dünyanın ən şəffaf suveren fondları sırasında özünə yer alıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Davos İqtisadi Forumu 55 ildir qlobal əməkdaşlıq üçün ən nüfuzlu beynəlxalq platformadır

**Müasir dünyada qlobal iqtisadiyyatın, siyasətin və texnologiyanın inkişaf istiqamətlərini müəyyənləşdirən əsas platformalardan biri Davos İqtisadi Forumudur (DİF). Hər il İsveçrənin Davos şəhərində keçirilən bu forum dövlət və hökumət başçılarını, nüfuzlu iqtisadçıları, beynəlxalq təşkilatların rəhbərlərini və aparıcı şirkətlərin təmsilçilərini bir araya gətirir. Forumun digər beynəlxalq tədbirlərdən əsas üstünlüyü onun formal diplomatik çərçivələrdən kənarda, açıq dialoq mühitində fəaliyyət göstərməsidir.**

DİF-in bünövrəsi 1971-ci ildə isveçrəli biznesmen, professor Klaus Şvabın təşəbbüsü ilə qoyulub. Həmin il İsveçrənin Davos şəhərində Avropanın 450 aparıcı şirkətinin rəhbərləri toplaşaraq dünya iqtisadiyyatının gələcək inkişaf perspektivlərini müzakirə edib və ümumi strategiyaların müəyyənləşdirilməsi üçün simpozium keçiriblər. Bu görüş sonradan beynəlxalq miqyaslı mühüm platformaya çevrilib. Bir müddət sonra Davos görüşləri təkcə biznes dairələri ilə məhdudlaşmayıb, müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələrini, nüfuzlu siyasətçiləri və ictimai xadimləri də öz ətrafında birləşdirməyə başlayıb. Forumun artan beynəlxalq nüfuzu nəticəsində 1987-ci ildən etibarən o, rəsmi olaraq Dünya İqtisadi Forumu adlandırılıb.

Ənənəvi olaraq hər il keçirilən DİF tədbirlərinin əsas məqsədi nümayəndələri bir masa arxasında toplayaraq, yeni beynəlxalq iqtisadi layihələrin müzakirəsi və həyata keçirilməsi üçün zəmin yaratmaqdır. 1979-cu ildən etibarən Davos forumunun mütəxəssisləri tərəfindən "dövlətlərin qlobal rəqabətə davamlılığı"na dair məruzələr hazırlanır. Bu hesabatlarda dünyanın 100-dən çox ölkəsi potensial inkişaf imkanları və rəqabətədavamlılıq indeksləri əsasında qiymətləndirilir ki, bu da qlobal iqtisadi mənzərənin formalaşmasında mühüm rol oynayır.

1995-ci il yanvarın 27-31-də Ulu Öndər Heydər Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək məqsədilə İsveçrənin Davos şəhərinə işgüzar səfər edib. Azərbaycanın forumda ilk dəfə təmsil olunması münasibətilə tədbir çərçivəsində ölkəmizə həsr edilmiş xüsusi görüş keçirilib. Həmin görüşdə Heydər Əliyev Azərbaycan haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf perspektivləri barədə iştirakçılara ətraflı məlumat verib. Ümummilli Lider Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olduğunu vurğulayaraq, bu resurslardan qarşılıqlı maraqlar və beynəlxalq əməkdaşlıq prinsipləri əsasında istifadə edilməsini nəzərdə tutan xarici iqtisadi siyasət xəttini bəyan edib. Qeyd edib ki, zəngin neft və qaz yataqları, eləcə də digər təbii sərvətlərə malik olan Azərbaycan müasir dünya iqtisadiyyatının qəbul etdiyi prinsiplər əsasında xarici investisiyalar və beynəlxalq şirkətlərlə əməkdaşlıq üçün açıqdır.

Davos forumu 2002-ci ildə ABŞ-də baş vermiş 11 sentyabr terror hadisələrinə etiraz və həmrəylik əlaməti olaraq Nyu York şəhərində keçirilib. Həmin toplantıda 106 ölkədən 3 minə yaxın nümayəndə iştirak edərək, baş vermiş terror aktını qətiyyətlə pislədiklərini nümayiş etdirib. Forumda Ulu Öndər Heydər Əliyev də iştirak edib və çıxışında törədilmiş terror aktının Azərbaycanı dərin narahat etdiyini vurğulayıb, beynəlxalq terrorizmə qarşı mübarizədə dünya dövlətlərinin səylərinin birləşdirilməsinin vacibliyini diqqətə çatdırıb. Ulu Öndər beynəlxalq terrorizmin əsas mənbələrindən birinin separatizm olduğunu qeyd edərək, bu fikrini Dağlıq Qarabağ münaqişəsi timsalında əsaslandırıb. Bildirib ki, münaqişə məhz separatçı niyyətlərdən qaynaqlanmış, sonradan Ermənistanla Azərbaycan arasında müharibəyə çevrilmiş və nəticədə Azərbaycanın təxminən 16 min kvadratkilometr ərazisi nəzarətdən kənarda qalıb.

Qeyd edək ki, bu forum qitələrarası və qlobal miqyasda qarşılıqlı iqtisadi əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır. Təbii ki, qlobal tədbirin əhəmiyyəti yalnız iqtisadi çərçivə ilə məhdudlaşmır. Reallıq göstərir ki, iqtisadiyyat qapalı mühitdə inkişaf edə bilməz. Müasir dövrdə hər bir ölkənin iqtisadi inkişafı digər dövlətlərin iqtisadiyyatları ilə qarşılıqlı əlaqələrdən, eləcə də beynəlxalq iqtisadi qurumlarla əməkdaşlıqdan bilavasitə asılıdır. Bu qarşılıqlı iqtisadi münasibətlər isə öz növbəsində beynəlxalq səviyyədə əməkdaşlığın genişlənməsinə, o cümlədən siyasi dialoqun güclənməsinə təkan verir. Başqa sözlə, müasir dünyada iqtisadiyyat və siyasət bir-birindən ayrı mövcud ola bilməz. Məhz bu səbəbdən DİF platforması həm də mühüm siyasi dialoq məkanı kimi də çıxış edir.

Buna bariz nümunə kimi Prezident İlham Əliyevin forum çərçivəsində keçirdiyi görüşləri göstərmək olar. Həmin görüşlərin əsas mövzusu iqtisadi layihələr, regional və qlobal təşəbbüslər, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəlmiş məsələlərdir. 2007-ci ildən faktiki olaraq forumun hər iclasına qatılan Prezident İlham Əliyevə hər zaman tədbir iştirakçılarının xüsusi diqqət və marağı olub. Çünki Azərbaycan davamlı olaraq uğurlar əldə edir və beynəlxalq layihələrdə fəal iştirak edir. Davos forumunda ən çox görüşlər keçirən, müzakirələr aparan və müxtəlif əməkdaşlıq təklifləri alan dövlət başçıları sırasında İlham Əliyevin xüsusi yeri var. Təsadüfi deyil ki, Azərbaycan 2013-cü il aprelin 12-də DİF-in növbəti tədbirinə evsahibliyi edib. Dünyanın iqtisadi inkişafını proqnozlaşdıran tanınmış iqtisadçılar, beynəlxalq ekspertlər, eləcə də dövlət və hökumət nümayəndələri Bakıda toplaşaraq, qlobal miqyasda bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələlər ətrafında geniş müzakirələr aparıblar.

Tədbirin açılışında çıxış edən DİF-in təsisçisi və icraçı direktoru Klaus Şvab bəyan edib: "Dünya İqtisadi Forumunun Azərbaycanda keçirilməsi bizim üçün bir qürurdur. Azərbaycan çox böyük imkanların olduğu ölkədir. Ümumiyyətlə, son illər ölkədə çox böyük iqtisadi artım göstəriciləri qeydə alınmışdır. Bu, ilk növbədə ölkənin müstəsna təbii resurs potensialının düzgün istifadəsi sayəsində mümkün olmuşdur. Eyni zamanda bu nailiyyətlər həmin resurslardan ölkə iqtisadiyyatının şaxələndirilməsində uğurla və bacarıqla istifadə edilməsi sayəsində qazanılmışdır. Azərbaycan informasiya texnologiyaları, maliyyə, tikinti sahələrində çox qabaqcıl bir ölkədir".

Azərbaycanın Davos forumunda uzunmüddətli iştirakı və əldə etdiyi uğurlar fonunda ölkəmiz bu gün də qlobal platformada rolunu davam etdirir. Hazırda Prezident İlham Əliyev Davosda keçirilən beynəlxalq tədbirdə iştirak edir, ölkəmizin qlobal iqtisadi və siyasi nüfuzunu nümayiş etdirir və müxtəlif beynəlxalq əməkdaşlıq təşəbbüsləri üzrə görüşlər keçirir. Prezidentin çıxışları və keçirdiyi çoxsaylı ikitərəfli görüşlər Azərbaycanın artıq enerji ixracatçısı ölkə statusundan çıxaraq logistika, nəqliyyat, enerji təhlükəsizliyi və regional inteqrasiya mərkəzi kimi təqdim olunduğunu göstərir.

Qeyd edək ki, bu il dünyanın 130-dan çox ölkəsindən 3000-ə qədər nümayəndənin iştirak etdiyi forumun əsas mövzusu "A Spirit of Dialogue" ("Dialoq Ruhu") olaraq müəyyən edilib. Bu mövzu qlobal miqyasda dərinləşən geosiyasi, iqtisadi və texnoloji parçalanma fonunda açıq və səmimi dialoqun vacibliyini ön plana çıxarır. Bu baxımdan İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən 4-cü Sənaye İnqilabının Təhlili və Koordinasiyası Mərkəzinin (4SİM) Davosda iştirakı Azərbaycanın süni intellekt, sənaye 4.0 və rəqəmsal transformasiya sahəsində qlobal proseslərin fəal iştirakçısı olduğunu nümayiş etdirir.

Bütün bu və digər nüanslar Davos forumunun Azərbaycan üçün nə qədər strateji və əhəmiyyətli bir platforma olduğunu təsdiqləyir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Sülh, əməkdaşlıq və qarşılıqlı hörmət

**Təməli isveçrəli iş və elm adamı professor Klaus Şvab tərəfindən 1971-ci ildə qoyulan Davos Dünya İqtisadi Forumu qlobal iqtisadi və siyasi münasibətlərin müzakirə edildiyi mötəbər bir platformadır. Forumda iqtisadi və siyasi məsələlər paralel müzakirə olunur. Burada dünya liderləri ilə yanaşı, transmilli şirkətlərin rəhbərləri də iştirak edərək fəal rol oynayırlar.**

Forumda qlobal məsələlərlə yanaşı, ölkələr arasında ikitərəfli münasibətlər də müzakirə olunur, dünyanın aparıcı şirkətləri dövlət başçıları ilə görüşüb işgüzar əlaqələrin qurulmasına çalışırlar. Davosda dövlət başçıları özlərinin siyasi baxışları, ölkələri ilə bağlı geniş informasiya vermək imkanı da qazanırlar. Belə imkanlardan biri də dünyanın aparıcı KİV-inə müsahibə verməklə ölkələrin mövqelərinin geniş auditoriyaya çatdırılmasıdır.

Prezident İlham Əliyev Davosda hər zaman kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olan liderdir. O üzdən hər forumda dünyanın aparıcı KİV-inin dövlətimizin başçısından müsahibə aldıqlarının şahidi oluruq. Çünki hər bir kütləvi informasiya vasitəsi öz auditoriyasına dünyada baş verən qlobal proseslər barədə dəqiq və düzgün analitik fikirləri çatdırmaq istəyir və bu səbəbdən forumda dünyanın müxtəlif qitələrindən gələn dövlət başçıları arasında Prezident İlham Əliyevdən "Euronews" televiziya kanalı tərəfindən müsahibə alınması da Azərbaycan liderinin yüksək siyasi mədəniyyəti və diplomatik təfəkkürü ilə bağlıdır.

Prezident İlham Əliyev dəyişən dünyada baş verən geosiyasi proseslər fonunda ölkəmizin milli maraqlarının qorunmasını ön plana çıxararaq bildirdi ki, bu gün qlobal səviyyədə baş verən qeyri-sabit vəziyyətin şahidiyik. Yəni yeni dünya düzənində beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri tərəfindən qəbul olunmur. Başqa sözlə, illərlə formalaşan dövlətlərin suverenliyi və ərazi bütövlüyü əvvəlki kimi hamı tərəfindən qəbul olunan vacib şərt deyil. Son bir neçə ildə dünyada suveren dövlətlərin ərazilərinin qəsb edilməsinin şahidi oluruq. Belə hal qəbulolunmazdır və dövlətimizin başçısı da müsahibədə diqqəti buna cəlb edib. Prezident İlham Əliyev hamı tərəfindən qəbul edilən bir sıra beynəlxalq qanunların ayaqlar altına atılmasının yarada biləcəyi qlobal xaosun dəhşətli nəticələr törədə biləcəyinə işarə vuraraq deyib: "Gördüyümüz hər bir iş - istər siyasi inkişaf, istərsə də suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası beynəlxalq hüquqa və ümumi dəyərlərə uyğun idi. Beləliklə, qeyd etdiyiniz kimi, beynəlxalq münasibətlər bu gün yeni eraya qədəm qoyur. Bu erada vəziyyəti qanunun aliliyi deyil, güc qaydası idarə edir. Biz bunu dünyanın müxtəlif yerlərində görə bilərik. Buna görə o, bir daha göstərir ki, hər ölkə öz strategiya və siyasətini özünün potensialına uyğunlaşdırmalıdır, o cümlədən mümkün qədər çox ölkələrlə, ilk növbədə öz bölgəsində, sonra isə qlobal müstəvidə yaxşı münasibətlər qurmalıdır. Azərbaycan məhz buna nail oldu".

Beynəlxalq hüququn işlənməməsindən ən çox əziyyət çəkən ölkələrdən biri də Azərbaycandır. Beynəlxalq hüquqa ikili standartlardan yanaşma üzündən ölkəmizin 20 faiz ərazisi 30 il erməni silahlı qüvvələrinin işğalı altında qalmışdır. Münaqişənin bu qədər uzanmasının yeganə səbəbi beynəlxalq hüquqa qlobal güclərin ikili standartlardan yanaşması olmuşdur. Bu münaqişəni həll etməli olan Minsk qrupunun üç həmsədri, BMT-nin daimi üzvləri olan Rusiya, Fransa və ABŞ beynəlxalq hüququn şərtlərinin Ermənistan tərəfindən yerinə yetirilməsini tələb etmək əvəzinə bizə reallıqla barışmağı, yəni işğal faktı ilə razılaşıb ərazilərimizdən imtina etməyi tələb edirdi. Lakin dövlətimiz bu problemi beynəlxalq hüququn prinsiplərini pozmadan güc yolu ilə birdəfəlik həll etdi. Biz BMT səviyyəsində dünya tərəfindən qəbul edilən ərazilərimizi işğaldan azad edərkən beynəlxalq hüququ pozmadıq. Dövlətimizin başçısının müsahibədə vurğuladığı əsas fikir də qəbul edilən beynəlxalq qanunlara hamı tərəfindən əməl olunmasının vacibliyi idi.

Prezident İlham Əliyev onu da bildirib ki, ölkəmizin xarici siyasətinin əsas məqsədi sülh şəraitində yaşamaqdır. Ölkəmiz uzun illər müharibə vəziyyətində olan Ermənistanla barışmaq üçün sülhün təşəbbüsçüsü olub və bu istiqamətdə xeyli uğurlara imza atıb. "Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir, bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlər artıq əməkdaşlığa çevrilir. Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri aradan qaldırdıq. Bundan əlavə, biz Ermənistanın böyük dərəcədə asılı olduğu əsas malların, ilk növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq. Bu vəziyyətdən hamı udur", - deyə dövlətimizin başçısı açıqlayıb.

Prezident İlham Əliyev müsahibədə Ermənistanla yaranan sülhdən narahat olan qüvvələrin neqativ fəaliyyətini də haqlı olaraq tənqid edib. Məlum olduğu kimi, Ermənistanla Azərbaycan öz aralarında olan fikir ayrılıqlarını müəyyən qədər həll etdiyi bir vaxtda Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası müxtəlif qərəzli qərarlar qəbul edib və bununla iki ölkə arasında davamlı sülhün yaranmasına mane olmaq istəyib. Bu iki qurumun qəbul etdiyi birtərəfli qərarların heç biri beynəlxalq hüquqa söykənmir, əksinə, ona ziddir. Bunun nəticəsidir ki, Azərbaycan haqlı olaraq bu iki qurumla əməkdaşlığı dayandırıb.

Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasətin əsas istiqamətlərindən biri də qonşularla və region ölkələri ilə sülh şəraitində yaşamağa və normal münasibətlər qurmağa can atmasıdır. Amma bunun üçün qonşu ölkələrdə sabitliyin olması lazımdır. Çünki bu, iqtisadi əlaqələrin tərəflərə fayda gətirməsinin əsas şərtlərindəndir.

Azərbaycan dünyada enerji təhlükəsizliyinə töhfə verən ölkədir. Məlum olduğu kimi, Rusiya-Ukrayna müharibəsi səbəbindən Avropa ölkələri böyük həcmdə Rusiyadan təbii qaz almaqdan imtina edib. Həmin boşluğu qismən Azərbaycan doldurmağa çalışır. Bu gün ölkəmiz dünyanın 16 ölkəsinə təbii qaz ixrac edir və onlardan 10-u Avropa İttifaqının üzvüdür. Belə əməkdaşlıq ölkəmizlə yanaşı, digər ölkələrə də fayda verir. Qarşılıqlı əməkdaşlığın məntiqi nəticəsi isə hamının rifahına və qarşılıqlı əlaqələrə, sülhə fayda verməsidir. Xarici siyasətimizin əsas məqsədi də budur. Prezident İlham Əliyevin "Euronews" kanalına verdiyi müsahibəsində dünya ictimaiyyətinə çatdırdığı əsas mesajlardan biri də budur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Milli Məclisin komitələrinin iclasları keçirilib






Yanvarın 21-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Arzu Nağıyev iclası açaraq, yeni sessiyada deputatlara işlərində uğurlar arzulayıb.

A.Nağıyev ötən il ölkə həyatında baş verən hadisələrin əhəmiyyətindən söhbət açıb, bu baxımdan komitə üzvlərinin üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirdiklərini söyləyib. O, Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi, milli təhlükəsizliyin təmin olunmasına və ölkənin beynəlxalq nüfuzunun güclənməsinə xidmət etdiyini vurğulayıb.

Arzu Nağıyev iclasın gündəliyinə 2 məsələnin - 2025-ci ilin payız sessiyası dövründə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində görülən işlər barədə hesabatın və komitənin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsinin daxil edildiyini bildirib.

Qeyd edilib ki, payız sessiyasında komitə səmərəli fəaliyyət göstərib. Bu müddətdə 24 iclası keçirilib, 19 məsələyə baxılıb.

Hesabat dövründə vətəndaşlardan və müxtəlif təşkilatlardan daxil olmuş 236 ərizəyə, məktuba və digər sənədlərə, habelə elektron poçt vasitəsilə daxil olmuş məktublara komitə tərəfindən baxılıb, qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlər görülüb, vətəndaşlara lazımi izahatlar verilib. Müxtəlifməzmunlu 46 ərizə və müraciət lazımi tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib.

Komitənin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsi barədə məlumat verən Arzu Nağıyev diqqətə çatdırıb ki, bu dövrdə qanunvericilik təşəbbüsü qaydasında təqdim ediləcək qanun layihələrinin, bəzi qanunlarda ediləcək dəyişikliklərin müzakirəsi, hərbi səfərbərlik və hərbi xidmətkeçmə ilə bağlı ictimai dinləmənin keçirilməsi nəzərdə tutulub.

Müzakirələr zamanı komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Hikmət Məmmədov, Aydın Mirzəzadə, Rizvan Nəbiyev, Elman Məmmədov təqdim olunan sənədlər barədə fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabat məqbul sayılıb, komitənin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsi təsdiq olunub.

❖ ❖ ❖

Yanvarın 21-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Səməd Seyidov yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib və iclasın gündəliyinə 4 məsələnin - payız sessiyasının hesabatının, yaz sessiyasının iş planının layihəsinin və bir sıra qanun layihələrinin daxil edildiyini diqqətə çatdırıb.

Gündəlikdə duran məsələlərin müzakirəsinə keçməzdən əvvəl Səməd Seyidov, Prezident İlham Əliyevin Davos Ümumdünya İqtisadi Forumunda beynəlxalq və regional təhlükəsizlik, qlobal nizam məsələlərinə dair səsləndirdiyi mühüm fikirlərdən bəhs edib, bu yanaşmaların mövcud geosiyasi reallıqlar baxımından əhəmiyyətini vurğulayıb. Azərbaycanın regionda və beynəlxalq müstəvidə artan nüfuzunu qeyd edən komitə sədri, ölkəmizin Sülh Şurasına təsisçi üzv dövlət qismində dəvət olunmasını mühüm və əlamətdar hadisə adlandırıb.

Sonra gündəliyə daxil olan məsələlər - Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2025-ci ilin payız sessiyası ərzində fəaliyyəti barədə hesabat və komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi təqdim edilib.

Komitə sədri qeyd edib ki, ötən sessiya dövründə komitənin 10 iclası keçirilib, ümumilikdə 33 məsələyə baxılıb və 31 qanun layihəsi Milli Məclisin müzakirəsinə tövsiyə olunub. Bildirilib ki, payız sessiyası ərzində komitə üzvləri vətəndaş qəbulları təşkil edərək seçicilərlə çoxsaylı görüşlər keçiriblər, onların qaldırdığı məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görüblər.

Komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi barədə məlumat verən komitə sədri bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan yeni qanun layihələrinin müzakirəsi, eləcə də mövcud qanunlara dəyişikliklərin edilməsi barədə qanunvericilik aktlarına baxılması nəzərdə tutulur.

Daha sonra iclasda gündəlikdəki qanun layihələrinin müzakirəsi keçirilib. Səməd Seyidov gündəliyin növbəti məsələləri olan "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə və "Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanunlarının layihələri ilə bağlı bildirilib ki, bu sənədlər ölkəmizin beynəlxalq hüquqi öhdəliklərinə uyğun olmaqla yanaşı, gömrük işi sahəsində əməkdaşlığın genişləndirilməsinə və əməyin mühafizəsi sahəsində beynəlxalq standartların tətbiqinə töhfə verəcək.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı komitə sədrinin müavini Nigar Arpadarai, üzvləri Nəsib Məhəməliyev, Fariz İsmayılzadə, Qaya Məmmədov, Rasim Musabəyov, Rizvan Nəbiyev, Nigar Məmmədova və Gülşən Paşayeva çıxış edərək təklif və qeydlərini səsləndiriblər.

Tədbirdə komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, 2026-cı ilin yaz sessiyası üçün nəzərdə tutulan iş planının layihəsi təsdiqlənib və qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

❖ ❖ ❖

Yanvarın 21-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Musa Quliyev bildirib ki, Azərbaycan daxili siyasətində sosial sahə keçən il də prioritet istiqamət təşkil edib. Dövlət başçısının sərəncamı ilə 2025-ci ildə həyata keçirilən sosial islahatlar zərfindən söz açan komitə sədri bu tədbirlərin 3 milyondan çox vətəndaşın sosial rifahının yüksəlməsini təmin etdiyini diqqətə çatdırıb. Cari ilin dövlət büdcəsində də sosial xərclərin böyük çəkisini vurğulayan komitə sədri 2026-cı ilin sosial artım proqnozları ilə bağlı fikirlərini bölüşüb.

Gündəliyin birinci məsələsi - Milli Məclisin 2025-ci ilin payız sessiyası dövründə Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabatla bağlı bildirilib ki, ötən sessiya ərzində komitənin 17 iclası keçirilib və 33 məsələ müzakirə olunub. Hesabat dövründə komitəyə daxil olan 241 ərizə, şikayət və müraciət araşdırılıb və müvafiq tədbirlər görülüb.

Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi barədə danışan Musa Quliyev bildirib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi və digər məsələlər nəzərdə tutulub. Həmçinin bu sessiyada Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı dinləmənin keçirilməsi planlaşdırılıb.

Gündəlikdə üçüncü məsələ olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı komitə sədri deyib ki, sənəddə minimum əməkhaqqının hər il yenidən baxılması müddəası təsbit olunur. Layihənin qəbulu həm də ölkəmizin beynəlxalq hesabatlarda reytinqinin yüksəlməsinə xidmət edəcək.

Gündəliyin sonuncu məsələsi olan Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim edən komitə sədri beynəlxalq əmək standartlarının ölkəmizdə uğurlu tətbiqindən söz açıb.

Sonra Beynəlxalq Əmək Təşkilatının (BƏT-in) Azərbaycan üzrə milli əlaqələndiricisi Yaşar Həmzəyev təmsil etdiyi təşkilatın təhlükəsizlik və sağlam iş mühiti prioritetləri barədə danışıb, müzakirə olunan konvensiyanın bu sahədə əhəmiyyətini vurğulayıb. O, Azərbaycanın BƏT-in fundamental konvensiyalarına qoşulmasını ölkəmizdə sosialyönümlü siyasətin uğurla həyata keçirilməsinin, insanların sağlamlığının qorunmasına və əməyin mühafizəsinə ayrılan diqqətin aydın təzahürü kimi dəyərləndirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov bildirib ki, Konvensiyaya əsasən, onu ratifikasiya edən ölkə istehsalatda əmək xəsarətlərinin, peşə xəstəliklərinin və bununla bağlı ölüm hallarının qarşısının alınması üçün milli siyasət, milli sistem və milli proqramlar hazırlamaqla əməyin təhlükəsizliyi və gigiyenasının davamlı olaraq təkmilləşdirilməsini təşviq edir və fəal tədbirlər görür.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Elşad Musayev, komitə üzvləri Ziyad Səmədzadə, Vüqar Bayramov, Göydəniz Qəhrəmanov, Səttar Möhbalıyev, Jalə Əliyeva, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edib, fikirlərini səsləndiriblər.

İclasda komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiqlənib, qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

❖ ❖ ❖

Yanvarın 21-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib.

İclası açan komitə sədri Fazil Mustafa bildirib ki, gündəliyə 2025-ci ilin payız sessiyası dövründə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsində görülən işlər barədə hesabat, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsi və cari məsələlərin müzakirəsi daxildir.

Birinci məsələ barədə danışan komitə sədri diqqətə çatdırıb ki, 2025-ci ilin payız sessiyası dövründə komitənin 4 iclası keçirilib və 6 məsələyə baxılıb. Bu dövr ərzində komitəyə daxil olmuş 83 ərizə, məktub və digər müxtəlif xarakterli sənədlərlə, həmçinin elektron poçt vasitəsilə daxil olmuş məktubların əksəriyyəti ilə bağlı müvafiq icra strukturları və təşkilatlarla əlaqə saxlanılıb, onların qanun çərçivəsində həllinə nail olunub. Seçicilərlə həm Milli Məclisdə, həm də yerlərdə mütəmadi görüşlər keçirilib, lazımi izahatlar verilib.

Sessiya ərzində "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi digər komitələrlə birlikdə müzakirə olunub və Milli Məclisdə üç oxunuşda qəbul edilib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsi barədə danışan komitə sədri bildirib ki, gələn sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri komitədə müzakirə olunacaq, bir sıra mövzularda ictimai müzakirələr, vətəndaşlarla və dini konfessiyaların nümayəndələri ilə mütəmadi görüşlər keçiriləcək.

Sonra komitə sədrinin müavini Sahib Alıyev və komitə üzvləri Azər Allahverənov, Elşad Musayev, Tənzilə Rüstəmxanlı, Ceyhun Məmmədov və Azay Quliyev çıxış edərək, gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər, bir sıra təkliflərini səsləndiriblər.

İclasda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub və komitənin növbəti sessiya üçün iş planının layihəsi təsdiqlənib.

*"Azərbaycan"*

# Bakı Şəhər Prokurorluğunda 2025-ci ildə görülmüş işlərin yekunu ilə bağlı əməliyyat müşavirəsi olub

**Yanvarın 21-də Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2025-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyətinə və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**





Müşavirəni giriş nitqi ilə açan baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi Zəfərin 5-ci ildönümünün təntənə ilə qeyd olunduğu, "Konstitusiya və Suverenlik İli" elan edilmiş 2025-ci il xalqımızın və dövlətimizin tarixinə növbəti uğurlu il kimi daxil olub.

Qeyd olundu ki, hesabat ilində həmçinin iqtisadiyyatın inkişafı, yeni investisiya layihələrinin, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin icrası müvəffəqiyyətlə davam etdirilməklə, vətəndaşların sosial rifah halının yüksəldilməsi təmin olunub.

Baş prokuror 2025-ci il avqustun 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasını xüsusi vurğulayaraq, bu nailiyyətin tarixi qələbəmizdən sonra əldə edilmiş digər ən mühüm uğurumuz olduğunu qeyd edib.

Dövlət başçısının prokurorluq əməkdaşlarına göstərdiyi yüksək qayğının nəticəsi olaraq hesabat ilində Pirallahı, Nəsimi və Binəqədi rayon prokurorluqlarının yeni inzibati binaları, habelə Bakı Şəhər Prokurorluğunun yeni korpusu açılaraq prokurorluq əməkdaşlarının istifadəsinə verilib.

Müşavirədə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat verib.

Qeyd edilib ki, 2025-ci il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 14.104 cinayət hadisəsi qeydə alınmışdır ki, onların 93,4 faizinin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində 2025-ci ildə törədilən 39 qəsdən adam öldürmə cinayətlərindən və 19 qəsdən adam öldürməyə cəhd cinayətlərinin hamısının, həmçinin ötən illərdən bağlı qalan 2 qəsdən adam öldürmə və 1 qəsdən şəxsin ölümünə səbəb olan ağır xəsarət yetirmə cinayətlərinin açılması təmin edilib.

Qeyd olunub ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 258 cinayət işinin ibtidai istintaqı tamamlanmış, onlardan 212 şəxs barəsində 182 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilib. Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 13.827.887 manat məbləğində maddi ziyanın 8.243.898 manatı və ya 59,6 faizinin ödənilməsi təmin olunub.

Paytaxtın daxili işlər orqanlarında 5484 cinayət işinin istintaqı tamamlanaraq, 4312 işin məhkəmələrə göndərilməsi təmin olunub.

Xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılmışdır. Şəhər prokurorluq orqanları əməkdaşlarından ümumilikdə 6 nəfər intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 2 nəfər prokurorluq orqanlarından xaric edilmiş, 1 nəfər isə tutduğu vəzifədən azad olunmuşdur.

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev şəhər prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar vermişdir.

# Azərbaycanla Misir arasında dini sahədə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Qahirə şəhərində Misir Ərəb Respublikasının Dini işlər və vəqflər naziri - İslam Ali Şurasının sədri Usamə əl-Əzhəri ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan ilə Misir arasında tarixən mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən dini-mənəvi dəyərlərin qorunması, mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində uğurla inkişaf etdiyi vurğulanıb.

İkitərəfli əlaqələrin gələcəkdə daha da dərinləşdirilməsinin vacibliyi qeyd edilib, beynəlxalq platformalarda qarşılıqlı dəstək və birgə təşəbbüslərin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılıb.

Ramin Məmmədov Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulduğunu, dini etiqad azadlığının təmin edildiyini, multikulturalizm və tolerantlıq ənənələrinin dövlət siyasətinin tərkib hissəsi olduğunu bildirib.

Usamə əl-Əzhəri də öz növbəsində Misirdə dini sahədə aparılan islahatlar, əl-Əzhər Universitetinin islamın sülh, həmrəylik və humanizm dəyərlərinin dünyada təbliği istiqamətində gördüyü işlər haqqında danışıb. O, ölkəsinin Azərbaycanla dini sahədə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayaraq, alimlərin, din xadimlərinin qarşılıqlı səfərlərinin təşkili, birgə elmi konfrans və seminarların keçirilməsi, dini maarifləndirmə layihələrinin reallaşdırılması istiqamətində əməkdaşlıq imkanlarının geniş olduğunu bildirib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Qətərin hərbi rəhbərliyi ilə görüşüb

**Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Qətərə səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini və müdafiə işləri üzrə dövlət naziri Əlahəzrət Şeyx Saud bin Əbdülrəhman bin Həsən Al Tani və Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Casim bin Məhəmməd Al Mannai ilə görüşüb.**




Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanın Qətərdəki fövqəladə və səlahiyyətli səfiri Adış Məmmədovun da iştirak etdiyi görüşlərdə "DIMDEX 2026" sərgisinin ölkələrin dənizdən müdafiə qabiliyyətinin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Tərəflər hərbi əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə edərək Azərbaycan ilə Qətər arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivlərini müzakirə edib, birgə hərbi təlimlərin keçirilməsinin vacibliyini bildirib, habelə maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

# *Barışın memarı:* sülh diplomatiyasında İlham Əliyev imzası

**Sülhə sadiqlik və humanitar dəyərlərin qorunması böyük mənəvi məsuliyyət tələb edən bir missiyadır. "Zayed İnsan Qardaşlığı Mükafatı" məhz bu ali məqsədlərə xidmət edən, bəşəriyyətin gələcəyi üçün fədakarlıq göstərən liderləri seçən nüfuzlu bir platformadır. Azərbaycan Prezidenti İlham Əliyevin bu yüksək mükafata layiq görülməsi onun müasir dünya nizamında sülhün və qardaşlığın əsas memarı kimi qəbul edilməsinin bariz nümunəsidir.**



Müasir diplomatiya tariximizdə müstəsna əhəmiyyət kəsb edən bu dəyər, sadəcə, təltif deyil, eyni zamanda Azərbaycanın münaqişələrin həlli və postmünaqişə dövründəki unikal təcrübəsinin dünya üçün bir yol xəritəsi kimi qəbul edilməsidir. Həm də Azərbaycan xalqının tolerantlıq ənənələrinə və ölkəmizin beynəlxalq nüfuzuna verilən haqlı dəyərin ifadəsidir. Ən əsası isə Azərbaycan liderinin onilliklər boyu davam edən qanlı münaqişəni sonlandıraraq regionda dayanıqlı sülh modelini yaratmasına verilən beynəlxalq mandatdır. İlham Əliyev bu mükafata müharibədən sonra əməkdaşlıq və reinteqrasiya yolunu seçən uzaqgörən rəhbər kimi layiq görülüb. Mükafatın münsiflər heyəti də qeyd edib ki, Azərbaycan və Ermənistan arasında əldə olunmuş sülh razılaşması dünyadakı digər münaqişə zonaları üçün ən nümunəvi modeldir.

Müasir dövrün ən böyük problemlərindən biri qətiyyətli və prinsipial liderlik çatışmazlığıdır. Rəqabətli və çox vaxt ədalətsiz olan beynəlxalq sistemdə xaosun qarşısını almaq, intizam yaratmaq hər rəhbərin nail ola biləcəyi uğur deyil. Azərbaycan lideri hər bir addımını zərgər dəqiqliyi ilə hesablayaraq həm regional, həm də qlobal miqyasda ənənəvi liderlik funksiyalarını yenidən bərpa edir. Müharibədə möhtəşəm qələbə qazanmış bir sərkərdənin eyni zamanda sülh masasında da qalib gəlməsi dünya hərb və siyasət tarixində nadir rast gəlinən hadisədir. Azərbaycan Prezidentinin münaqişədən dərhal sonra sülh gündəliyini qətiyyətlə irəli sürməsi onun humanist obrazını tamamlayır. Dünya ictimaiyyəti də qəbul edir ki, 2020-ci il Zəfəri, sadəcə, ərazi bütövlüyünün bərpası deyil, Cənubi Qafqazın əbədi qan tökülməsindən xilası demək idi. 2025-ci ilin avqustunda Vaşinqtonda sülh prosesi ilə bağlı əldə olunan tarixi razılaşma isə Azərbaycanın öz iradəsini dünyaya qəbul etdirməsi oldu. Prezident İlham Əliyev yalnız sülh yaratmır, həm də bu sülhə mane olmaq istəyən xarici təhdidlərin qarşısını alır. Ermənistanı yenidən münaqişəyə sürükləməyə çalışan mərkəzlərin həmlələrini neytrallaşdırır, bölgəni fəlakətdən xilas edən yeganə təminatçı rolunda çıxış edir.

Prezidentin müəyyən etdiyi strateji sülh gündəliyi Davosda da beynəlxalq birliyin tam dəstəyini qazandı. Dünya İqtisadi Forumunda Azərbaycan Prezidentinin növbəti dəfə iştirakı, keçirilən intensiv ikitərəfli görüşlər, panel iclaslarındakı qətiyyətli çıxışlar və dövlət başçısının "Euronews" kanalına verdiyi müsahibə İlham Əliyevin regional və qlobal liderlik statusunun beynəlxalq səviyyədə növbəti təsdiqi oldu. Azərbaycanın postmünaqişə dövründəki haqlı mövqeyini qlobal auditoriyaya bir daha çatdırdı.

Xüsusilə "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı xüsusi tədbir dünyanın aparıcı iqtisadi və siyasi elitasının Bakının təqdim etdiyi yeni əməkdaşlıq modelinə olan böyük marağının bariz göstəricisi oldu. Bu platformalar sübut etdi ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq, sadəcə, Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının enerji təhlükəsizliyi və logistik konfiqurasiyasında həlledici aktordur. Davosdakı bu diplomatik zəfər Prezidentin sülh quruculuğu istiqamətindəki ardıcıl siyasətinin beynəlxalq miqyasda qeyd-şərtsiz qəbulu və onun qlobal liderlik statusunun sarsılmazlığının növbəti dəfə bütün dünyaya bəyanı idi. Prezidentin Davosda bəyan etdiyi kimi, sülh artıq, sadəcə, diplomatik bir sənəd deyil, gündəlik həyatda hiss olunan real faydadır. Azərbaycanın təşəbbüsü ilə Ermənistana neft məhsullarının göndərilməsi və ticarət marşrutları üzərindəki məhdudiyyətlərin aradan qaldırılması rəsmi Bakının sülh prosesindəki səmimiyyətinin ən böyük sübutudur. Bu praktiki addımlar regionun iqtisadi mənzərəsini dəyişməklə yanaşı, düşmənçilik səhifəsinin qəti olaraq bağlandığını nümayiş etdirir.

Ermənistan prezidenti Vaaqn Xaçaturyanın forum çərçivəsində cənab İlham Əliyevin irəli sürdüyü sülh prinsipləri ilə tam şərik olması və çıxışlarında bir neçə dəfə Azərbaycan liderinə təşəkkür etməsi rəsmi Bakının formalaşdırdığı yeni regional nizamın legitimliyini təsdiqlədi. Bu, sadəcə, bir diplomatik razılaşma deyil, Azərbaycanın beynəlxalq hüquqa söykənən diktəsinin qarşı tərəfdən qeyd-şərtsiz qəbulu kimi qiymətləndirilməlidir. Xaçaturyanın Azərbaycan liderinin arqumentləri qarşısında "Prezident İlham Əliyevdən sonra nəsə demək çox çətindir" etirafı, əslində, İrəvanın onilliklər boyu davam etdirdiyi əsassız ritorikanın tam iflası və sülh prosesinin geri dönməz mərhələyə qədəm qoymasının göstəricisidir. Azərbaycan liderinin nümayiş etdirdiyi iradə sübut etdi ki, İlham Əliyev təkcə döyüş meydanında Zəfər qazanan sərkərdə deyil, həm də sülh masasında və Davos kimi nəhəng iqtisadi platformalarda öz strateji baxışını qlobal səviyyədə qəbul etdirməyi bacaran qətiyyətli bir dövlət xadimidir.

Davosdakı müzakirələr göstərdi ki, Azərbaycan liderinin formalaşdırdığı yeni geosiyasi reallıq artıq dünya tərəfindən qəbul edilən bir yol xəritəsidir. Prezident İlham Əliyev sülhü, sadəcə, kağız üzərində deyil, real həyatda, iqtisadiyyatda və logistikada nümayiş etdirir. Azərbaycanın birtərəfli qaydada nəqliyyat yollarını açması regionun iqtisadi çiçəklənməsi üçün atılan strateji addım kimi yüksək qiymətləndirilir. Ermənistana neft məhsullarının göndərilməsi və orada qiymətlərin ucuzlaşması sülhün vətəndaşlar tərəfindən hiss edilən real faydasıdır. Azərbaycandan Ermənistana enerji resurslarının göndərilməsi və ticarət əlaqələrinin bərpası da məhz "insan qardaşlığı" prinsiplərinin praktiki tətbiqidir. Bu mənada Azərbaycan Prezidentinin sülh naminə göstərdiyi qətiyyət və humanizm həm mənəvi, həm də siyasi müstəvidə yüksək qiymətləndirilir.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın cənab İlham Əliyevə təqdim edilməsi ilə Davos forumunda sülh gündəliyinin dəstəklənməsi eyni məntiqə əsaslanır. Dünya birliyi Cənubi Qafqazın gələcəyini məhz İlham Əliyevin cızdığı ədalətli və humanist yol xəritəsində görür. Müharibədə qələbə qazanan Azərbaycan lideri sülh prosesini də qlobal uğur hekayəsinə çevirərək müasir tarixin ən nüfuzlu dövlət xadimlərindən biri olduğunu bir daha təsdiqləyir. Dünya Azərbaycanı artıq təkcə hərbi güc kimi deyil, həm də ədalətli və humanist sülhün qarantı kimi tanıyır və qəbul edir.

*Nəsib MƏHƏMƏLİYEV,*
*Milli Məclisin deputatı*

# Dünya Prezident İlham Əliyevin güclü lider olduğunu qəbul edir

**Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin adı, fəaliyyəti və siyasəti inkişaf və sabitlik anlayışları ilə assosiasiya olunur. Dövlət başçısının siyasi portretini tamamlayan cizgilər sırasında onun həm müdrik dövlət xadimi, həm də uğurlu siyasətçi imici xüsusi yer tutur.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan Prezidenti ölkənin geosiyasi mövqeyindən, ərazi xüsusiyyətlərindən, əhali sayından və digər faktorlardan asılı olmayaraq, öz strateji iradəsi əsasında müstəqil siyasət yeridə biləcəyini əyani şəkildə - əməli fəaliyyəti ilə sübuta yetirib. Bu səbəbdən də dövlət başçısının beynəlxalq müstəvidə nüfuzu davamlı olaraq yüksəlir. "Buna Davos İqtisadi Forumu çərçivəsində keçirilən görüşlərdə və tədbirlərdə bir daha şahid olduq. Xüsusilə "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclasında səsləndirilən fikirlər bunları təsdiqləyir. Panel iclasında Prezident İlham Əliyevlə yanaşı, Serbiya Prezidenti Aleksandar Vuçiç, Türkiyədən "Limak Holdinq"in İdarə Heyətinin sədri Ebru Özdəmir və Ermənistan prezidenti Vaaqn Xaçaturyan da iştirak edirdilər. İclasda Cənubi Qafqazda sülh prosesi də diqqət mərkəzində olub. Ölkəmizin rəhbəri sülh prosesi ilə bağlı bildirib ki, əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir. Maraqlı məqam odur ki, Ermənistan prezidenti fikirlərini bildirərkən dəfələrlə cənab İlham Əliyevə istinad edib və onunla razı olduğunu söyləyib. O, Azərbaycan Prezidenti İlham Əliyevin "gələcək bizdən asılıdır" fikri ilə tam razı olduğunu deyərək qeyd edib ki, ölkələrimizin liderləri öz siyasi iradələrini qətiyyətlə nümayiş etdirirlər: "Prezident İlham Əliyevin söylədiyi kimi, biz siyasi qətiyyəti sülh üçün nümayiş etdirdik ki, artıq bundan sonra əməli tədbirlər sülhü sübut etsin, təsdiq etsin". Vaaqn Xaçaturyan Prezident İlham Əliyevə təşəkkür də edib", - deyə Sevinc Fətəliyeva bildirib.

Deputat qeyd edib ki, torpaqlarımızı 30 il işğal altında saxlamış bir ölkənin prezidentinin belə fikirlər söyləməsi təsadüfi deyil. Bunun səbəbi Prezident İlham Əliyevin qətiyyəti və gücüdür. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması dövlətimizin gücünü Ermənistanla yanaşı, bütün dünyaya nümayiş etdirdi.

S.Fətəliyevanın sözlərinə görə, Prezident İlham Əliyevin hərbi, siyasi, diplomatiya sahəsində və informasiya-təbliğat müstəvisində strategiyasının uğurlu nəticələri təkcə Azərbaycanın tarixi zəfərində öz əksini tapmayıb: "Cənab İlham Əliyevin yüksək liderlik keyfiyyətləri və qətiyyətli mövqeyi fonunda həyata keçirilən strateji kursun nəticəsində həm də çox mühüm geostrateji reallıqlar yaranıb. Bu reallıqlar, ilk növbədə, Azərbaycan dövlətinin gücünün göstəricisi olmaqla yanaşı, ölkəmizə tərəqqi, regiona rifah və inkişaf vəd edir. Azərbaycan Prezidentinin strateji təşəbbüsləri özündə həm tarixi ənənələri, həm mənəvi dəyərləri, həm siyasi reallıqları, həm də milli maraqları ehtiva edir. Bu amillər dünya ölkələrini də İlham Əliyev faktoru ilə hesablaşmağa təşviq edir".

Deputat bildirib ki, Prezident İlham Əliyevin güclü siyasi xadim olduğunu bir çox ölkənin liderləri də etiraf edirlər. Buna nümunə olaraq, Davosda Serbiyanın Prezidenti Aleksandar Vuçiçin fikirlərini göstərmək olar. O deyib: "Prezident İlham Əliyevin söylədiyi fikirlərlə bağlı bir mövqe var: o, həqiqətən də, müasir dünyada böyük, dahi liderlərdən biridir və indiki dövrdə belə bir lideri çox nadir halda görmək olur. Bunun çox böyük təsir effekti var və bu danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük".

S.Fətəliyeva sonda vurğulayıb ki, Prezident İlham Əliyevin böyük şəxsiyyət və güclü lider olduğu beynəlxalq müstəvidə də tam qəbul edilir. Azərbaycan xalqı olaraq öz liderimizlə qürur duyuruq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dezinformasiyanın yerli və qlobal miqyasda təhlükəsinə dair ictimai müzakirə keçirilib



**Yanvarın 21-də Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təşkilatçılığı, Medianın İnkişafı Agentliyinin və Azərbaycan Mətbuat Şurasının tərəfdaşlığı ilə "Dezinformasiya: qlobal miqyasda və Azərbaycan reallığında ən ciddi təhlükə kimi" mövzusunda ictimai müzakirə keçirilib. Tədbirin məqsədi dezinformasiyanın müasir dövrdə yaratdığı çağırışların, onun qlobal, regional və milli səviyyələrdə təsirlərinin müzakirə edilməsi və bu çağırışlara qarşı mümkün birgə yanaşmaların qiymətləndirilməsi olub.**

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, bu günlərdə Davosda Dünya İqtisadi Forumu "Qlobal Risklər Hesabatı"nı ("Global Risks Report") açıqlayıb. Hesabata görə, dezinformasiya, saxta məlumatlar Azərbaycan üçün 2026-cı ildə əsas risk kimi göstərilib. Hesabatda dezinformasiya, həmçinin qlobal miqyasda da ciddi təhlükə kimi qiymətləndirilib: "Dezinformasiya müasir dövrdə təkcə informasiya sahəsini deyil, ictimai sabitliyi, dövlət-vətəndaş münasibətlərini, demokratik institutları hədəfə alan sistemli təhlükəyə çevrilib. Bu mövzuda vətəndaş cəmiyyəti həmişəkindən daha həssas olmalı, saxta məlumatları vaxtında ifşa etməli, onun tirajlanmasının qarşısında səddə çevrilməlidir. Dünya İqtisadi Forumunun dezinformasiyanı Azərbaycan üçün əsas risk kimi göstərməsi ciddi siqnaldır. Ona görə də Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu tərəfdaş qurumlarla birgə vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə bu ictimai müzakirəni təşkil etməyə qərar verdi".

Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli qeyd edib ki, bütün dünyada dezinformasiya təhdidləri artan templə irəliləyir, müasir dövrdə sosial media platformaları dezinformasiyanın əsas yayılma məkanına çevrilib: "Dezinformasiyanın bütün təzahür formalarına qarşı mübarizədə Azərbaycan dövlətinin güclü siyasi iradəsi var. Amma bu prosesdə ictimai sayıqlıq, media savadlılığı, cəmiyyətin yüksək intellektual səviyyəsi ən güclü silahdır".

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid vurğulayıb ki, media subyektlərinin "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"na riayət etməsi vacibdir və bu yaxşı nümunə kimi sosial media fəallarına da təsir edə bilər: "Ümumən qaydaların bütün prinsiplərinə riayət edilməsi cəmiyyətin dezinformasiya təmayüllərindən qorunması baxımından vacib istinadgahdır".

İctimai müzakirə çərçivəsində keçirilən tematik sessiyalarda dezinformasiyaya müxtəlif aspektlərdən yanaşmalar təqdim olunub. "Süni intellektlə yaradılmış saxta görüntülər, videolar və bot şəbəkələrinin ictimai rəyə təsiri" mövzusunda çıxış edən Mediada İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri Müşfiq Ələsgərli bu texnologiyaların informasiya manipulyasiyası baxımından yaratdığı risklərə diqqət çəkib.

"Dezinformasiyaya qarşı mübarizədə vətəndaşların media savadlılığının artırılması və QHT-lərin ictimai maarifləndirmədə rolu" mövzusunda keçirilən sessiyada Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu və İnformasiya və Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə QHT-lərin bu sahədəki nəzarət mexanizmlərindən bəhs ediblər.

"Azərbaycana qarşı hibrid təhdidlər və informasiya savaşının geosiyasi aspektləri" mövzusunda sessiyada Zaur İbrahimli və Sənan Nəcəfov qlobal miqyasda hibrid təhdidlərin genişlənməsinə diqqət çəkiblər.

Dezinformasiyanın regional dinamikasına həsr olunmuş sessiyada Milli Məclisin deputatı Azər Allahverənov türk dünyası üçün informasiya məkanında koordinasiyalı fəaliyyətin strateji əhəmiyyət daşıdığını bildirib. Qlobal Cənub QHT platformasının nümayəndəsi Fuad Kərimli isə rəqəmsal savadlılığın zəifliyi və texnoloji resurs çatışmazlığının regionda dezinformasiyanın təsirini artırdığını vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu cəmiyyət üçün aktual mövzularda ictimai müzakirələri davam etdirəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Davamlı dəstəyinə görə Azərbaycana təşəkkür edirik"

**Ukraynanın Baş naziri Yuliya Sviridenko enerji sahəsində göstərilən yardıma görə Azərbaycana təşəkkürünü bildirib.**



AZƏRTAC xəbər verir ki, Yuliya Sviridenko "Teleqram" səhifəsində yaxın günlərdə Azərbaycan, Slovakiya və Çexiyadan əlavə enerji yüklərinin Ukraynaya çatdırılacağını qeyd edib. Baş nazir yazıb: "Bütün tərəfdaşlarımıza davamlı dəstəyə və göstərilən yardıma görə təşəkkür edirik".

O bildirib ki, təqdim olunan bütün yardımlar Ukrayna evlərində istilik və enerji təchizatının bərpasına, həmçinin Rusiya qüvvələrinin intensiv atəşləri nəticəsində zərər görmüş enerji obyektlərinin yenidən qurulmasına yönəldilir.

Onun sözlərinə görə, daha dörd ölkə Ukraynaya enerji yardımı paketləri təqdim etməyə hazırlaşır. Bundan əlavə, İrlandiya gələn həftə Ukraynanın Enerji Dəstək Fonduna 25 milyon avro məbləğində ianə edəcək.

# "Azərbaycanın yardımı Ukraynanın enerji dayanıqlılığını gücləndirəcək"

**Ukraynanın energetika sahəsinə göstərilən növbəti humanitar yardıma görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edilib.**



AZƏRTAC Ukrayna Energetika Nazirliyinə istinadla xəbər verir ki, Ukraynanın Baş nazirinin müavini, energetika naziri Denis Şmıqal Azərbaycanın Ukraynaya bir milyon dollar dəyərində yeni enerji avadanlığı bağışladığını bildirib.

D.Şmıqal qeyd edib: "Azərbaycan Respublikası enerji sektoru üçün Ukraynaya təxminən bir milyon dollar dəyərində daha bir humanitar yardım göndərib. Azərbaycan Prezidenti İlham Əliyevə və energetika naziri Pərviz Şahbazova göstərdikləri dəstək və həmrəyliyə görə minnətdaram". Onun sözlərinə görə, bu əhəmiyyətli dəstək davamlı hava zərbələri şəraitində Ukraynanın enerji dayanıqlılığının gücləndirilməsinə mühüm töhfə verəcək.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl də Ukraynaya elektrik təchizatı sahəsində humanitar yardımlar göndərib. Ölkəmizin Ukraynaya göstərdiyi ümumi humanitar dəstəyin, o cümlədən bərpa və yenidənqurmayönümlü yardımların dəyəri artıq 45 milyon ABŞ dollarını ötüb.

# Türk politoloq: "Qarabağ Zəfərindən sonra Azərbaycan regionda güclü və nüfuzlu dövlət kimi mövqeyini möhkəmləndirib"

**"1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində baş verən qlobal geosiyasi proseslər keçmiş sovet məkanında müstəqillik məsələsini gündəmə gətirdi. 1989-cu ildə Berlin divarının yıxılması, 1990-cı ildə Şərqi Avropada, xüsusilə Macarıstan, Çexiya və Polşada sosialist rejimlərə qarşı kütləvi xalq hərəkatlarının başlaması, 1991-ci ildə isə Rusiyada Kommunist Partiyasının dağılması və Sovet Sosialist Respublikaları İttifaqının ideoloji və iqtisadi baxımdan beynəlxalq arenadan çəkilməsi bu prosesləri sürətləndirdi. Həmin dövrdə əvvəl Ermənistanın, sonra Azərbaycanın müstəqillik elan etməsi Cənubi Qafqazda ciddi qarşıdurmaların başlanmasına səbəb oldu".**



Bunu AZƏRTAC-a açıqlamasında türk politoloq Hüsamettin İnanç bildirib.

O deyib ki, Cənubi Qafqazda müstəqil türk dövlətinin mövcudluğuna nə sovet Rusiyası, nə də Ermənistan tərəfindən dözümlü münasibət göstərilirdi: "Bu səbəbdən Azərbaycana qarşı hücumlar qaçılmaz idi. Ermənistan silahlı dəstələri ciddi şəkildə dəstəklənirdi və xüsusilə Xocalıda törədilən soyqırımı bu siyasətin ən dəhşətli təzahürü oldu. Məqsəd Qarabağ bölgəsində yaşayan azərbaycanlıları öz yurdlarından didərgin salmaq, demoqrafik vəziyyəti dəyişmək idi. Nəticədə bir milyona yaxın insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü".

Hüsamettin İnanç vurğulayıb ki, Xocalı, Xocavənd və digər yaşayış məntəqələrində baş verən bu hadisələr beynəlxalq miqyasda misli görünməmiş insanlıq cinayətləridir. "Bu proses nəticəsində Qarabağ və ətraf yeddi rayon uzun müddət Ermənistanın işğalı altında qaldı. Amma tarixi faktlar göstərir ki, XIX əsrin əvvəllərinə qədər indiki Ermənistan ərazisi, o cümlədən İrəvan türk torpaqları olub", - deyə o vurğulayıb.

Politoloqun sözlərinə görə, sovet dövründə Azərbaycan xalqının dilinin, dininin və tarixi kimliyinin sistemli şəkildə sıxışdırılmasına cəhd göstərilsə də, bu siyasət məqsədə çatmayıb: "Azərbaycan xalqı heç vaxt rus hakimiyyətini tam qəbul etmədi. Bu gün gəldiyimiz nöqtədə isə Azərbaycan artıq Türk Dövlətləri Təşkilatında aparıcı mövqeyə malikdir, hərbi və təhlükəsizlik arxitekturasında Bakının rolu açıq şəkildə görünür".

Hüsamettin İnanç vurğulayıb ki, 2020-ci ildə əldə olunan Qarabağ Zəfəri Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olub:

"Bu zəfərlə işğal altında olan torpaqlar azad edildi, bu gün Azərbaycan beynəlxalq sistemdə güclü, nüfuzlu və hörmət edilən dövlətdir. Enerji resurslarından ağıllı şəkildə istifadə edən Azərbaycan Avropa və dünya üçün etibarlı tərəfdaşdır".

Türk politoloq qeyd edib ki, Azərbaycan dövlət quruculuğu və milliləşmə prosesini böyük ölçüdə tamamlayıb və türk dünyasında qürur mənbəyi olan ölkələrdən biridir.




# Xankəndiyə ilk qayıdış

**Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın müasir tarixində yeni bir mərhələnin əsasını qoyur. İşğaldan azad olunmuş ərazilərdə yenidən qurulan şəhər, kənd və qəsəbələr mərhələli şəkildə öz sakinlərinə qovuşur. Dağıntılar üzərində salınan yeni ünvanlar təkcə müasir memarlığın deyil, eyni zamanda qayıdışın, dirçəlişin və milli iradənin rəmzinə çevrilir.**



Bu böyük proses çərçivəsində Xankəndi şəhərinə köçürülən ailələr doğma yurda dönüş sevincini yaşayırlar. Dünən ilkin mərhələdə Xankəndi şəhərinə 36 ailə, ümumilikdə 162 nəfər qayıdıb. Onlar ölkənin müxtəlif bölgələrində - Bakı, Ağcabədi, Bərdə, Abşeron, Goranboy, Ağdam, Sumqayıt, Gəncə, Şəmkir və Tərtər rayonlarında məskunlaşmış keçmiş məcburi köçkünlərdir. Bununla Qarabağ və Şərqi Zəngəzurda 8 şəhər, 3 qəsəbə və 26 kəndə ümumilikdə 6590 ailə, 25916 nəfər qayıdıb. Bu rəqəmlər "Böyük qayıdış" proqramının real nəticələrini və dövlət siyasətinin miqyasını açıq şəkildə nümayiş etdirir.

Xankəndiyə qayıdan sakinlər üçün bu dönüş, sadəcə, ünvan dəyişikliyi deyil, 30 ildən artıq davam edən nisgilin, həsrətin sona çatması deməkdir. Keçmiş məcburi köçkün Elməddin Quliyev doğma şəhərinə qayıdış hisslərini bölüşərkən bildirdi ki, uşaqlığının bir hissəsi Xankəndi ilə bağlıdır. "Mən Xankəndidə yaşayırdım, bağçaya gedirdim. Sonra oradan ayrı düşdüm. Otuz ildən sonra doğma yurduma qayıdıram. Hər şey yadımdadır, gözlərimin qabağındadır", - deyə o vurğulayır. Onun sözlərinə görə, bu qayıdış həm böyük sevinc, həm də dərin minnətdarlıq hissi yaradır. Altı nəfərlik ailəsi üçün dördotaqlı evlə təmin olunan Elməddin Quliyev şəhidlərin xatirəsini ehtiramla yad edir, qazilərə şəfa diləyir və doğma yurda dönüşün sözlə ifadə olunmaz bir hiss olduğunu qeyd edir.

Xankəndiyə köçən digər keçmiş məcburi köçkün Rübabə Abbasova da uzun illər bu şəhərdə yaşadıqlarını xatırladır. Onun sözlərinə görə, Xankəndi, sadəcə, bir yaşayış yeri deyil, həyatlarının, xatirələrinin ayrılmaz parçasıdır. "Çox çətin günlərdən sonra sağ-salamat qayıdırıq. Bizə yaradılan şəraitə görə təşəkkür edirəm" deyən Rübabə Abbasova ikiotaqlı mənzillə təmin olunduqlarını bildirir. Məcburi köçkün düşdükləri dövrdə səkkiz nəfərlik ailə olduqlarını, indi isə qızı ilə birlikdə doğma yurda döndüklərini söyləyir. Bu qayıdış onun üçün həm keçmişin xatirəsi, həm də yeni həyatın başlanğıcıdır.

Keçmiş məcburi köçkün Ülviyyə Quliyeva isə Xankəndidən uşaq yaşlarında ayrıldığını, uzun illər Ramana qəsəbəsində yaşadıqlarını qeyd edir. Onun sözlərinə görə, doğma yurda dönüş qəlblərində böyük sevinc və minnətdarlıq hissi yaradıb. "Yaradılan şəraitə görə dövlətimizin başçısına dərin təşəkkürümü bildirirəm. Onun qayğısı və diqqəti sayəsində ailəmiz üçün yeni imkanlar açıldı, uşaqlarımız xoşbəxt və təhlükəsiz bir mühitdə böyüyəcək", - deyə Ülviyyə Quliyeva vurğulayır. Bu fikirlər dövlətin həyata keçirdiyi sosial siyasətin insan talelərində necə real dəyişikliklər yaratdığını göstərir.

Familə Pəniyeva da illər sonra vətənə qayıtmağın böyük bir xoşbəxtlik olduğunu deyir. Onun sözlərinə görə, evlər püşkatma yolu ilə verilir və bu, şəffaflıq prinsiplərinə əsaslanan yanaşmanın göstəricisidir. "Çox çətinliklər yaşamışdıq, amma heç birimiz ümidimizi itirmədik", - deyən Familə Pəniyeva bu gün təhlükəsiz şəraitdə yaşamaq imkanına sahib olduqlarını bildirir.

Xankəndidə və digər azad edilmiş ərazilərdə aparılan bərpa işləri yalnız yaşayış binalarının tikintisi ilə məhdudlaşmır. Burada müasir infrastruktur qurulur, yollar, sosial obyektlər, məktəblər, səhiyyə müəssisələri və kommunal şəbəkələr yenidən inşa edilir. Məqsəd təkcə insanları geri qaytarmaq deyil, eyni zamanda onların layiqli, təhlükəsiz və dayanıqlı həyat şəraiti ilə təmin olunmasıdır.

"Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilən bu tədbirlər Azərbaycanın postmünaqişə dövründə qarşıya qoyduğu əsas hədəflərin reallaşdığını göstərir. Həsrət, nisgil və ağrı yerini ümidə, sabaha, inama verir. Doğma yurda qayıdan insanlar təkcə evlərinə deyil, öz köklərinə, xatirələrinə və gələcəyə qayıdırlar. Xankəndiyə köçən hər bir ailə bu siyasətin canlı şahidinə çevrilir. Onların sevinc dolu baxışları, minnətdarlıq dolu sözləri dövlətlə vətəndaş arasında möhkəm bağın mövcudluğunu bir daha təsdiqləyir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Evlərin açarları təqdim olunub





**Yanvarın 21-də Xankəndi şəhərinə ilk köç prosesi reallaşıb.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış Xankəndi şəhərindən olan keçmiş məcburi köçkünlərdən ibarət 36 ailə (162 nəfər) doğma yurduna qayıdıb. Onların Xankəndiyə qayıdışı böyük coşqu ilə qarşılanıb.

Əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərin ruhu ehtiramla yad olunub. Sakinlərə yeni mənzillərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bu ərazilər qısa müddət ərzində yenidən dirçəldilir, müasir yaşayış məkanları, sosial infrastruktur obyektləri, yollar, məktəblər, səhiyyə və mədəniyyət müəssisələri bərpa və inşa olunur.

Şəhid atası Kamran Nəsirov bu tarixi anlardan, torpağa qovuşmağın xoşbəxtliyindən danışıb. Digər Xankəndi sakini Nadir Rəşidov da bu anı illərlə gözlədiyini, bu günləri yaşadan qəhrəman oğullarımız qarşısında baş əydiklərini deyib.

ANAMA-nın mütəxəssisləri sakinlərlə maarifləndirici söhbətlər aparıb, şübhəli əşyalar gördükdə onlardan uzaq durmalarını tövsiyə ediblər.

* * *

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı davam edir. Yanvarın 21-də Xankəndi şəhərinə yola düşən ilk köç karvanı ünvana çatıb.

İlkin mərhələdə Xankəndi şəhərinə 36 ailə - 162 nəfər köçürülüb.

Xankəndi şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# Horovludan qış görüntüləri

**İşğaldan azad olunan Cəbrayıl rayonunun Horovlu kəndinin sakinləri illər sonra öz doğma kəndlərində ilk qar sevincini yaşayıblar.**



AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur bölgəsində davam edən qarlı hava şəraiti Horovlu kəndində də gözəl mənzərə yaradıb.

Qeyd edək ki, Azərbaycan dövləti tərəfindən yenidən bərpa olunan kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi ilə - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binası, 220 yerlik körpələr evi-uşaq bağçası, ikimərtəbəli inzibati bina, bazar kompleksi, çoxfunksiyalı iaşə obyektləri, tibb məntəqəsi və idman-sağlamlıq mərkəzi tikilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Horovlunun qış görüntülərini təqdim edirik.

# "Qarabağ" UEFA Çempionlar Liqasında növbəti oyununu keçirib

**"Qarabağ" futbol klubu UEFA Çempionlar Liqasında növbəti oyununu keçirib.**



AZƏRTAC xəbər verir ki, Ağdam təmsilçisi liqa mərhələsinin VII turunda Almaniyanın "Ayntraxt" klubunu qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılan qarşılaşma Azərbaycan çempionunun əzmkar qələbəsi ilə başa çatıb - 3:2.

Matça sürətli başlayan "Qarabağ" erkən qolla hesabı açıb. 4-cü dəqiqədə Elvin Cəfərquliyevin sol cinahdan qapı qarşısına ötürməsindən sonra Kamilo Duran dəqiq zərbə ilə komandasını önə keçirib. Hesabda geri düşən qonaqlar cəmi 6 dəqiqə sonra tarazlığı bərpa ediblər. Pedro Bikalyonun səhvindən sonra topu ələ keçirən "Ayntraxt"ın türkiyəli hücumçusu Can Uzun Mateuş Koxalskinin qoruduğu qapıya yol tapıb - 1:1. İlk hissə bu hesabla yekunlaşıb.

İkinci yarı da "Qarabağ"ın üstünlüyü şəraitində keçib. Buna baxmayaraq, görüşdə 3-cü qolu Bundesliqa təmsilçisi vurub. Bəhlul Mustafazadənin kobud oyunundan sonra matçın baş hakimi Sandro Şörer penalti təyin edib. Yeri gəlmişkən, isveçrəli referi bu epizoddan öncə Kamilo Durana qarşı kobudluq zamanı qayda pozuntusu qeydə almayıb. Nəticədə hakimin mübahisəli qərarları ciddi narazılığa səbəb olub. Təyin olunan 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Fares Şaibi "Ayntraxt"ı hesabda önə keçirib. Ruhdan düşməyən "Qarabağ"ın futbolçuları 80-ci dəqiqədə bərabərlik qolunu vurublar. Yenə səhnəyə Kamilo Duran çıxıb. Kolumbiyalı hücumçu bu dəfə də Elvin Cəfərquliyevin ötürdüyü topu bir toxunuşla tora qovuşdurub.

Oyunun sonları kifayət qədər dramatik alınıb. Azərbaycan çempionunun çoxsaylı hücum cəhdi görüşün əsas vaxtına artırılmış sonuncu - 4-cü dəqiqə öz bəhrəsini verib. Mateus Silvanın sağ cinahdan cərimə meydançasına ötürməsini Bəhlul Mustafazadə məntiqi sonluğa çatdırıb.

Beləliklə, son dəqiqə qolu ilə "Ayntraxt"a qalib gələn "Qarabağ" pley-offa vəsiqə uğrunda vacib addım atıb. Bu nəticədən sonra xallarını 10-a çatdıran "köhlən atlar" yenidən ilk 24-lüyə qayıdıb.

Qeyd edək ki, "Qarabağ" Çempionlar Liqasının əsas mərhələsində son oyununu yanvarın 29-da İngiltərədə "Liverpul"a qarşı keçirəcək.

## BİLDİRİŞ

Bakı şəhərində fəaliyyət göstərən "Baku Kids Company" Qapalı Səhmdar Cəmiyyəti (VÖEN:3104252931, hüquqi ünvan: AZ0116, Abşeron rayonu Masazır qəsəbəsi, Həsən Əliyev küçəsi, ev 27B) təşkilati-hüquqi formasını dəyişərək "Baku Kids Company" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrildiyini və bu səbəbdən bütün qiymətli kağızların (səhmlərin) dövriyyədən çıxarıldığını elan edir. Qiymətli kağızların dövlət qeydiyyat nömrəsi AZ1001024681, adi adlı səhm, nominal dəyəri 2,0 (iki) AZN, ümumi miqdarı 1000 (bir min) ədəd təşkil edir. Qiymətli kağızların geri satın alınması nəzərdə tutulmamışdır.

# "20 Yanvar gənclərin gözü ilə" adlı tədbir keçirilib

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Nəriman Nərimanovun xatirə muzeyinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "20 Yanvar gənclərin gözü ilə" mövzusunda anım tədbiri keçirilib.**



Əvvəlcə Şəhidlər xiyabanı ziyarət edilərək abidə önünə gül dəstələri düzülüb. Tədbir şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Muzeyin böyük elmi işçisi İradə Əliyeva bu faciənin xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmasından, sovet imperiyasının hərb maşınının həyata keçirdiyi bu vəhşi terror aktının bəşər tarixinə ən ağır cinayətlərdən biri kimi daxil olmasından danışıb.

Tədbir ADPU-nun müəllimi, tarix üzrə fəlsəfə doktoru Taleh Cəfərovun və Gənclər Təşkilatı üzvlərinin çıxışları, təqdimatları ilə davam edib. İştirakçılar 20 Yanvar hadisələrinə dair düşüncələrini bölüşərək, həmin günün Azərbaycan tarixindəki əvəzsiz yerindən bəhs ediblər.

Muzeyin direktoru Ləman Hüseynova çıxış edərək belə tədbirlərin keçirilməsinin gənclər arasında tarixi yaddaşın qorunması və milli-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Tədbir iştirakçıları 20 Yanvar faciəsinin acı tarixini özündə əks etdirən müxtəlif foto, sənəd, qəzet, jurnal materiallarından ibarət sərgi ilə tanış olublar.

***"Azərbaycan"***

# Lənkərana yağan intensiv yağışın yaratdığı fəsadlar aradan qaldırılır

**İntensiv yağışlar nəticəsində Lənkəranda bir sıra çaylarda sululuq səviyyəsinin artması nəticəsində, eləcə də suötürücü kollektor və kanalların həcmi və ötürücülük qabiliyyəti texniki baxımdan sel sularının ötürülməsinə imkan vermədiyi üçün rayonun bəzi ərazilərində qısamüddətli subasma halları müşahidə edilib.**



Hava şəraitinin kəskinləşməsi ilə bağlı Lənkəran rayon Fövqəladə Hallar Komissiyası gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Subasma halları müşahidə olunan ərazilərdə aidiyyəti qurumlarla birgə tədbirlər görülür. Lənkəran Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin ağır texnikaları ərazilərə cəlb edilib. Vilvan, Separadi, Zövlə, Kərgəlan və Səpnəkəran kəndlərində intensiv yağan yağışın yaratdığı fəsadlar aradan qaldırılır.

Subasma halları müşahidə olunan ərazilərdə gündəlik tələbat mallarının tədarükü tam şəkildə təmin edilib, rayon ərazisində qazın, suyun və elektrik enerjisinin verilişində heç bir problem yaranmayıb. Hazırda rayonun bütün aidiyyəti idarələri koordinasiyalı şəkildə bu istiqamətdə fəaliyyətini davam etdirirlər.

***S.CAVADOV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi

**ZİYAD ABBASƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3227
Sifariş 90

Qiyməti 60 qəpik